

**«...Ətrafımızda bizi və dünyanı çox narahat edən proseslər gedir. ... belə geosiyasi vəziyyətdə inamla, uğurla inkişaf etmək üçün, ilk növbədə, xalqla iqtidar arasında birlik, güclü siyasi iradə olmalıdır.»**

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# AZƏRBAYCAN PROKURORLUĞU

ELMİ-PRAKTİKİ JURNAL

**№ 4 (48)**

**OKTYABR – DEKABR 2014-cü il**

**Təsisçi:** Azərbaycan Respublikasının Baş Prokurorluğu



**REDAKSİYA HEYƏTİ:**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
*nazirbairamov@mail.ru*

**Redaksiya heyətinin üzvləri:**
Bəhruz Mahmudov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:** Eldar Əfəndiyev



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
Tel.: 492-25-17, Faks: 492-25-17
www.genprosecutor.gov.az

***

«Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

***

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövriliklə dərc edilir.

***

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli «Azərbaycan Prokurorluğu» elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan «Azərbaycan Prokurorluğu» jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

***

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

***

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

***

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

***

Çapa imzalanmışdır: 26.01.2015-ci il
60x84 1/8 formatda 136 səhifə həcmində çap olunmuşdur. Tiraj: 1350 nüsxə.



© «Azərbaycan Prokurorluğu», 2014


## MÜNDƏRİCAT


**İctimai-siyasi tədbirlər**

– Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir .......... 3
– Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir .......... 8
– Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir .......... 9
– Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə münasibətilə Azərbaycan xalqını təbrik etmişdir .. 10

**Rəsmi tədbirlər**

– Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevi anma mərasimi keçirilmişdir .......... 12
– Naxçıvan Muxtar Respublikası Prokurorluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilmişdir .......... 15
– Azərbaycan Respublikası Prokurorluğunun kollektivi milli prokurorluq orqanlarının yaradılmasının 96-cı ildönümünü – növbəti peşə bayramını təntənəli şəkildə qeyd etmişdir .......... 18
– Zakir Qaralov: Azərbaycan Prokurorluğunun müasir inkişaf dövrü 23
– Naxçıvan Muxtar Respublikasında prokurorluq orqanlarının yaradılmasının 96 illiyinə həsr olunmuş tədbir keçirilmişdir .......... 32
– Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir .......... 35
– Tabe rayon (şəhər) prokurorluqlarında prokurorluq işçilərinin peşə bayramı qeyd edilmişdir .......... 37
– Bakıda Beynəlxalq Antikorrupsiyaya Akademiyası (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının üçüncü sessiyası keçirilmişdir .......... 40
– Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Baş Prokurorluqda olmuşdur .......... 49
– Malayziya Krallığının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur .......... 49
– Vyetnam Milli Assambleyasının Hüquq Komitəsinin üzvləri Baş Prokurorluqda olmuşlar .......... 51
– Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzində saxlanılır .......... 52
– Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılır .......... 54

**Təhlillər, təkliflər**

N.Bayramov – Cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) bəzi məsələlərinə aydınlıq gətirilməlidir .......... 57
M.Tağıyev – Prokurorluğun fəaliyyətinin hüquqi təminatı möhkəmləndirilir .......... 63

**İctimaiyyətə hesabat**

– Prokurorluq orqanlarının əməkdaşları elmi-praktiki konfranslarda iştirak etmişlər .......... 67
– Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kursları keçirilmişdir .......... 70
– Prokurorluğu orqanlarına qulluğa qəbulla əlaqədar icbari təlim keçirilmişdir .......... 73
– Din xadimlərinə təlimdə prokurorluq işçisi iştirak etmişdir .......... 74
– Vətəndaşlara elektron xidmət göstəriləcək .......... 75
– Prokurorluqlarda «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının müddəaları öyrənilir .......... 75
– Şəki və Yevlax rayonlarında «Cinayət prosesində ictimaiyyətin iştirakının hüquqi əsasları» mövzusunda seminarlar keçirilib .......... 76
– Baş Prokurorluqda mülki müdafiə məşqləri keçirilmişdir .......... 77
– Abşeron, Şəki, Şirvan, Yevlax və Sumqayıt şəhər (rayon) prokurorluqlarında seminarlar keçirilmişdir .......... 78
– Baş Prokurorluğun əməkdaşları məcburi köçkünlərə bayram sovqatı paylamışlar .......... 80
– Naxçıvan Muxtar Respublikasında prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur ...... 81
– Naxçıvan Muxtar Respublikasında Beynəlxalq İnsan Hüquqları Günü qeyd olunmuşdur .......... 82
– Naxçıvan Muxtar Respublikası prokurorluğunun əməkdaşları muzeylərdə olmuşlar .......... 84

**Prokurorluğun beynəlxalq əlaqələri** .......... 85

**Normativ hüquqi aktlar**

Qanunvericiliyə dəyişikliklər .......... 91
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarları.......... 113

## İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

### PREZİDENT İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ



Bu gün biz üçüncü rübün və ilin doqquz ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Üçüncü rübdə ölkəmizin inamlı inkişafı istiqamətində önəmli addımlar atılmışdır. Ümumiyyətlə, ilin əvvəlindən bu günə qədər Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Yadımdadır, ilin əvvəlində keçən ilin yekunlarını müzakirə edərkən qeyd etmişdim ki, 2014-cü il də Azərbaycan üçün uğurlu il olacaqdır. Artıq doqquz ayın nəticələri onu göstərir ki, həqiqətən bu il də tarixdə uğurlu il kimi qalacaq. Bu da təbiidir, çünki son illər ərzində aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəmizin dinamik inkişafını təmin etmişdir.

Doqquz ayın iqtisadi göstəriciləri də çox müsbətdir. İqtisadiyyatımız inkişaf edir, artır. Xüsusilə qeyd etməliyəm ki, Avropada iqtisadi maliyyə böhranı davam edir, ancaq Azərbaycanda hər il iqtisadi inkişaf müşahidə olunur və bu ilin doqquz ayında ümumi daxili məhsul 2,5 faiz artmışdır. Dünyada mövcud olan vəziyyəti nəzərə alsaq, deyə bilərik ki, bu, çox müsbət göstəricidir. Ən önəmlisi ondan ibarətdir ki, – bunu biz hər dəfə məmnuniyyətlə qeyd edirik, – qeyri-neft sektorumuz 6 faiz artmışdır. Qeyri-neft sektorunun artması, əlbəttə ki, bizim siyasətimizin nəticəsidir. Çünki bizim üçün əsas məsələ qeyri-neft sektorunun inkişafıdır.

Neft-qaz sektorunda işlər uğurla gedir. Mən bu barədə bir qədər sonra öz fikirlərimi bildirəcəyəm. Ancaq qeyri-neft sektorunun inkişafı bizim əsas məqsədimizdir.

Qeyri-neft sənayesi 6 faiz səviyyəsində artmışdır. Bu da çox müsbət göstəricidir. İnflyasiya çox aşağı səviyyədədir – cəmi 1,5 faiz. Əhalinin pul gəlirləri isə 5,4 faiz artmışdır. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə bu, bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Əminəm ki, inflyasiya ilin sonuna qədər də aşağı səviyyədə olacaq. Çalışmalıyıq ki, gələn il də bu göstərici aşağı səviyyədə olsun. Bunu xüsusilə qeyd etməliyəm, çünki büdcəmiz artır və bu il də büdcə xərcləri kifayət qədər böyükdür. Maaşlar, pensiyalar qalxır, doqquz ayda da qalxmışdır. Buna baxmayaraq, inflyasiya aşağı səviyyədədir və bu da makroiqtisadi vəziyyətin sabit olmasını göstərir.

İnvestisiyalar böyük həcmdə qoyulur. İlin əvvəlindən 19 milyard dollar sərmayə qoyulmuşdur.

Onlardan 11 milyardı daxili sərmayədir. Bu da son illərdə müşahidə olunan mənzərədir. İnvestisiyalar artır və daxili investisiyalar üstünlük təşkil edir. Düzdür, daxili investisiyaların böyük hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ də dövlət xətti ilə infrastruktur layihələrinə, o cümlədən sosial infrastruktur layihələrinin icrasına vəsait ayrılmalıdır. Ancaq Azərbaycana özəl sərmayə də qoyulur. Azərbaycanda çox müsbət sərmayə iqlimi vardır, yerli və xarici investorlar bizim ölkəmizə inanırlar, ölkəmizin gələcəyinə inanırlar. Buna görə Azərbaycana çox böyük həcmdə investisiyalar qoyulur.

Bu gün deyə bilərəm ki, dünyanın əksər ölkələrində xarici investisiyaları cəlb etmək üçün çox böyük işlər aparılır, rəqabət aparılır. Çünki hər bir ölkənin iqtisadi inkişafını investisiyalar müəyyən edir. Bu gün avrozonada müşahidə olunan vəziyyət onu göstərir, ekspertlər, alimlər qeyd edirlər ki, investisiyalar olmasa, bu böhrandan çıxmaq çətin olacaqdır.

Azərbaycanda isə bu sahədə vəziyyət çox müsbətdir. Doqquz ayda 19 milyard dollar investisiya qoyulub. İlin sonuna qədər bu rəqəm daha da artacaq və beləliklə, bizim inkişafımız daha da sürətlə gedəcək.

İnvestisiyalar müxtəlif sahələrə qoyulur: həm sənayenin, kənd təsərrüfatının, turizm sektorunun inkişafına, əlbəttə ki, neft-qaz sənayesinin inkişafına. Bu da təbiidir. Çünki bizim iqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır. Məhz buna görə iqtisadi artımımız davam edir. Baxmayaraq ki, hazırda neftin qiyməti də kəskin şəkildə aşağı düşür. Ancaq ölkəmiz qeyri-neft sektoru hesabına bundan sonra da inkişaf edəcək və bu, bizim inkişafımızı dayanıqlı edəcək. Yəni, bizim əsas məqsədimiz neft amilindən asılılığımızı maksimum dərəcədə azaltmaq və qeyri-neft sektoru hesabına gələcəkdə Azərbaycanı inkişaf etdirməkdir.

Bizim kifayət qədər valyuta ehtiyatlarımız var. İlin əvvəlindən maliyyə resurslarımız 3 milyard 600 milyon dollar artıb. Bütövlükdə bizim 53 milyard dollardan çox valyuta ehtiyatlarımız var ki, bu da dünya miqyasında çox böyük göstəricidir. Adambaşına düşən valyuta ehtiyatlarımız isə, hesab edirəm ki, dünya miqyasında ən yüksək səviyyədədir.

Biz əlbəttə ki, neftdən əldə edilmiş gəlirləri şəffaf saxlamaqla və ölkəmizin inkişafına, o cümlədən sosial layihələrin icrasına yönəltməklə dinamik inkişafımızı təmin edirik. Eyni zamanda, bizim rezervlərimiz artır və artacaq. Mən qarşıya belə vəzifə qoymuşam ki, biz çalışmalıyıq, maliyyə rezervlərimiz ildən-ilə artsın. Bu da, əlbəttə ki, həm xarici investorlar üçün əlavə imkanlar yaradır, inamı artırır, eyni zamanda, dünya maliyyə bazarlarından yaxşı şərtlərlə kreditlərin alınması üçün əlavə imkanlar yaradır. Halbuki buna o qədər də böyük ehtiyac yoxdur. Sadəcə olaraq, bu, bizə əlavə inam verir. Mən dəfələrlə demişəm ki, əvvəlki illərdə bizim əsas vəzifəmiz iqtisadi müstəqilliyimizi yaratmaq idi. Bunu da yaratmışıq. Biz iqtisadi cəhətdən tam müstəqilik, heç kimdən asılı deyilik və bu bizə imkan verir ki, siyasi sahədə də, o cümlədən xarici siyasətdə də müstəqil siyasət aparaq. Bizim əsas istinad nöqtəmiz, güc mənbəyimiz iqtisadi müstəqilliyimizdir.

Deyə bilərəm ki, Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə də irəliyə getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Yəni bir sözlə, biz dünyanın ən rəqabət qabiliyyətli 40 ölkəsinin sırasındayıq. Bu tarixi nailiyyətdir və bizə əlavə inam verir. Biz onsuz da bilirik ki, düz yoldayıq. Azərbaycan inamla inkişaf edir. Ancaq mötəbər, böyük nüfuzu olan maliyyə-iqtisadi qurumların qiymətləndirməsi, əlbəttə ki, çox önəmlidir.

Doqquz ayda bütün infrastruktur layihələri uğurla icra edilmişdir və bu proses davam etdirilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilmişdir. Yüz mindən çox yeni iş yeri açılmışdır, onlardan 80 mini daimi iş yerləridir. Proqramın əvvəlindən, 2004-cü ildən bu günə qədər 1 milyon 300 min yeni iş yeri açılmışdır. Bu da imkan vermişdir ki, işsizlik kəskin şəkildə aşağı düşsün və bu gün 5 faiz səviyyəsindədir. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 25, 30 faizdir, gənclər arasında isə 50 faizə çatır. Ancaq Azərbaycanda işsizliklə bağlı problemlər öz həllini tapır və burada əlbəttə ki,



dövlət investisiyaları, gözəl sərmayə iqlimi, biznes mühitinin yaxşılaşdırılması faktorları öz rolunu oynayır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası da burada əsas rol oynayır. Çünki hələ bizim iqtisadiyyatımızda neft faktoru kifayət qədər böyük yer tutur. Baxmayaraq ki, ümumi daxili məhsulumuzda qeyri-neft sektoru artıq 55 faizdən çoxdur, ancaq ixrac potensialımızın böyük əksəriyyəti neft-qazla bağlıdır. Onu da yaxşı bilirik ki, neft-qaz sahəsində böyük həcmdə iş yerlərinin yaradılması mümkün deyil. Ona görə bizim əsas hədəfimiz qeyri-neft sektoru idi. O sektorda iş yerlərinin açılması əlbəttə ki, işsizliyin aşağı düşməsinə xidmət göstərmişdir.

Sosial proqramlar icra edilir, doqquz ayda maaşlar, pensiyalar, orta əmək haqqı artmışdır. Sosial layihələr icra edilir, – məktəblər, xəstəxanalar, olimpiya kompleksləri, mədəniyyət ocaqları, – bu sahəyə də böyük diqqət göstərilir və bizim investisiya portfelimizdə sosial layihələrə xərclənən vəsait kifayət qədər böyükdür.

Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün önəmli addımlar atılmışdır. Bu il də böyük vəsait ayrılmışdır ki, köçkünlər yeni evlərlə təmin olunsunlar. Bu proses gedir və gələn il də təbii ki, davam etdiriləcəkdir.

Bir sözlə, ölkəmizin hərtərəfli inkişafı imkan verir ki, biz gələcək planlarımızı da müəyyən edək. Bu planlar ictimaiyyət üçün aydındır, bəllidir. Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş proqramı, konsepsiyası – «2020 konsepsiyası» var və əlbəttə ki, bu layihələrin, infrastruktur layihələrinin icrası imkan verəcək ki, dinamik inkişaf davam etsin.

Bakı və onun qəsəbələri üzrə proqram icra edilir. Bu proqram çərçivəsində onlarla məktəb təmir edilib, tikilib, uşaq bağçalarının sayı artır və təminat yaxşılaşır.

Bakı qəsəbələrində infrastruktur layihələri icra edilir. İlk növbədə, su-kanalizasiya layihələri, ondan sonra kənd yolları tikilir. Yəni bu da, hesab edirəm ki, çox vaxtında qəbul edilmiş proqram idi. Həm regionların, həm də Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət proqramları paralel şəkildə icra edilir və əminəm bizə imkan verəcək ki, növbəti 2-3 il ərzində ölkə qarşısında duran əsas infrastruktur layihələri başa çatacaq. Əlbəttə ki, bu, bizim gələcək inkişafımıza müsbət təsir göstərəcək. Ona görə ki, böyük investisiya layihələri artıq arxada qalır. Bu imkan verəcək ki, biz büdcə vəsaitini yeni istiqamətlərə yönəldək. Biznesin təşviqi, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun inkişafı

üçün daha da böyük həcmdə vəsait nəzərdə tutaq. Çünki hələ dövlət investisiya xərclərinin təbii ki, böyük hissəsi infrastruktur layihələrinə yönəlibdir. Su anbarları, magistral yollar, digər layihələr, dəmir yolları, o cümlədən içməli su, kanalizasiya layihələri, Oğuz-Qəbələ-Bakı su kəməri – bu nəhəng infrastruktur layihələri böyük vəsait tələb edən layihələrdir. O cümlədən gəmiqayırma zavodu, yeni beynəlxalq dəniz ticarət limanı, yəni bütün bu layihələr artıq icra edilib, ya da onların icrasına az qalıbdır. Ona görə biz növbəti illərdə büdcə xərclərini daha çox dayanıqlı inkişafı təmin edən layihələrə yönəltməliyik.

Bax, bizim konseptual yanaşmamız bundan ibarətdir. İnfrastruktur layihələri icra edilməli idi ki, şərait yaradılsın. Biznesin inkişafı üçün aparılan islahatlar müsbət rol oynamışdır. Sahibkarlığın inkişafına həm siyasi, həm maliyyə dəstəyi göstərilmişdir və göstərilir. Beləliklə, ölkənin dinamik inkişafı təmin edilmişdir və bu gün Azərbaycanın müsbət təcrübəsi öyrənilir. Bu yaxınlarda IV Bakı Beynəlxalq Forumunda iştirak edən BMT-nin İnkişaf Proqramının direktorunun çıxışında da səsləndi ki, Azərbaycanda yoxsulluğun azaldılmasında əldə edilmiş təcrübə çox önəmlidir və başqa ölkələr üçün də örnək ola bilər. Yoxsulluğun azaldılması bilavasitə bizim iqtisadi siyasətimizlə və sosial siyasətlə bağlıdır. Mən bunu dəfələrlə demişəm, bu bizim siyasətimizdir ki, sadəcə olaraq iqtisadi islahatlarla məşğul olmamalıyıq. Biz sosial sahəyə böyük diqqət göstərməliyik. Çünki köklü iqtisadi islahatlar bir çox hallarda sosial problemlərə gətirib çıxarır. Ancaq Azərbaycanda bunun əksini görürük. Biz böyük sosial layihələri icra etmişik. Vaxtilə sovet dövründən qalan əmanətləri kompensasiya şəklində MDB məkanında ən qısa müddət ərzində və ən yüksək əmsalla insanlara qaytardıq. Maaşlar, pensiyalar durmadan artır. Bir daha demək istəyirəm ki, yanaşmamız bundan ibarətdir və bu da ölkə qarşısında yeni imkanlar açır.

Əfsuslar olsun ki, bu il də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmamışdır. Bunun başlıca səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv, qeyri-səmimi davranışıdır. Ermənistan çalışır ki, maksimum dərəcədə bu məsələni uzatsın və status-kvo dəyişməz olaraq qalsın. Baxmayaraq ki, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Ancaq əfsuslar olsun ki, bu bəyanatlar havada qalır, Ermənistan buna məhəl qoymur. Bu bəyanatları səsləndirən tərəflər isə ciddi ölçü götürmürlər və belə olan halda məsələ öz həllini tapmır. Biz çalışırıq və çalışacağıq ki, bu məsələ tezliklə öz həllini tapsın. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe beynəlxalq birlik tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Bu münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bunlar məsələnin həlli üçün əsas sənədlərdir. Digər beynəlxalq təşkilatlar da müvafiq qərar və qətnamələr qəbul etmişlər. Yəni hüquqi cəhətdən bizim mövqeyimiz kifayət qədər möhkəmdir.

İqtisadi cəhətdən əlbəttə ki, Ermənistanı Azərbaycanla müqayisə etmək mümkün deyil. Azərbaycan zənginləşən, güclənən müstəqil bir dövlətdir. Əlbəttə ki, güclər nisbəti bizim xeyrimizə dəyişir, dəyişəcək. Bizim aramızdakı uçurum daha da dərinləşəcək. Ermənistanın uğurlu inkişafı üçün heç bir amil yoxdur. Çünki ölkə tənəzzülə uğrayıbdır. Nə qədər ki, Ermənistanda kriminal diktatura rejimi hökm sürür, bu ölkə öz müstəqilliyini tamamilə bir o qədər də tez itirəcəkdir. İndi də Ermənistanı müstəqil ölkə adlandırmaq mümkün deyil.

Biz isə inkişaf edirik. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bizim kifayət qədər imkanlarımız var. Ordu quruculuğu Azərbaycanda uğurla gedir və gedəcəkdir. Üçüncü rübdə təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatına da bizim hərbçilərimiz layiqli cavab vermişlər. Onlarla işğalçı məhv edilmişdir. Onlara böyük sarsıdıcı zərbə vurulmuşdur. Sadəcə olaraq onlar çalışırdılar ki, Soçi görüşü ərəfəsində özləri üçün daha da əlverişli mövqe əldə etsinlər. Ancaq onların səyləri iflasa uğradı və nəticə etibarilə erməni əsgərləri məhv edildi. Bunun da əsas günahkarı Ermənistanın kriminal rejimidir.

Bir də demək istəyirəm ki, bizim prinsipial mövqeyimizə heç bir qüvvə təsir edə bilməz. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Siyasi, diplomatik, iqtisadi, hərbi amillər burada əsas rol oynayır. Mən dəfələrlə demişəm, bir də demək istəyirəm ki, demoqrafik amil də az rol oynamır. Ermənistanın rəsmi statistikasına görə, təkcə bu ilin doqquz ayında ölkə əhalisi 80 min nəfər azalıbdır. Yəni 80 min erməni vətəndaşı ölkədən gedib və qayıtmayıb. Bu meyl ilin sonuna qədər davam edəcək və beləliklə, Ermənistanda 100 mindən artıq əhali azalacaqdır. Azərbaycan əhalisi isə artır və artacaq. Bu da öz növbəsində gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacaq. Ermənistan vətəndaşlarının kütləvi şəkildə ölkədən getməsinin bir neçə səbəbi var: korrupsiya, diktatura rejimi, biznes imkanlarının məhdud olması, işsizlik, yoxsulluq. Əlbəttə ki, təmas xəttində son hadisələrdən sonra bu kütləvi köç daha da geniş vüsət almışdır. Əgər Ermənistan bir daha təxribata əl atsa, yenə də layiqli cavab alacaq və görəcək ki, bu təxribat yeni köç dalğasına təkan verəcəkdir. Bir sözlə, bir də demək istəyirəm ki, Azərbaycan ictimaiyyəti də bilsin, biz öz prinsipial mövqeyimizdən geri çəkilməyəcəyik. Çalışırıq, çalışacağıq ki, məsələ öz həllini tapsın və tapacaqdır.

Keçən rübdə ölkəmiz üçün tarixi hadisə baş vermişdir. «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. Böyük, təntənəli mərasim keçirilmişdir. Bu layihənin icra edilməsi əlbəttə ki, tarixi hadisədir. Heç kəs üçün sirr deyil ki, burada əsas rolu Azərbaycan oynayıbdır. Bu, bizim təşəbbüsümüz, bizim resurslarımız idi. Biz qonşu ölkələrlə, tərəfdaşlarla birgə bu layihəni icra edəcəyik. Əminəm ki, yaxın gələcəkdə «Cənub» qaz dəhlizi tikiləcək, istifadəyə veriləcək və ölkəmizin bundan sonra onilliklər ərzində inamlı inkişafını təmin edəcək. Bizim siyasi çəkimiz artacaq, iqtisadi sahədə yeni imkanlar yaranacaq. Kəmərin tikintisi zamanı minlərlə, on minlərlə Azərbaycan vətəndaşı işlə təmin ediləcək, yüzlərlə Azərbaycan şirkəti podratçı kimi iştirak edəcək. Yəni bu, ölkəmizə böyük gəlir və siyasi dividend gətirən bir layihədir, tarixi layihədir. Biz fəxr edirik ki, Azərbaycan bu tarixi layihənin icraçısıdır, lider dövlətdir. Bu hadisə doğrudan da tarixdə qalacaq. Keçən əsrin sonlarında «Əsrin kontraktı» imzalanmışdı. O, XX əsrin kontraktı idi. Bu layihə isə XXI əsrin layihəsidir. Əminəm ki, biz bu layihəni də uğurla icra edəcəyik.

Bu ilin doqquz ayının əsas istiqamətlərini qeyd etdim. Əlbəttə ki, bu aylar ərzində çox önəmli hadisələr baş vermişdir. Onlar haqqında burada danışsam, saatlarla vaxt lazım olacaq. Sadəcə olaraq qeyd etməliyəm ki, doqquz ayın yekunları müsbətdir. İlin sonuna qədər iş davam etdiriləcək və bu ili də biz uğurla başa vuracağıq.

Sonra maliyyə naziri Samir Şərifov, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, gənclər və idman naziri Azad Rəhimov bu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

İclasa yekun vuran Prezident İlham Əliyev ilin sonunadək dövlət investisiya proqramının tam icra olunacağını, məktəblərin, uşaq bağçalarının və müasir səhiyyə ocaqlarının tikintisinin davam etdiriləcəyini dedi. Dövlətimizin başçısı gələn ilin büdcəsində də hərbi xərclərə xüsusi diqqətin göstəriləcəyini qeyd etdi, texniki baxımdan Azərbaycan Ordusunun dünyada güclü ordular sırasında olduğunu bildirdi. Prezident İlham Əliyev bu ilin sonuna qədər investisiya proqramının təsdiq edilməsinin vacibliyini vurğuladı, müasir emal müəssisələrinin yaradıldığını, qeyri-neft sektorunun inkişafında xidmət və turizm sahələrinin xüsusi yer tutduğunu bildirdi. Dövlətimizin başçısı yaxın iki ildə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam istifadəyə veriləcəyini bildirdi, bununla da Xəzərdə ən iri ticarət limanının yaradılacağını qeyd etdi. Hava nəqliyyatının inkişaf etdiyini, keçən rübdə ilk dəfə olaraq Bakıdan Nyu-Yorka uçuşların təşkil edildiyini vurğulayan Prezident İlham Əliyev məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdiriləcəyini söylədi, ekologiya məsələlərinin həllinə diqqət göstərilməsinin önəmini vurğuladı. İlk Avropa Oyunlarına hazırlıqla bağlı bütün işlərin cədvəl üzrə uğurla getdiyini, təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olduğunu deyən Prezident İlham Əliyev bu oyunların Yay Olimpiya Oyunları səviyyəsində keçiriləcəyini bildirdi.

# PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 11 il keçir.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər iştirak etmişlər.

***

## PREZİDENT İLHAM ƏLİYEVİN QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir.

Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və dilələriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 oktyabr 2014-cü il.

# İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

– Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2014-cü il arxada qalır. 2014-cü il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilmişdir. Ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim təsir imkanlarımız da genişlənir.

Bildiyiniz kimi, 2012-2013-cü illərdə Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasında təmsil olunurdu.

155 ölkənin dəstəyi ilə biz bu haqqı qazanmışdıq. Bu il isə Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edirdi, Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına öz dəyərli töhfəsini vermişdir.

Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Qonşu dövlətlərlə və bütün digər dövlətlərlə səmərəli əməkdaşlıq edirik. İkitərəfli əlaqələrimiz inkişaf edir. Eyni zamanda, Azərbaycan çoxtərəfli formatda öz müsbət rolunu oynayır. Xüsusilə regional inkişaf məsələlərində Azərbaycanın rolu danılmazdır. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə – siyasi, iqtisadi, enerji və digər layihələr icra edilə bilməz.

2014-cü ildə iqtisadi inkişaf təmin edilmişdir. Bu da çox önəmlidir, çünki bildiyiniz kimi, dünyada hələ də iqtisadi, maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Ümumdünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu, böyük və tarixi nailiyyətdir.

Qeyri-neft sektorumuzun inkişafı bizim üçün prioritet olaraq qalır. Şadam ki, bu il qeyri-neft sektorumuz təxminən 7 faiz artmışdır. Ölkə iqtisadiyyatına 27 milyard dollar sərmayə qoyulmuşdur. Bu da çox önəmli hadisədir. Çünki indi dünyada sərmayələrin cəlb edilməsi üçün mübarizə gedir. Azərbaycanda sərmayə qoyuluşu yüksək səviyyədədir. Əminəm ki, gələn il də belə olacaq.

Yoxsulluğun, işsizliyin səviyyəsi 5 faizdir. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Dövlət xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 8 faizini təşkil edir. Bu da nadir göstəricidir. Makroiqtisadi vəziyyət sabitdir. Valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Manatın məzənnəsi isə sabit olaraq qalır.

Siz yaxşı bilirsiniz ki, dünyada neftin qiymətinin düşməsi ilə əlaqədar müəyyən gərginliklər yaşanır, o cümlədən bizim bölgəmizdə. Azərbaycan isə sabitlik adasıdır, nümunəvi ölkədir. Ölkəmizdə istər siyasi, istər iqtisadi sabitlik təmin edilir və ediləcək. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayacaq və ildən-ilə xalqımızın rifah halı yaxşılaşacaqdır.

Sosial siyasətimiz bütün dövrlərdə bizim üçün əsas vəzifə olmuşdur. Bu il Azərbaycanda sosial infrastrukturun yaradılmasına böyük vəsait qoyulmuşdur, 60-dan çox tibb ocağı, 50-yə yaxın məktəb, uşaq bağçası tikilib təmir edilmişdir.

Əminəm ki, gələn il də bu müsbət proseslər gedəcək.

Azərbaycanda inflyasiya 1,4 faizdir. Əhalinin pul gəlirlərinin artımı isə 5 faizə yaxındır. Maaşların, pensiyaların, sosial müavinətlərin ildən-ilə artırılması əlbəttə ki, insanların rifah halını yaxşılaşdırır.

Ən ağır vəziyyətdə olan soydaşlarımızın – məcburi köçkünlərin problemləri də uğurla həll edilir. Hər il 20 mindən çox köçkün yeni evlərə köçürülür. Bu il də bu məqsədlər üçün böyük vəsait ayrılmışdır və biz bu məsələni də tədricən həll edirik.

Ancaq əfsuslar olsun ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu il də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur. Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın. Bu il vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa – bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən iki həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi – Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan ordusu onlara layiqli cavab vermişdir, 50-dən çox işğalçı məhv edilmişdir. Bu ilin sonlarında da buna oxşar hadisə baş vermişdir. Yenə də Azərbaycan ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu. İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan ordusu is-

tənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə olaraq biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var.

Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çoxdur.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq.

Bu il Azərbaycanda «Sənaye ili» elan edilmişdir. Bildiyiniz kimi, sənaye potensialımız gündən-günə güclənir. Azərbaycan bu istiqamətdə çox böyük uğurlara imza atmışdır və bu sahədə görülən işlər bu il də istisna olmamışdır. Beləliklə, bu il 230-dan çox yeni sənaye müəssisəsi açılmışdır və bu da həm işsizliyin aradan qaldırılmasına, həm də ixrac potensialımızın inkişafına öz müsbət təsirini göstərir. Biz özümüzü əsas ərzaq məhsulları ilə artıq təmin edirik. Eyni mənzərəni tikinti materialları bazarında da görmək istəyirik və biz bu məqsədə çatırıq. Bildiyiniz kimi, icra edilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi də məhz bundan ibarətdir.

Azərbaycan, eyni zamanda, yüksək texnologiyalara böyük investisiyalar qoyur və bu il bu sahədə yaddaqalan il olmuşdur. Bu il Azərbaycan ikinci peykinə sahib oldu. Noyabr ayında bu peyk Azərbaycana təhvil verildi və beləliklə, bizim indi iki peykimiz var: «Azərspace» və «Azərsky». «Azərsky» peykinin xüsusiyyəti ondan ibarətdir ki, – dünyada cəmi 20 ölkə belə peyklərə malikdir, – bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir.

Korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır. «ASAN xidmət» bu sahədə xüsusi yerə malikdir. Artıq 7 mərkəz yaradılmışdır, 3 milyon 500 min müraciət edilmişdir. «ASAN xidmət» ictimai xidmətlər sahəsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə xüsusi rol oynayır. Bu xidmətin yaradılmasından cəmi iki il keçdiyini nəzərə alsaq, görürük ki, biz nə qədər böyük irəliləyişə nail ola bilmişik. Korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi mübarizə aparılacaq, həm cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli tədbirlər görüləcəkdir.

Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. Bu il mən Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar müvafiq sərəncam imzalamışam. Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür. Həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən Azərbaycan nadir bir ölkədir.

Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır.

Bu il sentyabrın 20-də biz «Əsrin müqaviləsi»nin 20-ci ildönümünü qeyd etmişik. Simvolik haldır ki, məhz 2014-cü il sentyabrın 20-də «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. «Cənub» qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir. Bu nəhəng transmilli layihənin icrasında Azərbaycan öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir.

Məhz Azərbaycanın uzun illər ərzində apardığı enerji siyasəti nəticəsində, qətiyyətli siyasət nəticəsində bu böyük layihə artıq reallaşır. «Şahdəniz-2», TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli maraqlarımızı, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihədə də liderliyi öz üzərinə götürüb və bu missiyanı şərəflə yerinə yetirəcəkdir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, bu gün qüdrətli, müstəqil Azərbaycan dövləti vardır. Müstəqillik bizim üçün ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz 23 ildir ki, müstəqilik və müstəqil siyasət aparırıq. Milli maraqlar, milli dəyərlər üzərində qurulmuş bu müstəqil siyasət bugünkü Azərbaycan reallıqlarını təmin edir. Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir.

Mən bütün azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər bir Azərbaycan ailəsinə səadət, xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 dekabr 2014-cü il.

## Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevi anma mərasimi keçirilmişdir




Dekabrın 11-də Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anma mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə edilməklə yüksək standartlar və tələblər səviyyəsində yenidən təşkil edilmiş muzeyində Heydər Əliyevin zəngin irsini özündə əks etdirən eksponatlar, bu barədə elektron vasitələrlə azərbaycan, ingilis və rus dillərində məlumatların verilməsi, onların elektron bazasının yaradılması, müasir elektron informasiya ekran və tablolarının yerləşdirilməsi tədbir iştirakçılarına təqdim edilmişdir.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, Azərbaycan Respublikasının 1969-cu ildən başlamaqla 30 ildən artıq bir dövrü əhatə edən ən yeni tarixi, bu dövr ərzində müstəqil dövlət kimi ölkəmizin və xalqımızın taleyi, ölkə həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. «Azərbaycan tarixinin Heydər Əliyev dövrü» kimi qiymətləndirilən bu zaman kəsiyi ərzində ulu öndər tərəfindən görülən böyük işlərin məntiqi nəticəsidir ki, bu gün xalqımız müstəqil, demokratik və hüquqi bir dövlətdə yaşamaq xoşbəxtliyini əldə etmiş, öz layiqli və hərtərəfli, təminatlı gələcəyinin bütün əsaslarını yaratmış, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyinə nail olmuşdur.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının tarixinə sabitlik və inkişaf dövrü kimi daxil olan 1993-2003-cü illər ərzində Heydər Əliyev tərəfindən müstəqil dövlətçiliyimizin ideoloji əsasları yaradılmış, o cümlədən Azərbaycançılıq məfkurəsi formalaşdırılmış, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni iqtisadi münasibətlər bərqərar olmuş, Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edilməklə hüquqi dövlət quruculuğu yolunda inamlı addımlar atılmış, demokratik və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük işlər görülmüşdür.



Ulu öndər Heydər Əliyevin Azərbaycanın təbii ehtiyatlarından ölkənin milli maraqları naminə səmərəli istifadə edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq, ölkə iqtisadiyyatı və bütövlükdə ölkənin gələcəyi üçün həlledici amil olan «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanın dünyada analoqu olmayan sürətli inkişafı üçün hərtərəfli zəmin





yaradılmışdır. Azərbaycanı bütün dünyaya tanıdan bu müqavilə irimiqyaslı xarici investisiyaların ölkəyə axını üçün böyük stimul oldu, ölkəmizin dünya iqtisadiyyatına hərtərəfli inteqrasiyasının əsasını qoydu.

Diqqətə çatdırılmışdır ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından olan prokurorluq orqanlarının yenidən formalaşması ilk növbədə, ulu öndər Heydər Əliyev şəxsiyyəti ilə bağlıdır. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının memarı olan Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur. 2003-cü ildən etibarən Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Milli Prokurorluğun inkişaf tarixində hərtərəfli müasirləşdirmə və təkmilləşdirmə dövrünün əsasını qoyan Dövlət başçısı tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı»na, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun olaraq həyata keçirilən tədbirlər insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi üçün böyük imkanlar yaratmışdır.

Xüsusi vurğulanmışdır ki, cənab İlham Əliyevin 2003-cü ildən etibarən Dövlət başçısı kimi fəaliyyəti Heydər Əliyev ideyalarının yaşaması və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdirilməsinin və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisinin bariz göstəricisidir. Bu gün bütövlükdə ölkəmizin, eyni zamanda hər bir bölgənin hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmuş, demokratik vətəndaş cəmiyyətinin daha da təkmilləşdirilməsi istiqamətində inamlı addımlar

atılmış, dünya dövlətləri birliyinə inteqrasiya proseslərini sürətləndirən ölkəmiz regionun aparıcı dövləti statusunu özündə saxlamış, enerji layihələrinin reallaşdırılması istiqamətində böyük işlər görülmüşdür. Nazirlər Kabinetinin cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Dövlət başçısı cənab İlham Əliyevin nitqində göstərildiyi kimi, ölkə iqtisadiyyatı uğurla inkişaf etmiş, bütün makroiqtisadi göstəricilər yüksək səviyyəyə çatmış, iqtisadi sahədə aparılan düşünülmüş siyasət qlobal iqtisadi maliyyə böhranı şəraitində Azərbaycan uğurlu iqtisadi inkişafını, ümumi daxili məhsulun əhəmiyyətli artımını təmin etmiş, nəzərdə tutulmuş bütün proqramlar uğurla icra edilmişdir. Həyata keçirilmiş böyük quruculuq işləri və mütərəqqi islahatların nəticəsidir ki, əldə edilmiş uğurlar beynəlxalq maliyyə qurumları tərəfindən yüksək dəyərləndirilmiş, dünyanın nüfuzlu iqtisadi institutu olan Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 38-ci yerdə qərarlaşmışdır.

Heydər Əliyev ideyalarının ardıcıl surətdə reallaşdırılmasının və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq, paytaxtımızın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, o cümlədən Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının ilk Avropa Olimpiya oyunlarının 2015-ci ildə Azərbaycanda keçirilməsi haqqında qərar qəbul etməsi ölkəmizin böyük uğuru kimi dəyərləndirilmişdir.

Anma mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun formalaşdırdığı siyasi kursa sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış «Vətənə, xalqa həsr edilən ömür» adlı film nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilmişdir

Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 11-ci ildönümü ilə bağlı anma mərasimi keçirilmişdir. Tədbirin əvvəlində ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat vermişdir. Səbuhi Şahverdiyev xüsusi olaraq vurğulamışdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı xalqımızın XX əsr tarixinə qızıl hərflərlə yazılmışdır. Bu gün biz bu Böyük İnsanın əbədiyyətə qovuşmasının on birinci ilini dərin kədər hissi ilə yad edirik. Ulu öndərin ömür yolu hər bir şəxs üçün xalqa xidmət nümunəsidir. Həyatının son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünən ulu öndər müstəqil, dünyada öz sözü və yeri olan qüdrətli Azərbaycan dövlətini yaratmışdır. Ümummilli lider Heydər Əliyev özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xal-

qımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur.

Qeyd olunmuşdur ki, sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasına «Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir» müddəasının daxil edilməsi xalqımızın böyük oğlu Heydər Əliyevin misilsiz tarixi xidmətləri, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış uzaqgörən tədbirlər idi. Ötən əsrin 70-80-ci illərində ümummilli liderin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqəti çəkən dövlət başçısı cənab İlham Əliyev demişdir: «SSRİ dönəmində Azərbaycan iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı».

Vurğulanmışdır ki, Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır dövründə-1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıdan, lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilməyən ümummilli lider iki gün sonra, iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir. 1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ulu öndərin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilir, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülürdü. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından «Sovet Sosialist» sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Muxtar Respublikada başlanılması müstəqil dövlətçilik yolunda atılan addımlar idi. Azərbaycanın ağır dövründə, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan dahi şəxsiyyət ölkəmizi məhv olmaqdan, müstəqilliyi itirilmək təhlükəsindən qurtarmışdır. Lakin ümummilli lider Heydər Əliyev ölkə həyatının bütün sahələrindəki böhranı aradan qaldırdı, möhkəm ictimai-siyasi sabitlik yaratdı, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qaytararaq hərtərəfli inkişaf yoluna çıxardı. Dahi rəhbərin çox qısa müddətdə uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi, siyasi inkişafına, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac vermişdir.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizi uğurdan-uğura aparmışdır. Bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin hər biri dövlətçiliyin fundamental əsaslarını müəyyənləşdirən tarixi hadisələrdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi və dünyəvilik kimi dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu öndərin apardığı siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Ümummilli lider bütün həyatını mənsub olduğu xalqa təmənnasız xidmətdə keçmişdir. O, nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qadir olan böyük bir idarəçilik məktəbi formalaşdır-

mışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır.

İllər ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı möcüzələr daha aydın görünəcəkdir. Zaman keçdikcə ulu öndərimizin böyüklüyünü daha çox hiss edəcəyik. O, Azərbaycanın yalnız bu gününü düşünmürdü, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünürdü. Mənalı ömrünü öz xalqına həsr etmiş ulu öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ümummilli liderin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bundan sonra da faydalanacaqdır. Biz bu gün fəxrlə deyə bilərik ki, uzun illər həsrətində olduğumuz azadlığa, suverenliyə qovuşmuşuq. Ölkəmiz demokratik bir inkişaf yolu tutub, onun dünyanın nəhəng dövlətləri sırasında öz yeri, öz seçimi var. Heç şübhəsiz ki, bütün bunlar ümummilli lider Heydər Əliyevin gərgin əməyi və gələcəyə hesablanmış uzaqgörən milli strategiyası hesabına olmuşdur. Heydər Əliyev həyatının mənasını canından artıq sevdiyi xalqına xidmətində görürdü. Hara baxırıqsa, ümummilli liderimizin yeri, izi görünməkdədir. Ölkəmizdə aparılan bütün tikinti-quruculuq işləri, iqtisadiyyatımızın inkişafı, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaranışı, mədəniyyətimizin, incəsənətimizin yüksəlişi, məhkəmə-hüquq islahatları məhz onun adı ilə bağlıdır.

Vurğulanmışdır ki, 1995-ci il noyabrın 12-də Əsas Qanunumuz olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Milli dövlətin formalaşmasında, hüquq sisteminin və milli qanunvericiliyin inkişafında Konstitusiyanın əhəmiyyəti əvəzsizdir. Müstəqil Azərbaycan Respublikasının milli prokurorluğunu dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız və yalnız Heydər Əliyevin dövlətçilik siyasəti, qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

12 dekabr 2003-cü ildə Azərbaycan dövlətinin memarı, ümummilli lider, böyük insan Heydər Əliyev əbədiyyətə qovuşdu. Ümummilli lider Heydər Əiyevi cismən bizdən ayıran ötən on bir ildə Azərbaycan cəmiyyəti və ümumilikdə bütün dünya onun şəxsiyyətinin əzəmətini bir daha aydın şəkildə dərk etmiş oldu. Ümummilli lider Heydər Əliyevin böyüklüyü zamanın özü qədər hüdudsuz olduğundan bu adın əhatəsini tam təsəvvürə gətirmək insan təfəkkürünün imkanları xaricindədir. Vaxt bizi onun Tanrı dərgahına qovuşması tarixindən uzaqlaşdırdıqca bu əhatə zaman-zaman daha da genişlənəcək və bizlər nə vaxtsa milli lider Heydər Əliyevlə eyni dövrdə yaşadığımıza görə yalnız qürur duyacağıq.

Sonda Muxtar Respublika prokuroru əminliklə ifadə etmişdir ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Mərasimdəki çıxışlarda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğma Azərbaycanın tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycan Respublikası Prokurorluğunun kollektivi milli prokurorluq orqanlarının yaradılmasının 96-cı ildönümünü – növbəti peşə bayramını təntənəli şəkildə qeyd etmişdir



Azərbaycan Respublikası Prokurorluğunun kollektivi oktyabrın 1-də milli prokurorluq orqanlarının yaradılmasının 96-cı ildönümü - növbəti peşə bayramını təntənəli şəkildə qeyd etmişdir.

Bu münasibətlə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluğu orqanlarının kollektivləri həmin gün Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər düzülmüşdür.

Prokurorluq işçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, məzarları üzərinə gül, «Əbədi məşəl» abidəsinin önünə əklil qoymuşlar.

Sonra prokurorluq işçilərinin peşə bayramı günü ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qarşıya çıxan aktual problemlərlə bağlı elmi-praktiki konfrans keçirilmişdir.

Konfransda ölkəmizdə səfərdə olan Türkiyə Ali Hərbi Məhkəməsinin sədri Əhməd Zəki Limanın başçılıq etdiyi nümayəndə heyəti də iştirak etmişdir.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra konfransı açan Baş prokuror Zakir Qaralov prokurorluq işçilərinin peşə bayramı gününü və milli prokurorluğun yaradılmasının 96-cı ildönümünü böyük ruh yüksəkliyi ilə qeyd etdiklərini vurğulayaraq, əvvəllər adi bir iş günü kimi yaşadığımız 1 oktyabr tarixi ulu öndər Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamından sonra bizlər üçün gözəl bir bayram gününə çevrildiyini bildirmişdir.

Baş prokuror ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır məqamda xalqının təkidi ilə yenidən hakimiyyətə gəlişindən sonra həyata keçirdiyi yenidənqurma siyasətinin nəticəsi olaraq, digər dövlət təsisatları ilə yanaşı, Azərbaycan Proku-



rorluğunun da müasir, demokratik məzmunlu qurum kimi tamamilə yenidən formalaşdırılmaqla dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildiyini, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində cəmiyyətdə statusuna uyğun yerini tutduğunu vurğulamışdır.

Diqqətə çatdırılmışdır ki, ulu öndərin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaradılmasına yönələn siyasəti artıq öz bəhrəsini verib. Azərbaycan Respublikası digər sahələrlə yanaşı cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində öz təcrübəsini bölüşən bir ölkəyə çevrilmişdir.






Baş prokuror bildirmişdir ki, ölkə həyatının bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində həyata keçirilən mütərəqqi islahatlar, əldə edilmiş möhtəşəm uğurlar və mövcud sürətli inkişaf prokurorluq orqanlarının qarşısında bir dövlət qurumu kimi mühüm vəzifələr qoymuşdur. Prezident cənab İlham Əliyevin siyasi iradəsinə və onun rəhbərliyi ilə reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər intensivliklə davam etdirilir. 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbulun yeni əsaslarla təşkili nəticəsində işə götürülən 624 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 58 faizini təşkil etməsi, sentyabrın 30-da növbəti müsabiqədən müvəffəqiyyətlə keçmiş 71 gənc mütəxəssisin andiçmə mərasiminin keçirilməsi və onların prokurorluq orqanlarına işə qəbul olunması ölkə həyatının bütün sahələrində gənclərin əməyindən geniş istifadə olunması barədə dövlətimizin başçısının göstərişlərinin icrasının nəticəsidir. Alternativi olmayan bu kadr seçimi vasitəsinin tətbiqi bundan sonra da davam etdiriləcək.

Qeyd edilmişdir ki, Prezident cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi onun prokurorluğun fəaliyyəti ilə bağlı müəyyən etdiyi standartları həyata keçirmək üçün bizə yeni imkanlar yaratmışdır; dövlətimizin başçısı tərəfindən göstərilən böyük etimadın təzahürü olan bu mühüm sənəd prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi yollarını müəyyənləşdirən proqram kimi hazırda da əhəmiyyətli rol oynayır, planlaşdırılan bütün islahat tədbirlərimizin fundamental əsasını təşkil edir.

Diqqətə çatdırılmışdır ki, ötən müddətdə prokurorluq digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə birlikdə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahələrində zəruri tədbirlərin görülməsini təmin etmişdir. Prokurorluğun hüquq mühafizə orqanları ilə düzgün qurduğu qarşılıqlı əlaqə kriminogen duruma səmərəli nəzarəti təmin etməyə, onun səviyyəsini təhlükəsiz hədlərdə saxlamağa imkan vermişdir. Birgə həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası MDB və Şərqi Avropa




məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri olaraq qalır.

Baş prokuror demişdir ki, bölgələr üzrə müşavirələr keçirilməklə, kriminogen durumun sabitləşdirilməsinə yönəldilmiş qabaqlayıcı tədbirlərin görülməsi, mütəmadi olaraq yerlərdə vəziyyət öyrənilməklə aşkar edilmiş problemlərin, o cümlədən dini ekstremizm, separatçılıq və destruktiv qüvvələrin baş verə biləcək pozucu hərəkətlərinin, mütəşəkkil cinayətkarlıq, habelə digər təhlükəli təzahürlərin qarşısının alınması və aradan qaldırılması üçün prokurorluq orqanlarının səlahiyyət hədləri daxilində zəruri tədbirlər həyata keçirilməlidir.

Bildirilmişdir ki, dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ölkədə korrupsiya cinayətlərinə qarşı sistemli mübarizə gücləndirilib. İxtisaslaşdırılmış prokurorluq orqanı kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin normal fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması, əməkdaşların sayının əhəmiyyətli dərəcədə artırılmaqla çevik fəaliyyəti təmin etməyə qadir yeni strukturun formalaşdırılması, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və digər islahat tədbirləri bu qurumun işinin daha da təkmilləşdirilməsinə gətirib çıxarmışdır. İşini ictimai nəzarət altında və aşkarlıq şəraitində quran Baş İdarə Azərbaycan Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, korrupsiya hallarına qarşı bundan sonra da kəsərli mübarizə aparacaq.

Qeyd edilmişdir ki, bu sahədə işin səmərəliliyinin daha da artırılması məqsədilə korrupsiya və rüşvətxorluğa qarşı daha geniş miqyasda qətiyyətli və sistemli mübarizə aparılması, mütəşəkkil cinayətkarlığın bu təhlükəli təzahürünün qarşısının alınması və onu doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, cinayət işlərinin istintaqının keyfiyyətinin artırılması, əməliyyat-axtarış fəaliyyətinin daha səmərəli həyata keçirilməsi, antikorrupsiya mühitinin yaxşılaşdırılması və görülmüş işlər barədə geniş ictimaiyyətin mütəmadi məlumatlandırılması təmin olunmalıdır.

Müasir dövrün ən aktual məsələlərindən birinin informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi olduğunu vurğulayan Baş prokuror ötən müddətdə prokurorluq orqanlarında İKT-nin tətbiqi səviyyəsinin yüksəldilməsini, bu sahədə həyata keçirilən işin səmərəliliyinin xeyli dərəcədə artırıldığını bildirmişdir.

Diqqətə çatdırılmışdır ki, dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılır, müraciətlərə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlər görülür.

Baş prokuror Zakir Qaralov prokurorluq orqanlarının fəaliyyətində yol verilən nöqsanlardan da danışaraq bu çatışmazlıqların tezliklə aradan qaldırılması ilə bağlı qəti tapşırıqlarını vermişdir.

Sonra Baş prokurorun birinci müavini Rüstəm Usubov «Cinayətkarlığa qarşı mübarizə və ibtidai istintaqın aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi çərçivəsində prioritetlərə nail olunmasının əsas istiqamətləri» mövzusunda çıxış etmiş, bu sahədə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinin cinayət işlərinin, xüsusilə ağır cinayətlərlə bağlı işlərin aparılmasında müsbət dəyişikliklərin əldə olunması ilə nəticələndiyini diqqətə çatdırmışdır.

Baş prokurorun müavini – respublika hərbi prokuroru Xanlar Vəliyev «Hərbi prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması və Silahlı Qüvvələrdə qanunçuluğun möhkəmləndirilməsinin təmin edilməsi sahəsində qarşıya qoyulmuş məqsədlər» mövzusunda çıxışında görülmüş tədbirlər sayəsində əvvəlki dövrdə qeydə alınan cinayətlərin sayında azalmanın müşahidə edildiyini diqqətə çatdırmış, istintaqın keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə kriminalistika şöbəsinin fəaliyyətinin genişləndirildiyini vurğulamışdır.

«Yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların qiymətləndirmə meyarlarının müəyyən edilməsi, kadrların rotasiya siyasəti və informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələr» mövzusunda çıxış edən Baş prokurorun müavini Namiq Əsgərov demişdir ki, 2002-ci ildən başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə əməkdaşlıq şəraitində keçirilmiş 13 müsabiqə nəticəsində prokurorluq orqanlarına 627 gənc hüquqşünas işə qəbul edilib ki, bu da ümumi əməkdaşların 58 faizini təşkil edir. Diqqətə çatdırılmışdır ki, İKT-nin tətbiqi istiqamətində Baş Prokurorluqda geniş tədbirlər planı hazırlanaraq həyata keçirilmişdir.

Baş prokurorun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev «Korrupsiyaya qarşı mübarizə üzrə beynəlxalq təşəbbüslər» mövzusunda çıxış edərək bildirmişdir ki, 2003-cü ildən ötən dövrdə Azərbaycan nəinki korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq konvensiyalara qoşulmuş, həmin konvensiyaların müddəalarını öz qanunvericiliyinə implementasiya etmişdir. Azərbaycanda korrupsiyaya qarşı mübarizədə müasir qanunvericilik bazasının yaradıldığını vurğulayan Kamran Əliyev bu sahədə yaradılan mükəmməl ixtisaslaşmış qurumların, xüsusən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin digər ölkələrə nümunə kimi qiymətləndirildiyini vurğulamışdır.

Sonra Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov, Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov, Müraciətlərə baxılması idarəsinin rəisi Anar Məmmədov çıxış edərək prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən, əldə edilən uğurlardan danışmışlar.

Konfransa yekun vuran Zakir Qaralov həmişə dövlətçilik ideyalarına sədaqəti ilə seçilən və fəal vətəndaşlıq mövqeyi nümayiş etdirən prokurorluğun kollektivinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarının icrası və mütərəqqi islahatların reallaşdırılması istiqamətində səylərini artıracağına, ölkədə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitinin, milli maraqların hər cür qəsdlərdən qorunması, cinayətkarlığa qarşı barışmaz mübarizə və insan hüquq və azadlıqlarının qorunması istiqamətində bütün mümkün tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini bildirmişdir.

Konfransın yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

Sonda Türkiyə Ali Hərbi Məhkəməsinin nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin binasında yaradılan şəraitlə tanış olmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Azərbaycan Prokurorluğunun müasir inkişaf dövrü

*«Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır.»*

**İlham ƏLİYEV**

Müasir qloballaşma dövründə hər bir ölkənin inkişafına ciddi təsir göstərən mühüm səbəb və şərtlər içərisində regional və planetar xarakterli amillər həyatın bütün sahələrinə nüfuz etməklə daha əhəmiyyətli rol oynayır. Əksər dünya ölkələrini əhatə edərək zaman ötdükcə daha da sürətlənməkdə olan qloballaşma prosesi özünün doğurduğu müsbət nəticələrlə yanaşı, müəyyən neqativ cəhətlərlə də xarakterizə olunur. Beynəlxalq səviyyədə baş verən hadisələr, bir çox ölkələri bürüyən maliyyə-iqtisadi böhranlar ictimai-siyasi və sosial-iqtisadi sahələrdə idarəetməni çətinləşdirir. Lakin, son illərin təcrübəsi bir daha təsdiq etdiyi kimi, müdrik və səmərəli dövlət idarəçiliyi, konseptual əsaslara malik uzaqgörən və sosialyönümlü dövlət siyasəti həyata keçirən ölkələr beynəlxalq aləmdə meydana gələn hər hansı mənfi təsirə baxmayaraq, ardıcıl surətdə inkişaf etməkdə davam edir.

Belə ölkələr sırasında tarixi nöqteyi-nəzərdən qısa dövr ərzində misli görünməmiş tərəqqi yolu keçərək hüquqi dövlət quruculuğu prosesində, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə böyük uğurlar əldə etmiş müstəqil Azərbaycan Respublikasında formalaşmış milli dövlət quruculuğu modeli və inkişaf təcrübəsi dünya üzrə təqdirəlayiq və digər ölkələr üçün örnək ola bilən yeni bir nümunə kimi qəbul edilməklə, dövlət idarəçiliyində istifadə olunan daha səmərəli və müasir vasitə və metodların tətbiqi nəticəsində əldə edilən yüksək göstəricilər baxımından önəmli yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli düşünülmüş və əsaslandırılmış strateji inkişaf konsepsiyasına uyğun olaraq onun layiqli davamçısı, müdrik dövlət başçısı İlham Əliyev tərəfindən beynəlxalq hüququn prinsip və normaları, müasir dünyada mövcud olan siyasi-iqtisadi vəziyyət, qlobal maraqlar sistemi nəzərə alınmaqla uğurla həyata keçirilən hüquqi dövlət quruculuğu prosesi və sosialyönümlü dövlət siyasəti nəticəsində ictimai həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə edilməklə davamlı iqtisadi tərəqqiyə nail olunaraq xalqın rifahının daim yüksəldilməsi təmin edilmişdir.

Müstəqil Azərbaycan Respublikası bir çox dünya ölkələrinə sirayət edən maliyyə-iqtisadi böhrana, beynəlxalq aləmdə yaranan, ölkələrarası münasibətlərə xələl gətirməklə siyasi və iqtisadi sahələrdə problemlərə səbəb olan digər amillərə, Azərbaycan xalqına qarşı düşmənçilik mövqeyində olan və onun tərəqqisini istəməyən qüvvələrin hər hansı təsir cəhdlərinə, ölkə ərazisinin bir hissəsinin işğal altında olmasından irəli gələn çətinliklərə baxmayaraq, möhtərəm Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində ciddi uğurlar əldə edilərək sürətlə inkişaf etməkdə, irimiqyaslı uğurlara və əhəmiyyətli qələbələrə imza atmaqda, ölkənin beynəlxalq nüfuzu yüksəlməkdə davam etməkdədir.

Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında son dövrlər ərzində baş verən yeniliklərə nəzər salınması ardıcıl və davamlı, dinamik və hərtərəfli inkişafın təmin olunduğunu şəksiz təsdiq edir. Belə ki, əvvəlki illərdə olduğu kimi, 2014-cü ilin ötən ayları da müstəqil Azərbaycan Respublikasının müasir tarixinin daha yüksək inkişaf mərhələsinin bir hissəsi olmaqla ölkə həyatının bütün sahələrində əldə edilmiş möh-

təşəm uğurlarla əlamətdar olmuşdur. Sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların daha yüksək keyfiyyət müstəvisində reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin edilməsi nəticəsində ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin olunmaqla ümumi daxili məhsulun çox hissəsinin qeyri-neft sektoru hesabına formalaşmasına nail olunmuşdur.

Cari ilin ilk altı ayının göstəricilərinin təhlili deməyə əsas verir ki, bu müddət ərzində ümumi daxili məhsulun artımı 2,1 faiz, qeyri-neft sektorunun real artım tempi 7 faiz olmaqla qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 56,3 faizə çatmış, 52 mini daimi olmaqla 65 min yeni iş yeri açılmış, ölkə üzrə orta aylıq əməkhaqqı artmaqda davam edərək 440 manat, yaxud 560 dollar təşkil etmiş, inflyasiyanın səviyyəsi dünya miqyasında istənilən ölkə üçün arzuolunan həddə – cəmi 1,6 faiz olmaqla əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfə üstələyərək 4,7 faiz artmışdır. Əhalinin pul gəlirlərinin artmasının nəticəsidir ki, cari il iyunun 1-nə əhalinin banklardakı əmanətləri ötən ilin eyni dövrünə nisbətən 12,8 faiz artaraq 6,6 milyard manata çatmışdır. Valyuta ehtiyatlarının artımı nəticəsində Azərbaycan Respublikası adambaşına düşən valyuta ehtiyatlarına görə dünya miqyasında ən qabaqcıl yerlərdən birini tutmuşdur.

Ölkənin sosial-iqtisadi inkişafında müşahidə olunan müsbət amillər mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən qeyd edilməklə, respublikamızda baş verən proseslər müsbət dəyərləndirilərək Azərbaycan Respublikasının bundan sonra çox illər ərzində uğurla inkişaf edəcəyinə dair proqnozlar verilmişdir. Təsadüfi deyil ki, dünyanın ən nüfuzlu iqtisadi əlaqələr mərkəzi olan Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksək qiymətləndirməklə Azərbaycan Respublikasını dünya ölkələri sırasında 39-cu yerdə müəyyən etmişdir. Dünyanın «Fitch», «Standart and Poors» və «Moodys» kimi nüfuzlu beynəlxalq reytinq agentlikləri bir çox inkişaf etmiş ölkələrin reytinqlərini azaltdıqları halda ölkə iqtisadiyyatına investisiya səviyyəli kredit reytinqi verməklə Azərbaycanın kredit reytinqini yüksəltmişlər. Görülən işlərin, həyata keçirilən islahatların və qazanılan uğurların nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş, cari ilin iyul ayının 10-da keçirilən iclasında dediyi kimi: «Bu gün bizim dünyada oynadığımız rol çox önəmlidir. Azərbaycanın nüfuzu, önəmi, təsir imkanları gündən-günə artır».

Qazanılmış möhtəşəm uğurlarla kifayətlənməyərək qarşıdan gələn illər ərzində daha ciddi irəliləyiş yolu keçməklə ardıcıl inkişaf dinamikasını təmin edərək daha əhəmiyyətli nailiyyətlər əldə etmək, ölkəmizin gələcək inkişafının strateji istiqamətlərini müəyyənləşdirmək, irimiqyaslı sosial proqramların həyata keçirilməsinə nail olmaqla ölkənin yüksəkgəlirli ölkələr sırasına daxil olması və vətəndaşlara ən yüksək beynəlxalq standartlara uyğun layiqli həyat səviyyəsini təmin etmək üçün dövlət tərəfindən mühüm konseptual əhəmiyyətə malik proqram xarakterli layihələr həyata keçirilir. Bu qəbildən olan dövlət sənədləri içərisində Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli fərmanı ilə təsdiq edilmiş, başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olunması olan «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası digər dövlət təsisatları kimi prokurorluq orqanlarında da inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva etməklə prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

Qeyd etməliyik ki, hərtərəfli və dinamik yüksəliş dövrünü yaşayan respublikamızda inkişaf etmiş ölkələrə uyğun keyfiyyətləri və milli

xüsusiyyətləri özündə birləşdirən hüquq sistemi yaradılmaqla dövlət orqanlarının fəaliyyəti yüksək standartlar səviyyəsində qurulmuş, o cümlədən prokurorluq tam yenidən təşkil olunmaqla müasir dövrün tələblərinə cavab verən yüksək peşəkar bir orqan kimi formalaşdırılmışdır. Hazırda Azərbaycan Prokurorluğu inkişaf etmiş dünya dövlətlərinin bu qəbildən olan qurumlarına məxsus müsbət keyfiyyətləri özündə birləşdirən, prokurorluğun müasir dövrdə fəaliyyət istiqamətlərinə və roluna dair Avropa Şurasının, Beynəlxalq Prokurorlar Assosiasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara cavab verən, dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanan kadr korpusundan ibarət mühüm dövlət orqanıdır.

Ölkənin sürətli sosial-iqtisadi inkişafı ictimai münasibətlərin müvafiq dəyişikliyini şərtləndirməklə yanaşı, prokurorluq orqanlarının fəaliyyətində lazımi təkmilləşdirmə prosesinin müntəzəm olaraq aparılmasını zəruri edir ki, nəticədə bu mühüm dövlət təsisatının qarşısında dayanan vəzifələrin həcmi və məzmununa dair tələblər də adekvat dəyişikliyə məruz qalır. Təsadüfi deyil ki, prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi prosesi mütəmadi olaraq həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da təkmilləşərək müasirləşdirilməsi dövrünün əsasını qoymuş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı»nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, insan hüquq və azadlıqlarının qorunması, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, prokurorluğun fəaliyyətinin bütün istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi uğurlar əldə edilmişdir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi prosesində prokurorluq orqanları yaxından iştirak etməklə, fəaliyyətimizdə konsepsiya çərçivəsində müəyyən edilmiş hədəflərə çatmaq baxımından institusional potensialın gücləndirilməsini özündə ehtiva etdiyi üç əsas istiqamət olan: dövlət sektorunda insan resurslarının inkişafı, «elektron hökumət» fəaliyyətinin genişləndirilməsi və institusional islahatların davam etdirilməsi üzrə məsələlərə xüsusi diqqət yetirilmişdir. Konsepsiyanın müəyyən etdiyi inkişaf siyasətinin əsas strateji hədəflərinə müvafiq olaraq prokurorluq orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, prokurorluğun fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, müvafiq dövlət orqanları ilə vahid infrastruktur əsasında təhlükəsiz informasiya mübadiləsinin aparılması, informasiya təhlükəsizliyinin yüksəldilməsi, əhalinin elektron vasitələrdən istifadə etməklə prokurorluğa müraciət etmək imkanlarının genişləndirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi təmin edilmişdir.

Artıq 16-cı ildir ki, prokurorluq işçiləri və geniş hüquq ictimaiyyəti oktyabr ayının 1-ni səbirsizliklə gözləyirlər. Hər il olduğu kimi, bu il də həmin tarixdə prokurorluq orqanlarının təsis edilməsi günü təntənəli şəkildə qeyd olunur. Məlum olduğu kimi, əsrə yaxın müddət ərzində mövcud olmasına və fəaliyyət göstərməsinə baxmayaraq prokurorluq orqanlarının təsis edil-

məsi günü uzun müddət yada düşməmiş və prokurorluq işçilərinin peşə bayramı təsis edilməyərək qeyd olunmamışdır. Prokurorluq işçilərinin peşə bayramının təsis edilərək qeyd olunması yalnız ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyev prokurorluğun Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarına əsasən Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başladığını nəzərə alaraq hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır. Peşə bayramı gününün təsis edilməsi dövlət orqanları sırasında xüsusi yeri olan prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürü olmuşdur.

Prokurorluq işçilərinin peşə bayramının qeyd olunmasına xüsusi hazırlıq işləri görülməklə, hər bir prokurorluq orqanı və prokurorluq işçisi bu tarixin, eyni zamanda, ənənəvi olaraq ötən bayramdan sonrakı bir il ərzində özünəməxsus hesabat dövrü olduğunu nəzərə alaraq dövlətin müəyyən etdiyi inkişaf perspektivlərinə əsasən prokurorluq orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması istiqamətində lazımi işlər görməklə müvafiq tədbirlər həyata keçirirlər. Bu «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərlə yanaşı, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nda müəyyən edilmiş, dövlət orqanlarının fəaliyyətində «şəffaflığın artırılması» və «hesabatlılığın təmin edilməsi» kimi əsas prinsiplərdən irəli gəlir.

Şəffaflıq və açıqlıq prinsiplərinin təmin edilməsi prokurorluq orqanlarında fəaliyyət sahələrindən asılı olaraq müvafiq üsul, vasitə və metodlardan istifadə edilməklə qanuna əsasən həyata keçirilir. Prokurorluq orqanlarının kadr təminatında bu prinsiplərin ardıcıl olaraq həyata keçirilməsinin əhəmiyyəti xüsusilə önəmlidir. 2002-ci ildən başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, çoxsaylı hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatların, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə indiyədək keçirilmiş 13 müsabiqə nəticəsində 627 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir ki, bu da prokurorluq işçilərinin 58 faizini təşkil etmişdir. O cümlədən Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 509 nömrəli fərmanı ilə təsdiq edilmiş «Prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə müvafiq olaraq 16 avqust 2013-cü il tarixdə 100 vakant ştat vahidi üzrə elan edilmiş müsabiqənin ixtisas imtahanları (test imtahanı və yazılı imtahan) və müsahibə mərhələlərinin keçirilməsi nəticəsində 71 gənc hüquqşünas müvafiq keçid ballarını toplayaraq Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilmişlər. İcbari təlimi müvəffəqiyyətlə başa vurduqdan sonra peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə almış həmin gənc hüquqşünaslar prokurorluq orqanlarında müvafiq vakant vəzifələrə stajor qismində təyin edilmişlər.

Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və göstərişlərinə müvafiq olaraq prokurorluq orqanlarında yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik gənc hüquqşünaslar hesabına, obyektivlik və ədalətlilik meyarlarına əsaslanaraq həyata keçirilmişdir. Bu amillər həm prokurorluq orqanlarına qulluğa yeni qəbul edilən şəxslərin seçimi zamanı, həm də kadrların yerdəyişməsi (rotasiyası), xidməti vəzifələrinin icrasına vicdanla yanaşaraq fəaliyyətində nailiyyətlər qazanmış və peşəkarlıq səviyyəsi ilə fərqlənən şəxslərin

vəzifədə irəli çəkilməsi, müvafiq iş təcrübəsi, analitik düşünmə və təşkilatçılıq qabiliyyəti olan prokurorluq işçilərinin müstəqil işə təyin edilməsi zamanı da əhəmiyyətli olmuşdur.

Ötən bir il ərzində prokurorluq orqanları üzrə 168 prokurorluq işçisinin iş yeri və ya vəzifəsi dəyişdirilmiş, onlardan 75 işçi yuxarı, 73 işçi isə eyni təsnifat vəzifələrə təyin olunmuşlar. Prokurorluq işçilərinin xidməti fəallığının və məsuliyyət hissinin artırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilmiş, kadrlarla iş sahəsində görülmüş tədbirlər nəticəsində tələbkarlıq daha da artmış, əmək və icra intizamına nəzarət gücləndirilmiş, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə və fəaliyyətlərində qanunsuzluq hallarına yol vermiş prokurorluq işçilərinə münasibətdə prinsipiallıq mövqeyindən yanaşılmışdır. Bu müddətdə 118 prokurorluq işçisi barəsində həvəsləndirmə tədbiri tətbiq olunmuşdur. Prokurorluq orqanları üzrə 3 prokurorluq işçisinə ali xüsusi, 170 prokurorluq işçisinə isə xüsusi və hərbi rütbələr verilmişdir. Xidməti və ya əmək intizamının tələblərini pozduğuna, yaxud digər qanunsuz hallara yol verdiklərinə görə 48 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən 30 nəfərə şiddətli töhmət və töhmət verilmiş, 5 nəfər vəzifədən azad edilmiş, 4 nəfər isə prokurorluqda xidmətlə bir araya sığmayan hərəkətlərə yol verdiklərinə görə prokurorluq orqanlarından xaric edilmişlər.

Prokurorluq orqanlarında rütbə nəzərdə tutulmayan vəzifələrin dövlət qulluğunun inzibati və yardımçı vəzifələrinə uyğunlaşdırılması prosesi yekunlaşdırılaraq bu vəzifələrə təyinatların aparılması nəticəsində həmin işçilərin sosial müdafiəsi xeyli gücləndirilmişdir. Belə ki, «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 1 oktyabr 2012-ci il tarixli Qanununa və «Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2934 nömrəli sərəncamında dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2 dekabr 2013-cü il tarixli 135 nömrəli sərəncamına müvafiq olaraq prokurorluq orqanlarında çalışan dövlət qulluqçusu statusu verilmiş işçilərin vəzifələrinin dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması və digər zəruri məsələlərin həlli ilə əlaqədar müvafiq işlərin görülməsi təmin edilmiş, prokurorluq orqanlarında dövlət qulluğuna aid edilən vəzifələr üzrə struktur hazırlanaraq həmin vəzifələr üzrə işçilərin təyinatı aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsinə, onun tərəfindən ardıcıl olaraq və məqsədyönlü şəkildə həyata keçirilən hərtərəfli düşünülmüş dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı sistemli və israrlı mübarizənin aparılması daha aktiv şəkildə davam etdirilməklə bu istiqamətdə həyata keçirilən islahatların, təşkilati və institusional tədbirlərin səmərəliliyi yüksəlmiş, görülən işlərin təsirliliyi artmışdır. Bu prosesin həyata keçirilməsində, korrupsiyaya qarşı daha kəsərli mübarizənin aparılmasında prokurorluq orqanlarının üzərinə düşən vəzifə və funksiyaların tam və dəqiq həyata keçirilməsinin əhəmiyyəti yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqində bununla bağlı demişdir: «Xoşagəlməz hallara qarşı mübarizə davam edir. Bu, daim diqqət mərkəzində olan məsələdir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gözəl nəticələr verir. Bunu əhali də görür, təqdirlə qarşılayır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Hesab edirəm ki, biz bu sahədə köklü dəyişiklərə nail ola bilmişik. Burada əvvəlki dəfələrdə qeyd etdiyim kimi, müxtəlif amillərin rolu xüsusi məna daşıyır – inzibati tədbirlər, cəza tədbirləri, institusional tədbirlər, şəffaflıq, yeni metodların tətbiqi.»

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə mütəmadi və ardıcıl aparılan ins-

titusional islahatlar, həyata keçirilən xüsusi əhəmiyyətə malik təşkilati-hüquqi tədbirlər, qəbul olunan qanun, fərman və qərarlar dövlət başçısının korrupsiyaya son qoyulmasına, bu bəlanın tam aradan qaldırılmasına yönəlmiş siyasi iradəsinin qətiyyətlə reallaşdığını göstərir. Cənab Prezident tərəfindən son dövrlərdə korrupsiyanın tam aradan qaldırılması istiqamətində həyata keçirilmiş mühüm tədbirlər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təsis olunması, onun tabeliyində əsas məqsədlərindən biri şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi olan «ASAN xidmət» mərkəzlərinin yaradılması, onların fəaliyyətinə yeni xidmətlərin göstərilməsi həvalə edilməklə, bölgələr üzrə yeni mərkəzlərin fəaliyyətə başlaması və səyyar qaydada xidmət göstərən avtobusların sayı artırılmaqla əhatə dairəsinin genişləndirilməsi, açıq hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair Milli fəaliyyət planlarının təsdiq edilməsi korrupsiyaya qarşı fundamental mübarizənin bariz göstəricisidir.

Korrupsiya ilə səmərəli mübarizənin aparılması üçün ölkədə onun mövcudluğunu şərtləndirən amillərin aradan qaldırılması istiqamətində kompleks, o cümlədən institusional və təşkilati tədbirlərin görülməsi, ardıcıl islahatların həyata keçirilməsi, dövlət idarə və müəssisələrinin fəaliyyətində aşkarlığın və şəffaflığın artırılması, görülən işlər və əldə edilən nəticələr barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması, əhaliyə göstərilən xidmətlərin elektron vasitələrlə həyata keçirilməsinin genişləndirilməsi, məmur-vətəndaş əlaqəsini minimuma endirən elektron texnologiyanın tətbiqi, xidmətlərin göstərilməsi prosedurunun sadələşdirilməsi, sui-istifadə hallarına yol verməyən idarəetmənin həyata keçirilməsi, neqativ hallarla mübarizədə ictimaiyyətin köməyindən daha geniş istifadə edilməsi ilə yanaşı, bu sosial bəla ilə bağlı olan cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin, onlar barəsində məsuliyyətin labüdlüyü prinsipinin təmin edilməsi, bu qəbildən olan cinayətlərə qarşı vaxtında preventiv fəaliyyətin həyata keçirilməsi üzrə müntəzəm iş aparılması vacib şərtdir.

Korrupsiya ilə bağlı cinayətlərlə əlaqədar ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyətinin aparılması üzrə ixtisaslaşdırılmış dövlət orqanı funksiyalarını həyata keçirən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyəti bu sosial bəlanın aradan qaldırılmasında, onunla səmərəli mübarizənin aparılmasında mühüm əhəmiyyətə malik olduğundan bu mühüm dövlət orqanının təkmilləşdirilməsi, onun təşkilati əsaslarının gücləndirilməsi, statusunun artırılması və səlahiyyətlərinin genişləndirilməsi istiqamətində önəmli işlər görülməklə ciddi islahatlar davam etdirilmişdir.

14 fevral 2014-cü il tarixdə «Prokurorluq haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» qanunlara dəyişikliklər edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə Baş İdarə statusu verilməklə prokurorluğun sistemində bu mühüm dövlət qurumunun yeri dəqiqləşdirilmişdir. «Prokurorluq haqqında» qanuna xüsusi olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə həsr edilmiş yeni maddə əlavə edilərək qurumun statusu, vəzifə və səlahiyyətləri konkretləşdirilmişdir. Yeni qanunla Baş İdarənin rəisinə Baş prokurorun müavini statusunun verilməsi qurumun qarşısında dayanan məqsəd və vəzifələrin daha səmərəli yerinə yetirilməsinə zəmin yaradır. Yeni qanuna əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin tərkibində idarə, şöbə və digər struktur bölmələr yaradıla bilər ki, bu da qurumun fəaliyyətinin daha çevik və məqsədyönlü təşkilinə imkan yaradacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli 234 nömrəli fərmanı ilə Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni statusu ilə bağlı onun Əsasnaməsində müvafiq dəyişikliklər edilməklə yanaşı, bu ixtisaslaşdırılmış prokurorluq orqanının vəzifələri daha da

genişləndirilərək, onlara korrupsiyaya qarşı mübarizənin vəziyyəti öyrənilərkən və korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlanarkən normativ hüquqi aktlarda və onların layihələrində müəyyən edilmiş korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırılması da aid edilmişdir. Normativ hüquqi aktlarda korrupsiya hüquqpozmalarına şərait yaradan hallar barədə məlumatlarla əlaqədar Baş Prokurorluq tərəfindən qanunvericilik təşəbbüsü hüququndan istifadə etməklə qanunvericilikdə müvafiq dəyişikliyin edilməsinə dair təkliflərin hazırlanıb Milli Məclisə təqdim edilməsi ölkədə daha təkmil antikorrupsion qanunvericiliyin formalaşmasına şərait yaratmaqla korrupsiyaya qarşı mübarizəni gücləndirəcəkdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə görülmüş tədbirlər nəticəsində bu orqanın göstəricilərinin ildən-ilə daha da yüksəlməsi prosesi ötən dövrdə də davam etmişdir. Belə ki, ötən bir il ərzində Baş İdarənin «161» nömrəli «Qaynar xətt» əlaqə mərkəzinə 5800-dən yuxarı müraciət daxil olmuşdur ki, onların baxılması nəticəsində müəyyən qismi əsaslı olduğundan müsbət həll edilərək vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, bir sıra vəzifəli şəxslər intizam məsuliyyətinə cəlb edilmiş, 18 müraciət üzrə isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılmışdır. Korrupsiya hüquqpozmaları ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciətlər üzrə aparılan təhlil və ümumiləşdirmələr nəticəsində korrupsiya hallarının baş verdiyi sahələr müəyyən edilməklə onlar üzrə preventiv tədbirlərin həyata keçirilməsi barədə təkliflər hazırlanıb göndərilmişdir. Son bir il müddətində Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 286 şəxs barəsində 191 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmişdir.

Beynəlxalq nüfuzu gündən-günə artan Azərbaycan Respublikasının ümumavropa dəyərləri xəzinəsinə mühüm töhfələr verməkdə davam edərək cari il may ayının 14-dən Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etməyə başlaması ölkəmizin tarixində mühüm əhəmiyyətə malik hadisə olmuşdur. Bu əlamətdar hadisə ilə əlaqədar Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (QRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə Baş Prokurorluq tərəfindən təşkil olunaraq, 2014-cü ilin 30 iyun - 1 iyul tarixlərində Bakı şəhərində keçirilmiş, «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfrans 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan olan nümayəndələri bir araya gətirərək bu ümumbəşəri bəlanın aradan qaldırılması istiqamətində həyata keçirilən fəaliyyətlə bağlı geniş fikir və təcrübə mübadiləsinin aparılmasına şərait yaratmaqla, korrupsiyaya əks təsirin səmərəliliyin artırılmasında faydalı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev konfrans iştirakçılarına ünvanlanmış təbrik məktubunda qeyd etmişdir ki, «Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı, korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin başlıca istiqamətləridir. Azərbaycanda korrupsiyaya qarşı mübarizəni uğurla aparmaq üçün möhkəm siyasi iradə mövcuddur.»

Ötən müddət ərzində prokurorluq orqanlarında idarəçiliyin və fəaliyyətin bütün sahələri üzrə səmərəliliyin artırılması istiqamətində görülən işlər davam etdirilməklə müvafiq tədbirlər həyata keçirilmiş, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin, əhalinin elektron vasitələrlə prokurorluqla əlaqə saxlamaq imkanlarının genişləndirilməsi, informasiya mübadiləsinin təhlükəsizliyinin yüksəldilməsi sahəsində müvafiq işlərin görülməsi təmin edilmişdir.

Dövlət başçısının müvafiq sərəncamına əsasən, 2013-cü ilin «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi ilə əlaqədar olaraq

prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Baş Prokurorluq üzrə geniş Tədbirlər Planı hazırlanıb təsdiq edilərək vaxtında və keyfiyyətli icrası həyata keçirilməklə prokurorluqda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsinə, bu sahədə həyata keçirilən işin səmərəliliyinin xeyli dərəcədə artırılmasına nail olunmuşdur. Prokurorluq orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi prosesi daha səmərəli proqram-texniki vasitələrdən istifadə edilməsi, istifadədə olan «Elektron Sənəd Dövriyyəsi Proqramı»nın əvvəlkindən bir sıra, onun səmərəli işləməsi üçün vacib olan üstün cəhətləri ilə fərqlənən yeni versiyası hazırlanmaqla texniki-texnoloji strukturunun təkmilləşdirilməsi, texnoloji imkanlarının genişləndirilməsi, sistem vasitəsilə ötürülən məlumatların tamlığının, informasiya ehtiyatlarının və məlumat mübadiləsinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində mütəmadi iş həyata keçirilmiş, «Elektron cinayət» Proqramının tətbiqi ilə əlaqədar zəruri tədbirlərin görülməsi təmin edilməklə, proqramdan istifadə qaydaları hazırlanaraq Baş Prokurorluq üzrə müvafiq əmrlə təsdiq edilmişdir. «Elektron cinayət» Proqramında cinayət işi üzrə təqibin həyata keçirilməsinin bütün mərhələləri, cinayət haqqında məlumat daxil olduğu andan iş üzrə cinayət prosesi başa çatanadək, o cümlədən bütün istintaq və prosessual hərəkətlər, işin gedişatı, işlə bağlı qəbul edilmiş məhkəmə və istintaq orqanlarının qərarları tam və ardıcıl olaraq əks olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında» 13 fevral 2014-cü il tarixli 268 nömrəli sərəncamında «Elektron məhkəmə» informasiya sistemi ilə Baş Prokurorluqda tətbiq olunan informasiya sisteminin inteqrasiyası nəzərdə tutulduğundan bu istiqamətdə müvafiq təşkilati işlər görülməklə lazımi tədbirlər həyata keçirilir, o cümlədən məhkəmələrdə tətbiq edilən informasiya sistemlərinin funksionallığının, onların parametrlərinin nəzərdən keçirilməsi, informasiya mübadiləsi aparılacaq məlumatların dəqiqləşdirilməsi, prokurorluqda mövcud olan elektron informasiya bazalarında müvafiq dəyişikliklərin edilməsi, texnoloji vasitələrin təkmilləşdirilməsi aparılmışdır. Görülmüş işlər əmin olmağa əsas verir ki, «Elektron məhkəmə» informasiya sistemi istifadəyə verildikdə prokurorluqda tətbiq olunan «Elektron Sənəd Dövriyyəsi» və «Elektron cinayət» informasiya sistemlərinin onunla inteqrasiyası vaxtında təmin olunacaqdır.

Baş Prokurorluğun struktur qurumlarının idarədaxili proqramlarla təminatı işi görülərək, idarə və şöbələrin fəaliyyətinə dair bütün məlumat və göstəriciləri əks etdirən, elektron vasitələrdən istifadə edilməklə təhlillərin və analitik işin, ümumiləşdirmələrin aparılmasına, fəaliyyətin qiymətləndirilməsinə və təkmilləşdirilməsinə optimal şərait yaradan müasir tipli proqramların hazırlanıb istifadəyə verilməsi prosesinin uğurla həyata keçirilməsi davam etdirilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi üçün «Əməliyyat-axtarış», «Beynəlxalq təşkilatlar» və «Qaynar xətt» proqramlarının hazırlanaraq istifadəyə verilməsi, proqramlaşdırma prosesi ilə Baş Prokurorluğun Təşkilat-analitik və Beynəlxalq əlaqələr idarələrinin də əhatə olunması bu qurumların fəaliyyətinin daha səmərəli qurulmasına imkan yaratmışdır.

Baş Prokurorluqla tabe prokurorluqlar arasında vahid daxili şəbəkə yaradılmaqla şəhər və rayon prokurorluqlarının əksəriyyətinin bu sistemə qoşulması təmin edilmişdir ki, bu da daxili şəbəkə vasitəsilə elektron xidmətlərin mərkəzdən idarə olunması nəticəsində daxili sənəd dövriyyəsinin real iş rejimində daha operativ həyata keçirilməsinə, internet resurslarının isə daha qənaətlə istifadə olunmasına şərait yaratmışdır.

Müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi Azərbaycan Prokurorluğu muzeyinin yüksək standartlar və tələblər səviyyəsində yenidən təşkil edilməsinə şərait yaratmışdır. Bu məqsədlə qısa müddət ərzində informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə edil-

məklə muzeydə bir sıra yeniliklər tətbiq edilmiş, eksponatlar barədə elektron vasitələrlə məlumatların verilməsi, onların elektron bazasının və sisteminin yaradılması, müasir elektron informasiya ekran və tablolarının yerləşdirilməsi, muzeydə kompüter idarəetməsinin tətbiqi və sair həyata keçirilmişdir.

Ölkə Prezidentinin tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilməklə əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq, ərizə və şikayətlərin baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi davam etdirilmişdir. Vətəndaşların prokurorluq orqanlarına müraciət etmək imkanlarının elektron vasitələrdən istifadə etməklə daha da asanlaşdırılması, daxil olmuş müraciətlərə diqqətlə yanaşılaraq qaldırılan məsələlərin hərtərəfli və düzgün həlli istiqamətində fəaliyyətin həyata keçirilməsi, müraciətə verilən cavabın vətəndaşa, eyni zamanda, tez bir vaxtda elektron qaydada çatdırılması, mütəmadi olaraq ümumiləşdirmələr aparılmaqla bu sahədə mövcud olan və ya baş verə bilən hər hansı nöqsanın vaxtında müəyyən edilərək aradan qaldırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin edilmişdir. Vətəndaşların müraciətlərinə verilən cavabın onlara çatdırılmasının tezliyinin, müraciətə baxılmanın vəziyyəti barədə vətəndaşın daha çevik məlumatlandırılmasının təmin edilməsi məqsədilə Baş Prokurorluğun veb-saytında yeni «müraciətlərə onlayn baxılması» funksiyası (bölməsi) yaradılmaqla onun «Elektron Sənəd Dövriyyəsi Proqramı»nın «Vətəndaşa cavab» bölməsi ilə əlaqələndirilməsi həyata keçirilmişdir. Müraciətlərə onlayn baxılması vasitəsilə prokurorluğa müraciət etmiş vətəndaşlar Baş Prokurorluğun veb-saytına (www.prokurorluq.gov.az) daxil olaraq müraciət müəllifinə proqram tərəfindən avtomatik olaraq göndərilmiş bildirişdəki koddan və xüsusi paroldan istifadə etməklə öz müraciətlərinə verilən cavabı ilkin olaraq elektron variantda əldə edə biləcəklər.

Əvvəlcədən elan olunmaqla ölkənin müxtəlif bölgələrində vətəndaşların Baş prokuror tərəfindən qəbulunun keçirilməsi mütəmadi xarakter daşıyaraq müsbət nəticələr vermişdir. 2014-cü ilin ötən ayları ərzində bölgələrdə 9 belə tədbir nəticəsində 615 vətəndaş qəbul edilməklə, müvafiq izahların verilməsi, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması həyata keçirilmişdir. Belə ki, səyyar qəbullar zamanı daxil olmuş müraciətlərdən 361-i prokurorluğun icraatına qəbul edilmiş, 203 müraciət isə aidiyyəti üzrə baxılması üçün müvafiq dövlət orqanlarına göndərilmişdir. Prokurorluğun icraatına qəbul edilmiş həmin müraciətlərdən 55-i əsaslı olduğundan təmin edilmiş, 241-i üzrə isə vətəndaşlara izahlar verilmişdir.

Prokurorluq tərəfindən müasir inkişaf dövrünün ötən bir ili əhatə edən müddəti ərzində görülən işlər, əldə edilən müsbət nəticələr qeyd olunanlarla bitmir. Prokurorluq işçilərinin müntəzəm əməyi nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin digər sahələri üzrə də işin təkmilləşdirilməsi prosesi həyata keçirilərək müvafiq uğurlar qazanılmışdır. Əminliklə qeyd etmək istəyirik ki, prokurorluq işçiləri bundan sonra da Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən hüquqi dövlətin əsaslarının möhkəmləndirilməsinə və inkişafına yönəlmiş tədbirlərdə, məhkəmə-hüquq islahatlarının səmərəliliyinin artırılmasında fəal iştirak edərək qanuna və xalqına sədaqətlə xidmət edəcək, prokurorluğun fəaliyyətinin müasir dövrün yüksək tələblərinə uyğun olaraq həyata keçirilməsi istiqamətində səylərini daha da artıraraq, qanun pozuntularına və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunmasında uğurlar əldə etmək üçün əzmlə çalışacaqlar.

**Zakir QARALOV,**
**Azərbaycan Respublikasının Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq orqanlarının yaradılmasının 96 illiyinə həsr olunmuş tədbir keçirilmişdir



Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaradılmasının 96 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən, hər il oktyabr ayının 1-i «Prokurorluq işçilərinin peşə bayramı günü» kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, həm də prokurorluq işçilərinin fəaliyyətinə verilən qiymət kimi əhəmiyyətlidir.

Azərbaycan prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi élan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Ulu öndərimiz deyirdi ki: «Mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram». Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin

həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. «Prokurorluq orqanlarında qulluqkeçmə haqqında» Azərbaycan Respublikası Qanununun, «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli liderin «Prokurorluq peşəsi ağır çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız» sözlərini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Qeyd olunmuşdur ki, bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: «Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır».

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı»nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Dövlət proqramının icrası üzrə prokurorluğun fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və əhəmiyyətli tədbirlər həyata keçirilməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Muxtar Respublika prokuroru qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, muxtar respublika prokurorluğu və tabe rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar Respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir. Azərbaycan Respublikası Prezidentinin «Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında» 2006-cı il 2 noyabr tarixli Fərmanı Muxtar Respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad,

Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalist avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər 2012-ci ildə də davam etdirilmiş, Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmişdir.

Vurğulanmışdır ki, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, Muxtar Respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Bu gün Muxtar Respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını Muxtar Respublika Prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Qeyd olunmuşdur ki, məhkəmə-hüquq islahatları çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində «Prokurorluq haqqında», «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» qanunlara, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə və digər qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək, Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Bu qayğını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının mohkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı mudafiəsində səylə çalışacaqlar.

Sonda əminliklə ifadə olunmuşdur ki, bu gün peşə bayramını və 96 illiyini qeyd edən prokurorluq orqanları öz fəaliyyətinin dövlət səviyyəsində göstərilən etimada layiq təşkili üçün bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, səlahiyyət hədləri daxilində regionun ən qabaqcıl ölkəsinə çevirilmiş ölkəmizdə aparılan müasir məzmunlu yenidənqurma və mütərəqqi islahatların həyata keçirilməsində öz xidmətlərini göstərəcək, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bu quruculuq işlərinin əsas təminatları kimi ictimai-siyasi sabitliyin və əmin-amanlığın, dövlətçiliyimizin və milli maraqlarımızın, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunması işində yaxından iştirak edəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, şəhər və rayon prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda və tabe rayon (şəhər) prokurorluqlarda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir. Tədbirlərdə qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən «Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında» 14.01.2014-cü il tarixdə Sərəncam imzalanmışdır. Sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 17.01.2014-cü il tarixli Sərəncamı ilə «Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı» təsdiq edilmişdir.

Qeyd olunmuşdur ki, şərqin qədim diyarlarından olan Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda çox şərəfli bir yol keçmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu qədim diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək, dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Artıq müasir Naxçıvan Muxtar Respublikası mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.

Vurğulanmışdır ki, Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulmuş, həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü, 29 dekabr 1998-ci ildə isə dördüncü Konstitusiyası qəbul edilmiş (8 yanvar 1999-cu ildə dərc edilimiş), Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının əsasını isə Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsində qəbul edilən Konstitusiyası təşkil edir.

Vurğulanmışdır ki, ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvanın blokadaya salınması və Muxtar Respublika ərazilərinin itirilmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda ulu öndər Heydər Əliyev öz nüfuzu və siyasi iradəsi ilə Muxtar Respublikanı təhlükələrdən xilas etmişdir. Bu mənada dahi şəxsiyyətin qədim diyarda yaşayıb-işlədiyi 1990-1993-cü illər Naxçıvanın muxtariyyətinin möhkəmləndirilməsində mühüm mərhələ təşkil edir. Müstəqil Azərbaycana rəhbərliyi dövründə isə ümummilli liderin Naxçıvanla bağlı qəbul etdiyi qərarlar, Muxtar Respublikaya etdiyi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını təmin etmiş, Muxtar Respublika çiçəklənən diyara çevrilmişdir.

Bu gün Muxtar Respublikada əldə olunan bütün nailiyyətlərdə ümummilli lider Heydər Əliyevin işi və əməlləri yaşayır. Zaman etibarilə o qədər də böyük olmayan bu dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı dinamik inkişaf etmiş, sosial proqramlar qəbul edilərək icra olunmuşdur. Naxçıvanın Muxtar Respublika statusu bu bölgənin 90 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm

əhəmiyyətə malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir.

90 il bundan əvvəl yaradılan Naxçıvan Muxtar Respublikası çətin, mürəkkəb və eyni zamanda parlaq bir inkişaf yolu keçmişdir. Naxçıvanın 1924-cü ildə qazandığı muxtariyyət statusu gərgin siyasi mübarizələrin nəticəsində əldə olunmuşdur. Yerli əhali tərəfindən Naxçıvanın müdafiəsi uğrunda aparılan mübarizə və naxçıvanlı diplomatların qətiyyətli mövqeyi muxtariyyətin qazanılmasında mühüm amil olmuşdur. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində 90 il ərzində bir əsrə sığmayan inkişaf yolu keçmişdir. Naxçıvan Muxtar Respublikası özünü bütün dünyaya daha möhkəm əsaslarla inkişaf edən, tərəqqinin zirvəsinə yüksələn, iqtisadiyyatın çoxşaxəli, dayanıqlı inkişafını təmin edən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Muxtar Respublikanın inkişaf tarixinə diqqət edərkən bunu açıq-aydın şəkildə görə bilirik. Hər addımda yaşıllıqların salınması, müasir tipli obyektlərin tikilməsi, yeni yolların salınması, körpülərin tikilib istifadəyə verilməsi, yeni məktəblərin tikilməsi və köhnələrinin əsaslı təmir olunması və digər sosial-ictimai tədbirlər Muxtar Respublikada geniş vüsət almışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Diyar Xalq Komissarları Sovetinin 1923-cü il 15 fevral tarixli qərarı ilə Naxçıvanda prokurorluq orqanlarının əsası qoyulmuşdur. Sovetlər Birliyi dövründə Naxçıvan MSSR Prokurorluğu adı ilə fəaliyyət göstərən bu qurum 1990-cı il noyabr 17-dən etibarən Naxçıvan Muxtar Respublikası Prokurorluğu adlandırılmışdır. Muxtar Respublika Prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmişdir. «Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, muxtar respublika prokurorluğu və tabe rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir. Azərbaycan Respublikası Prezidentinin «Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında» 2006-cı il 2 noyabr tarixli Fərmanı Muxtar Respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalist avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər 2012-ci ildə də davam etdirilmiş, Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmişdir.

Tədbirlərdə Muxtar Respublikanın keçdiyi tarixi inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında tarixi fəaliyyətindən bəhs edilərək, muxtar respublikanın özünəməxsus xüsusiyyətləri, tarixi, mədəniyyəti, iqtisadiyyatı, eləcə də muxtar respublikada aparılmış tikinti-quruculuq işləri, qazanılmış nailiyyətlər, elmi-mədəni, sosial-iqtisadi yüksəlişi və muxtar respublikanın müdafiə qüdrəti barədə məlumat verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

## Qaradağ rayonunda prokurorluq işçilərinin peşə bayramı qeyd edilmişdir



Sentyabrın 30-da 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Qaradağ rayonu İcra hakimiyyətində tədbir keçirilmidir.

Tədbirdə çıxış edən Qaradağ rayonu İcra hakimiyyətinin başçısı Süleyman Mikayılov demişdir ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin mühüm rolu olmuşdur. Bildirilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev prokurorluq işçilərinə hər zaman diqqət və qayğı ilə yanaşmışdır. Çıxışda vurğulanmışdır ki, prokurorluq orqanları qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edir.



Qaradağ rayon prokuroru Fəxrəddin Pənahov çıxışını peşə bayramı münasibətilə prokurorluq işçilərini təbrik etməklə başlamış, sonra prokurorluq orqanlarının keçdiyi inkişaf yolundan, prokuror nəzarətinin müasir konsepsiyasının formalaşdırılmasına təkan vermiş ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb həyata keçirilmiş məhkəmə-hüquq islahatlarından, ölkə başçısı – Prezident İlham Əliyevin prokurorluğun fəaliyyətinə verdiyi qiymətdən və dəstəkdən danışmış, özünün və rayon prokurorluğunun əməkdaşları adından Baş prokuror Zakir Qaralovu əmin etmişdir ki, onlar qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələcək və göstərilən etimadı doğruldacaqlar.

Qaradağ rayon İcra hakimiyyətinin başçısı Süleyman Mikayılov peşə bayramı münasibətilə rayon prokuroru Fəxrəddin Pənahova və prokurorluğun bir qrup əməkdaşlarına rayon İcra hakimiyyəti başçısının Fəxri Fərmanını və hədiyyələri təqdim etmişdir.

**Qaradağ rayon prokurorluğu**

# Ucar rayon prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı qeyd edilmişdir







Oktyarın 1-də prokurorluq orqanlarının yaranmasının 96-cı ildönümü münasibətilə Ucar rayon prokurorluğunda tədbir keçirilmidir. Rayon prokurorluğunun əməkdaşları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb əziz xatirəsini dərin hörmət və ehtiram hissi ilə yad etmişlər.

Sonra rayon prokurorluğunda davam edən tədbirə Ucar rayonu İcra hakimiyyətinin başçısı Yaşar Məmmədov, millət vəkili Elton Məmmədov və hüquq-mühafizə orqanlarının rəhbərləri də qatılmışlar. Tədbirdə Respublikanın Baş prokuroru Zakir Qaralovun, Ucar rayonu İcra hakimiyyətinin başçısı Yaşar Məmmədovun, bir sıra rayon hüquq-mühafizə orqanları rəhbərlərinin rayon prokurorluğunun kollektivinə ünvanladıqları təbrik teleqramları oxunmuşdur.

Rayon prokuroru Elşən Abdullayev çıxış edərək dövlət müstəqilliyinin hələ kövrək vaxtlarında prokurorluq orqanlarının təşəkkülü və formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlər göstərdiyini vurğulamış, məhz ümummilli liderin prokurorluq orqanlarına etimadı və qayğısı qarşıya qoyulmuş funksional vəzifələrin icrasına stimul yaratdığını, vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasını təmin etdiyini bildirmişdir.

İcra başçısı Yaşar Məmmədov rayon prokurorluğunun əməkdaşlarına təbrik sözlərini yetirərək onlara öz şərəfli işlərində uğurlar arzulamışdır.

Millət vəkili Elton Məmmədov çıxışında təbriklərə qoşularaq 1 oktyabr tarixini prokurorluq işçilərinin həyatında unudulmaz gün adlandırmış, peşə bayramı münasibətilə öz təbriklərini və səmimi arzularını çatdıraraq qeyd etmişdir ki, prokurorluq orqanlarının fəaliyyətini daha da müasirləşdirmək üçün Respublikamızda hər cür şərait yaradılmışdır. O, bildirmişdir ki insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı olan yeni nəsil prokurorların yetişməsinə və hazırlıqlı, peşəkar gənc kadrların bu orqanlara irəli çəkilməsinə necə böyük önəm verildiyini rayon prokurorluğunun kollektivinin timsalında da aydın görünür.

Tədbirdə rayon prokurorunun köməkçisi Araz Əkbərov prokurorluq orqanlarının tarixində, ilk Azərbaycan Demokratik Cumhuriyyəti dövründə qanunçuluğun, hüquq qaydalarının təminatçısı kimi çıxış etməsindən, demokratik respublikamızın süqutundan sonra yaranmış ictimai formasiyanın mövcudluğu şəraitində də xalqın mənafeyini əks etdirən taleyüklü məsələlərə sadiq qalmasından danışmışdır.

**Ucar rayon prokurorluğu**

## Prokurorluq işçilərinin peşə bayramı Salyan rayonunda qeyd edilmişdir



Prokurorluq işçilərinin peşə bayramı Salyan rayonunda qeyd edilmişdir

Salyan rayonunun Heydər Əliyev Mərkəzinin geniş iclas zalında 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı və milli prokurorluq orqanlarının yaradılmasının 96-cı ildönümü təntənəli şəkildə qeyd edilmişdir.

Rayon prokurorluğunun əməkdaşları Heydər Əliyev adına parkda ulu öndərin abidəsi önünə tər gül-çiçək dəstələri düzmüş, ümummilli liderin xatirəsini ehtiramla yad etmişlər.

Salyan rayon İcra hakimiyyətinin başçısı Tahir Kərimov prokurorluq əməkdaşlarının, rayonun hüquq-mühafizə orqanlarının və ictimaiyyətinin nümayəndələrini əlamətdar gün münasibətilə təbrik etmiş, respublikamızın prokurorluq orqanlarının zəngin tarixi və xalqımız qarşısında xidmətləri barədə danışmış, rayon prokurorluğu əməkdaşlarının rayonunun ictimai həyatında fəal iştirakını və işləri ilə rayonda cərəyan edən ictimai proseslərə pozitiv təsir göstərdiklərini xüsusi vurğulamışdır.

Salyan rayon prokuroru Firdovsi Nemətli Azərbaycan prokurorluq orqanlarının yaranması və inkişafından, müstəqillik dövründə bu orqanın fəaliyyətində ümummilli lider Heydər Əliyevin rolundan, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızın prokurorluq orqanlarında aparılan hüquqi islahatlardan danışmış, şərəfli peşə sahiblərinin cinayətkarlığa qarşı mübarizə, insanların hüquq və azadlıqlarının müdafiəsi, qanunların icra və tətbiq olunmasına nəzarət sahələri üzrə fəaliyyətindən söz açmışdır.

Yığıncaqda rayon məhkəməsinin sədri Xaqani Tağıyev, rayon polis şöbəsinin rəisi Namiq Həsənov, MTN Salyan rayon şöbəsinin rəisi Eldəniz Bağıyev, rayon ziyalılar cəmiyyətinin sədri Allahverdi Piriyev çıxış edərək 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı münasibətilə rayon prokurorluğunun əməkdaşlarını təbrik etmişlər.



Salyan rayon İcra hakimiyyətinin başçısı Tahir Kərimov peşə bayramı münasibətilə rayon prokurorluğunun əməkdaşlarının bir qrupuna rayon İcra hakimiyyəti başçısının Fəxri Fərmanını təqdim etmişdir.

**Salyan rayon prokurorluğu**

***

**1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı və milli prokurorluq orqanlarının yaradılmasının 96-cı ildönümü prokurorluğun digər struktur qurumlarında da qeyd edilmişdir.**

# Bakıda Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının 3-cü sessiyası keçirilmişdir




Noyabrın 19, 20, 21-də Bakıda, «Four Seasons» otelində Beynəlxalq Antikorrupsiya Akademiyasına (IACA) üzv və iştirakçı dövlətlərin Assambleyasının 3-cü sessiyası keçirilmişdir. Sessiyaya 43 ölkədən 130-dan çox nümayəndə, o cümlədən nüfuzlu beynəlxalq təşkilatların –




Avropa Şurasının, Avropa İttifaqının, Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa bürosunun, müstəqil antikorrupsiya qurumlarının rəhbərləri, ədliyyə və daxili işlər nazirləri qatılmışlar.

Əvvəlcə Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına təbrik




məktubunu oxumuş, sonra Beynəlxalq Antikorrupsiya Akademiyasının icraçı katibi Martin Kreutner və Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov çıxış etmişlər.

Sessiyada təşkilati məsələlər müzakirə edilmiş, Beynəlxalq Antikorrupsiya Akademiyasının Assambleyasının növbəti il üçün sədri seçilmişdir.

### Beynəlxalq Assambleyanın iştirakçıları ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər

Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) ali qurumu – üzv dövlətlərin Assambleyasının üçüncü sessiyasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan bu Akademiyanın nümayəndə





heyəti noyabrın 19-da Fəxri xiyabana gələrək ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də güllər düzülmüşdür. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, «Əbədi məşəl» abidəsinin önünə əklil qoymuşlar.




Tədbirə 43 ölkədən 130-dan çox nümayəndə, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlar- Avropa Şurası, Avropa İttifaqı, Korrupsiyaya qarşı Dövlətlər Qrupu, Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa bürosunun rəhbərləri, müstəqil antikorrupsiya qurumlarının rəhbərləri, ədliyyə və daxili işlər nazirləri qatılmışlar.

## Azərbaycan Respublikasının Baş prokuroru Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının sədri seçilmişdir




Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Assambleyasının Bakıda keçirilmiş üçüncü sessiyasında bu Assambleyanın növbəti il üçün sədri seçilmişdir. Cənab Zakir Qaralov Assambleyanın əvvəlki sədri – Tailand Krallığı Milli Antikorrupsiya Komissiyasının prezidenti Panthep Klanaronqranı əvəzləmişdir.

### Zakir Qaralov: «Çalışacağıq ki, IACA Assambleyasına sədrliyimizi layiqincə yerinə yetirək»

«Bakıda mühüm tədbirin – Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının 3-cü sessiyasının keçirilməsi Azərbaycanın dünyada artan nüfuzunun təsdiqidir. Bu, eyni zamanda, beynəlxalq təşkilatların Azərbaycanda korrupsiyaya qarşı mübarizəyə verdikləri qiymətdir.» Bu fikirləri Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov noyabrın 19-da jurnalistlərə açıqlamasında demişdir.

Baş prokuror bildirmişdir ki, Beynəlxalq Antikorrupsiya Akademiyası yarandığı ilk gündən Azərbaycan onunla çox sıx əməkdaşlıq edir, üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirir, davamlı şəkildə müxtəlif tədris proqramları və beynəlxalq tədbirlər həyata keçirir. Zakir Qaralov bu ilin iyununda «Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda Avropa ölkələrinin, korrupsiyaya qarşı mübarizə aparan təşkilatların nümayəndələrinin təcrübələrini bölüşdüklərini xatırlatmışdır. Baş prokuror




demişdir: «Azərbaycan Prezidentinin tələbi ondan ibarətdir ki, korrupsiya ilə mübarizə bütün sahələrdə aparılmalıdır. Bununla əlaqədar qarşımızda ilk növbədə beynəlxalq təcrübənin öyrənilməsi durur. Beynəlxalq Antikorrupsiya Akademiyasının əsas məqsədi belə təcrübələri öyrənmək, digər dövlətlərə göndərmək, ekspertlər hazırlamaq və yay kursları təşkil etməkdir. Çalışacağıq ki, Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasına sədrliyimizi layiqincə yerinə yetirək».

**Korrupsiyaya qarşı mübarizəyə Azərbaycanda yüksək diqqət göstərilir**

Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının Bakıda keçirilən 3-cü sessiyası çərçivəsində noyabrın 20-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsinin (OLAF) baş direktoru Covanni Kesslerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə Azərbaycanın Baş prokuroru, Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının sədri Zakir Qaralov sessiyanın Bakıda keçirilməsinin Azərbaycan dövləti üçün əlamətdar hadisə olduğunu bildirmişdir. Baş prokuror Prezident İlham Əliyevin sessiya iştirakçılarına müraciətində korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanda görülən işlər haqqında məlumat verildiyini, mühüm vəzifələrin qarşıya qoyulduğunu xatırlatmışdır. Zakir Qaralov Assambleyaya sədrliyin Azərbaycana keçməsinin ölkəmiz üçün böyük uğur olduğunu diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, bu sahədə müvəffəqiyyət qazanmaq üçün birillik sədrlik müddətində antikorrupsiya qurumları və Avropanın mötəbər təsisatları ilə mühüm tədbirlər həyata keçiriləcək. Ölkə rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq Azərbaycanda korrupsiya ilə mübarizədə güclü siyasi iradənin mövcudluğunu vurğulayan Baş prokuror respublikamızda əsas diqqətin bu sahədə institusional strukturların yaradılmasına yönəldiyini bildirmişdir. Bu baxımdan ilk növbədə «elektron hökumət»in yaradılması, bütün dövlət qurumlarında şəffaflığın təmin edilməsi və «ASAN xidmət»in fəaliyyətə başlaması əsas tədbirlər kimi qeyd edilmişdir. Diqqətə çatdırılmışdır ki, bu institusional tədbirlərin həyata keçirilməsi üçün Milli Fəaliyyət Planı icra olunur və əlaqədar dövlət qurumları qarşısında



mühüm vəzifələr qoyulmuşdur. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi də bu məsələləri daim diqqət mərkəzində saxlayır.

Azərbaycanda keçirilən tədbirin və görüşün əhəmiyyətini yüksək qiymətləndirən OLAF-ın baş direktoru Covanni Kessler son illər ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə olunan nailiyyətləri məmnunluqla vurğulamışdır. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin binasında yaradılan nümunəvi şəraitdən danışan qonaq Azərbaycanın brendi olan «Asan xidmət»i maraqlı model kimi dəyərləndirmişdir. Korrupsiyaya qarşı mübarizəyə Azərbaycanda yüksək diqqətin göstərildiyini qeyd edən Covanni Kessler ölkəmizdə dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin olunması baxımından respublikamızda mühüm profilaktik tədbirlərin görüldüyünü söyləmişdir.

Görüşdə Azərbaycan ilə OLAF arasında birgə tədbir və layihələrin, təcrübə mübadiləsinin həyata keçirilməsi, əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur.

## Azərbaycan Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun fəal üzvü və mühüm tərəfdaşıdır




«Azərbaycan korrupsiya ilə mübarizədə Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) fəal üzvü və mühüm tərəfdaşıdır. Biz bu qurum çərçivəsində Azərbaycan ilə fəal əməkdaşlıq edirik.» – bu sözləri GRECO-nun prezidenti Marin Mrçela noyabrın 19-da AzərTAc-a müsahibəsində demişdir.

Bakıda Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının 3-cü sessiyasının keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirən Marin Mrçela bildirmişdir ki, Azərbaycan korrupsiyaya qarşı mübarizə ilə bağlı üzərinə götürdüyü öhdəliklərə hər zaman əməl etmişdir. Beynəlxalq konfransda

müşahidəçi statusunda təmsil olunduqlarını vurğulayan qonaq diqqətə çatdırmışdır ki, «GRECO Beynəlxalq Antikorrupsiya Akademiyasının üzvüdür. Bu, mükəmməl əməkdaşlıq deməkdir. Bu konfrans təkcə peşəkarlar üçün deyil, eyni zamanda, ictimai xadimlər üçün də əhəmiyyətlidir. Təbii ki, bu iki tərəf korrupsiya ilə mübarizədə fikir mübadiləsi aparmaqla bir-birilərindən faydalana bilər».

**Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Assambleyasının üçüncü sessiyasının Bakıda keçirilməsi Azərbaycanda korrupsiyaya qarşı mübarizə işlərinə verilən qiymətdir**




«Beynəlxalq Antikorrupsiya Akademiyasının ali orqanı – üzv dövlətlərin Assambleyasının üçüncü sessiyasının Bakıda keçirilməsi Azərbaycanda korrupsiyaya qarşı mübarizə işlərinə verilən qiymətdir.» – bu sözləri Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev jurnalistlərə açıqlamasında bildirmişdir.

Kamran Əliyev demişdir ki, dünyanın 45-dən çox ölkəsindən, beynəlxalq təşkilatlardan nümayəndələr bu mötəbər tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmişlər. Sessiyada bir çox məsələlər müzakirə olunmuş, tədbirin sonunda müvafiq sənədlər qəbul edilmişdir.

**Beynəlxalq Antikorrupsiya Akademiyasının üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının Bakıda keçirilən 3-cü sessiyası başa çatmışdır**

Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının Bakıda keçirilən 3-cü sessiyası noyabrın 21-də öz işini başa çatdırmışdır.

Sessiyanın sonuncu günündə Assambleyanın 4-cü sessiyasının ilkin gündəliyi və 3-cü sessiyanın hesabatı müzakirə edilərək qəbul olunmuş, regional qruplar arasında görüşlər keçirilmişdir.

Assambleyanın 3-cü sessiyasının bağlanışında çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru, Beynəlxalq Antikorrupsiya Akademiyası Assambleyasının sədri Zakir Qaralov uğurlu keçən tədbirdə korrupsiyaya qarşı mübarizə sahəsində müxtəlif ölkələrin təcrübəsinin öyrənildiyini, səmərəli fikir mübadiləsinin aparıldığını, eyni zamanda Assambleyanın 3-cü sessiyasının korrupsiyaya qarşı mübarizə istiqamətində qlobal səviyyədə əməkdaşlığın bundan sonra da dərinləşməsinə zəmin yaradacağına və bu sahədə mühüm nəticələrin əldə edilməsinə töhfə verəcəyinə əminliyini bildirmişdir.

Zakir Qaralov Azərbaycanın Assambleyaya sədrliyi dövründə əsas prioritetlərin Akademiyanın tədris müəssisəsi kimi ənənəvi yay kurslarının təşkili sahəsində fəaliyyətinin daha da inkişaf




etdirilməsi, təşkilata üzv dövlətlərin sayının artırılması, qabaqcıl təcrübənin öyrənilməsi və bölüşdürülməsi məqsədilə keçirilən treninqlərin coğrafiyasının müxtəlif mövzular üzrə regional konfransların təşkili yolu ilə genişləndirilməsi, habelə korrupsiyanın ayrı-ayrı növləri üzrə istintaq metodikasını əks etdirən tövsiyələr və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirici bələdçilərin hazırlanması olacağını qeyd etmişdir. Assambleyanın sədri, Baş prokuror digər mühüm məsələ kimi, təşkilatın üzərinə düşən vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün tədris ocağının ianə və maliyyə mənbələrinin artırılması məqsədilə Azərbaycan Hökuməti tərəfindən Akademiyaya maddi dəstəyin verildiyini, eyni zamanda bu istiqamətdə müvafiq addımların gələcəkdə də atılacağına əminliyini ifadə etmişdir.



Assambleyasının sədri çıxışının sonunda sessiya iştirakçılarına dərin minnətdarlığını bildirmiş, ölkəmizin paytaxtı Bakı şəhəri, onun

mədəniyyəti və mətbəxi ilə tanışlığın qonaqların yaddaşında silinməz iz buraxacağına ümidvar olduğunu bildirmişdir.

Bəyannamədə, həmçinin IACA-nın uzun müddət davamlılığını təmin etmək üçün onun maliyyə mənbələrinin gücləndirilməsinin zəruriliyi vurğulanmış, dövlətlər, beynəlxalq ictimaiyyət və təşkilatlar, digər maraqlı tərəflər Akademiyanın maliyyə təminatına dəstək verməyə və qurum üçün vəsait toplanması üzrə işlərdə fəal iştirak etməyə çağırılmışdır. Sonda IACA Assambleyasının 3-cü sessiyasının Bakı Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə potensialın genişləndirilməsi üzrə birgə səylərin əhəmiyyəti qeyd edilib, qərarlılıq, milli və beynəlxalq səviyyədə təhsil, təlim vasitəsilə antikorrupsiya mü-



hitinin qurulması təşəbbüslərinə tam dəstək vurğulanmışdır. Texniki innovasiyalar, müvafiq təhsil və təlim, səmərəli, faydalı və şəffaf ictimai xidmətlərin göstərilməsi, elmi tədqiqatların ictimai sektorda antikorrupsiya mühitinin formalaşmasında, korrupsiya cinayətlərinin qarşısının alınmasında vacibliyi diqqətə çatdırılmışdır.

Bəyannamədə Beynəlxalq Antikorrupsiya Akademiyasının 3-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi və ölkəmizin korrupsiya ilə mübarizə sahəsində irəli sürdüyü ən son təşəbbüslər və çoxşaxəli imkanlar təklif etdiyi üçün Azərbaycan Respublikasına minnətdarlıq bildirilmişdir.

IACA Assambleyasının 3-cü sessiyasının bağlanışından sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakıdakı 3 saylı «ASAN xidmət» mərkəzinin fəaliyyəti və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında yaradılmış şəraitlə tanış olublar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Baş Prokurorluqda olmuşdur

Oktyabrın 23-də Baş prokuror Zakir Qaralov Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Nils Mujnieks ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Avropa Şurası və onun institutları ilə əməkdaşlığa böyük önəm verdiyini xüsusi vurğuyan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə insan hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər, insan hüquqları üzrə Avropa Konvensiyasının implementasiyası, həmçinin «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»nın icrası ilə əlaqədar görülmüş konkret işlər barədə ətraflı məlumat vermişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin insan hüquq və azadlıqlarının daha dolğun müdafiəsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran Baş prokuror son illər ərzində prokurorluq orqanlarında bu sahədə həyata keçirilmiş islahatlar barəsində geniş məlumat vermişdir.

Avropa Şurası ilə Azərbaycan Respublikası arasında mövcud əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edən Nils Mujnieks bu əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə etmişdir.

Daha sonra tərəfləri maraqlandıran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

Görüşdə Avropa Şurasının Bakı ofisinin rəhbəri Draqana Filippoviç və digər rəsmi şəxslər iştirak edirdilər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Malayziya Krallığının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

Noyabrın 18-də Baş prokuror Zakir Qaralov Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) ali qurumu – üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasında iştirakı ilə bağlı ölkəmizdə səfərdə olan Malayziya Krallığının Baş nazirinin Aparatında nazir Pol Lou Senq Kuanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik, mühüm tərəfdaş və dost ölkə kimi ildən-ilə daha da genişlənən ikitərəfli münasibətlərin səviyyəsindən məmnunluğunu ifadə edərək ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Prezident cənab İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktlarının, o cümlədən prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında müasirləşmə prosesinin davam etdirilməsi və köklü islahatların aparılması barədə ətraflı məlumat vermişdir. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini vurğulayan Baş prokuror Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin, o cümlədən Malayziya Krallığının Antikorrupsiya Komissiyası ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirdiyini bildirmişdir.

Görüşdə Pol Lou Senq Kuan göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdar-



lığını bildirmiş, ölkəmizin məhkəmə, habelə prokurorluq orqanları ilə sıx əməkdaşlıq əlaqələrinin yaradılmasında maraqlı olduğunu vurğulamışdır. Ölkəsinin BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilərkən Azərbaycanın verdiyi dəstəyə görə Krallığın Baş nazirinin təşəkkürünü çatdıran qonaq respublikamızın çox qısa zamanda yüksək nailiyyətlər qazanmasını xüsusi qeyd edərək, məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Vüsal Hüseynov çıxış edərək dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə qonaqlara ətraflı məlumat vermişdir.

Malayziya Antikorrupsiya Komissiyasının Baş Komissarı Abu Kassim Mohamed ölkələrimizin antikorrupsiya sahəsində beynəlxalq əməkdaşlığından məmnunluğunu ifadə edərək öz təşəbbüsü ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların nümayəndələri üçün mütəmadi olaraq beynəlxalq tədbirlərin təşkil olunduğunu və bu tədbirlərdə azərbaycanlı həmkarlarının fəal iştirakını xüsusi vurğulamışdır.

Görüş çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Malayziya Antikorrupsiya Komissiyası arasında əməkdaşlıq haqqında memorandumun imzalanması barədə razılıq əldə edildi.

Söhbət zamanı hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış və iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış oldular. Muzeydə ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə və eksponatlar, eyni zamanda Azərbaycan Prokurorluğunun zəngin tarixi onlarda xoş təəssürat oyatdı.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Vyetnam Milli Assambleyasının Hüquq Komitəsinin üzvləri Baş Prokurorluqda olmuşlar



Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov ölkədə səfərdə olan Vyetnam Milli Assambleyasının Hüquq komitəsinin üzvləri ilə görüşmüşdür.

Qonaqları salamlayan Rüstəm Usubov xalqlarımız arasında formalaşmış və ildən-ilə genişlənməklə dərinləşən ikitərəfli münasibətlər haqqında söz açaraq hər iki ölkənin müxtəlif dövlət təsisatları arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini xüsusi vurğulamışdır.

Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya və rüşvətxorluq cinayətlərinə qarşı mübarizə məsələlərinin təşkili və həyata keçirilməsində prokurorluq orqanlarının üzərinə mühüm vəzifələrin qoyulduğu, bu sahədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən görülən işlər diqqətə çatdırılmışdır.

Milli Assambleyanın daimi Komitəsinin üzvü, Milli Assambleyanın Hüquq komitəsinin Sədri, nümayəndə heyətinin rəhbəri Fan Trung Li göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirərək, Azərbaycan və Vyetnam arasında əlaqələrin sıx olduğunu, respublikamızın çox qısa zamanda yüksək nailiyyətlər əldə etməsini xüsusi vurğulayaraq məhkəmə-hüquq islahatları ilə bağlı həyata keçirilən tədbirləri də yüksək qiymətləndirmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıldı və qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir


Salyan

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq noyabrın 14-də Salyan rayon prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Salyan, Hacıqabul, Sabirabad, Saatlı və Masallı rayonlarından, noyabrın 27-də Tərtər rayon prokurorluğunun inzibati binasında Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, İmişli, Füzuli və Laçın, dekabrın 5-də isə Abşeron rayon prokurorluğunun inzibati binasında Sumqayıt şəhərindən, Abşeron, Qubadlı, Xızı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul etmişdir.


Tərtər

Qəbullardan əvvəl Baş prokuror rayonların İcra hakimiyyətinin başçısı və digər vəzifəli şəxslərlə birlikdə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidələrini ziyarət edərək önünə gül dəstələri düzüb əziz xatirəsini ehtiramla yad etmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə Baş prokuror Salyan rayonunda keçirilən qəbulda 11, Tərtər rayonunda 32, Xırdalan şəhərində 50-yə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.


Xırdalan

Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Baş prokuror Zakir Qaralov vətəndaşları on-line rejimində də qəbul etmişdir.

Dekabrın 19-da Baş prokuror Baş Prokurorluğun inzibati binasında Lənkəran rayon prokurorluğu ilə canlı bağlantı vasitəsilə Lənkəran, Astara və Lerik rayon sakinlərinin müvafiq tabe rayon prokurorlarının iştirakı ilə qəbulunu keçirmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının iştirakı ilə keçirilən qəbulda Baş prokuror 14 vətəndaşın şikayətlərini dinləyərək müraciətlərində qaldırdıqları məsələləri xüsusi nəzarətə götürməklə, həmin müraciətlər üzrə qəbul olunmuş qərarların qanuniliyinin yoxlanılması, bu məqsədlə yoxlama materialları və cinayət işlərinin Baş Prokurorluqda öyrənilməsi, habelə bəzi şikayətlərin müraciət müəlliflərinin iştirakı ilə müzakirə edilərək qanunauyğun və operativ şəkildə həlli üçün müvafiq struktur qurumların rəhbərlərinə və tabe rayon prokurorlarına konkret göstərişlər vermişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılır

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və hər bir vətəndaşın hüquqları geniş təsbit edilmiş Azərbaycan Konstitusiyasının əsas müddəalarından biri də vətəndaşlara dövlət orqanlarına şəxsən müraciət etmək hüququnun verilməsidir. Ulu öndərin 1997-ci ildə imzaladığı «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənən bu hüququn təmin edilməsi bütün dövlət qurumlarının, o cümlədən orqanlarının ən ümdə vəzifələrindən biridir.

Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələrinin qarşılıqlı etimad prinsipi əsasında qurulması, bu orqana edilən müraciətlərin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi, bütövlükdə isə Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində nəzərdə tutulmuş vətəndaşların müraciət etmək hüququnun yüksək səviyyədə təmin edilməsi son illərin uğurlu fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. «Vətəndaşların müəyyən olunmuş qrafikə uyğun qəbulu, onların müraciətlərinə, ərizə və şikayətlərinə vaxtında baxılması və haqlı tələblərinin həllinin təmin edilməsinin bütün dövlət qulluqçularının əsas vəzifələrindən biri olduğu»nu müəyyənləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Fərmanına müvafiq olaraq vətəndaşların müraciətlərinə qanuni baxılması və onların prokurorluq orqanlarında qəbulu işinin düzgün təşkili qarşımızda duran vacib vəzifələrdəndir.

Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının və tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşları tərəfindən vətəndaşların yerlərdə qəbulunu həyata keçirərək onların bütün müraciətlərinə həssaslıqla yanaşılmış və hər bir müraciətin qanuni həllinə nail olmağa çalışılmışdır. Bu gün hər bir vətəndaş əmin ola bilər ki, respublikamızdakı ictimai-siyasi sabitlik hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun əzmkar fəaliyyəti nəticəsində ciddi şəkildə qorunur. Prokurorluq orqanları vətəndaşların hüquq və azadlıqlarının pozulması hallarına, cinayətkarlığa qarşı daim barışmaz və qətiyyətli mövqe tutur, ümumiyyətlə, insan amili ilə bağlı olan hər bir məsələdə həssaslıq göstərməyə, üzərinə düşən bütün vəzifələri əzmlə gerçəkləşdirməyə çalışır. Prokurorluq orqanlarının fəaliyyəti həmişə cəmiyyətin diqqət mərkəzindədir. Prokurorluğun fəaliyyəti ilk növbədə dövlətçiliyin, haqqın və ədalətin, qayda-qanunun, sabitliyin, asayişin təcəssümüdür, insanlar bu orqanlara inanır və etibar edir. Çünki dövlət rəhbərinin dəfələrlə qeyd etdiyi kimi, ölkədə sabitlik, qayda-qanun olmasa, heç bir inkişafdan söhbət gedə bilməz.

Naxçıvan Muxtar Respublikasında vətəndaşların müraciətlərinin həllinin yüksək səviyyədə təmin edilməsi üçün Azərbaycan Respublikası Baş prokurorunun 14.05.2011-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsi yaradılmışdır. Muxtar Respublika Prokurorluğunda və tabe rayon (şəhər) prokurorluqlarda bu sahə həmişə diqqət mərkəzində saxlanılır. Həm bu sahə üzrə müvafiq qanunvericilik aktlarının və Baş Prokurorluq üzrə müvafiq əmrin tələblərinə ciddi əməl edilməkdədir. Prokurorluq oraqnlarında müvafiq olaraq müraciətlərə dair xüsusi lövhələr yaradılmış, prokurorluqların inzibati binalarının qarşısında ərizə və müraciətlər üçün qutular yerləşdırılmışdır.

Vətəndaşların müraciətlərinə baxılması işinin keyfiyyətinin yaxşılaşdırılmasında son illərdə prokurolruq orqanlarında tətbiq edilən yeniliklər, idarəetmənin müasir forma və metodları böyük rol oynamışdır. Müasir texnologiyalar və innovasiyalar vətəndaşla daha yaxşı ünsiyyət qurmaq üçün geniş imkanlar açır. Muxtar Respublika Prokurorluğunda həmçinin vətəndaşların müraciətlərinin həlli istiqamətində həyata keçirilən əsas tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun veb-saytnın yaradılmasıdır ki, hər bir vətəndaş istənilən yerdən öz müraciətini tez bir zamanda Muxtar Respublika Prokurorluğuna çatdıra bilər. Muxtar Respublika Prokurorluğunun «www. prokurorluq. nakhchivan.az» elektron ünvanına daxil olan hər bir şəxs «Naxçıvan Muxtar Respublikası Prokurorluğuna məktub yazmaq Qaydaları» ilə tanış ola bilər. Vətəndaşlar Naxçıvan Muxtar Respublikası Prokurorluğunun ünvanına elektron formada müraciət göndərməzdən əvvəl aşağıdakı Qaydalarla tanış olmalıdırlar: Naxçıvan Muxtar Respublikası Prokurorluğunun rəsmi internet səhifəsi vasitəsi ilə elektron formada göndərilmiş müraciətlər Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinə daxil olur və «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikasının 1997-ci il 10 iyun tarixli 314-IQ nömrəli Qanununa, habelə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları»na uyğun olaraq qeydiyyata alınır və baxılır. Mətni yazmazdan əvvəl nəzərdə tutulmuş formanın düzgün cavablandırılması vacibdir. Mətn mütləq yazıldığı dilin əlifbası ilə tərtib olunmalıdır, bütövlükdə böyük və ya kiçik hərflərlə yazılmamalı, cümlələrə bölünməli, durğu işarələrindən istifadə qaydalarına riayət edilməlidir. Müraciət aydın və səlis cümlələrlə yazılmalıdır. Müraciət edərkən etika qaydaları gözlənilməlidir. Nəzakətsiz ifadələr işlədildikdə və ya müəllif özü barədə məlumatları dəqiq göstərmədikdə müraciətə cavab verilmir. Hörmətli internet səhifəsi istifadəçiləri! Böyük informasiya axınının işlənməsi xüsusiyyətlərini nəzərə alaraq, xahiş edirik bəzi məhdudiyyətlərə hörmətlə yanaşasınız:-Bir mənbədən elektron məlumatın göndərilməsinin vaxtı serverin yüklənməsindən asılı olaraq 1-5 dəqiqə ilə məhdudlaşır; elektron müraciətin mətni 1500 işarədən çox olmamalı, və elektron müraciətdə qoşma fayllar olmamalıdır. Mətni uzun olan məktublar, sənəd surətləri, fotoşəkillər və yol verilən digər əlavələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun «www.prokurorluq.nakhchivan.az» elektron ünvanına və ya adi poçt (Naxçıvan şəhəri, AZ 7000, Atatürk küçəsi, 22) vasitəsi ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğu ünvanına göndərilə bilər.

Muxtar Respublikanın Prokurorluq orqanları tərəfindən vətəndaşların müraciətlərinə xüsusi qayğı və diqqətlə yanaşılır, onların problemlərinin yerində öyrənilib həll edilməsi üçün təsirli tədbirlər görülərək, prokurorluq əməkdaşlarının əhali ilə birbaşa təmasda olma halları artırılmışdır. Vətəndaşların müraciətlərinə baxılmasında əsas prinsip onlarda qaldırılmış problemlərin yaranma səbəblərinin, bu sahədə nəzərə çarpan nöqsanların dərhal aradan qaldırılması, aşkarlığın və obyektivliyin, ən başlıcası isə insana qayğının təmin edilməsidir. Azərbaycan Respublikası Baş prokurorunun 14.05.2011-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsi yaradıldığı vatxdan statistikaya nəzər saldıqda görərik ki, Muxtar Respublikanın Prokurorluq orqanlarına edilən müraciətlərin sayı ildən ilə azalmışdır.

2011-ci ildə Muxtar Respublikanın Prokurorluq orqanlarına vətəndaşlardan 37 müraciət daxil olmuşdur ki, onların 13-ü prokurorluq orqanlarında həll edilmiş, 24-ü digər təşkilatlara baxılmaq üçün göndərilmişdir. Həll edilən müraciətin 6-ı təmin edilmiş, 7-i üzrə isə digər qərarlar qəbul edilmişdir. Həll edilən müraciətin 6-ı vətəndaşların

konstitusiya hüquqlarına riayət edilməsi haqqında, 7-i isə digər məsələlərə dair olmuşdur. Muxtar Respublikanın prokurorluq orqanlarında 370 nəfər, o cümlədən yaşayış yerlərində 120 nəfər qəbul edilmiş, hər bir vətəndaş fərdi qaydada dinlənilərək onların müraciətlərinə qanuni izahlar verilmiş və müvafiq tədbirlər görülmüşdür.

2012-ci ildə Muxtar Respublikanın prokurorluq orqanlarına vətəndaşlardan 29 müraciət daxil olmuşdur ki, onların 7-i prokurorluq orqanlarında həll edilmiş, 11-i cinayət içinə və ya nəzarət icraatına əlavə ediliş, 11-i isə digər təşkilatlara baxılmaq üçün göndərilmişdir. Həll edilən müraciətin 3-ü vətəndaşların konstitusiya hüquqlarına riayət edilməsi haqqında, 1-i torpaq qanunvericiliyi, 3-ü isə digər məsələlərə dair olmuşdur. Muxtar Respublikanın prokurorluq orqanlarında 345 nəfər, o cümlədən yaşayış yerlərində 139 nəfər qəbul edilmiş, hər bir vətəndaş fərdi qaydada dinlənilmiş, müraciətlərə qanuni izahlar verilərək müvafiq tədbirlər görülmüşdür.

2013-cü ildə Muxtar Respublikanın Prokurorluq orqanlarına vətəndaşlardan 23 müraciət daxil olmuşdur ki, onların 7-i prokurorluq orqanlarında həll edilmiş, 16-ı digər təşkilatlara baxılmaq üçün göndərilmişdir. Həll edilən müraciətin 3-ü vətəndaşların konstitusiya hüquqlarına riayət edilməsi haqqında, 4-ü isə digər məsələlərə aid olmuşdur. Muxtar Respublikanın Prokurorluq orqanlarında 352 nəfər, o cümlədən yaşayış yerlərində 104 nəfər qəbul edilmiş, hər bir vətəndaş fərdi qaydada dinlənilmiş, müraciətlərə qanuni izahlar verilmiş və müvafiq tədbirlər görülmüşdür.

2014-cü ilin birinci yarımilində isə Muxtar Respublikanın Prokurorluq orqanlarına vətəndaşlardan 9 ərizə, şikayət və digər müraciət daxil olmuş, onlardan 3-ü prokurorluqda həll edilmiş, 4-ü digər təşkilatlara baxılmaq üçün göndərilmiş, 2-i isə cinayət işinə və nəzarət icraatına əlavə edilmişdir. Həll edilən müraciətin 2-i vətəndaşların konstitusiya hüquqlarına riayət edilməsi haqqında, 1-i isə digər məsələlərə aid olmuşdur. Naxçıvan Muxtar Respublikası prokurorluğunun elektron poçt ünvanına daxil olmuş müraciət üzrə vətəndaşa izah verilmiş, Muxtar Respublikanın Prokurorluq orqanlarında 174 nəfər, o cümlədən yaşayış yerlərində 62 nəfər qəbul edilmiş, müraciətlərlə bağlı qanuni tədbirlər görülmüşdür. Müraciətlərin həlli zamanı müddət və qanun pozuntularına yol verilməmiş, həlli prokurorluq orqanlarına aid olmayan müraciətlərə prokurorluq orqanlarında baxılması halları olmamışdır.

Statistikadan da göründüyü kimi Muxtar Respublikanın Prokurorluq orqanlarına daxil olan müraciətlər azalmışdır. Belə ki, müraciətlərin sayı 2011-ci ildə 2010-cu illə müqayisədə 12%, 2012-ci ildə əvvəlki illə müqayisədə 21,6%, 2013-cü ildə 2012-ci illə müqayisədə 20,6% azalmış, 2014-cü ilin birinci yarımili ərzində isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sabit qalmışdır.

Dövlət başçısı cənab İlham Əliyevin: «Azərbaycanda dövlət insanların maraqlarının keşiyindədir. ...Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır.» – fikirləri vətəndaşların müraciətlərinə qanuni baxılması və onların prokurorluq orqanlarında qəbulu işinin düzgün təşkilini vacib vəzifə kimi qarşıya qoyulmuşdur. Muxtar Respublikanın Prokurorluq orqanları bundan sonra da «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» 10 iyun1997-ci il tarixli Azərbaycan Respublikası Qanununun və «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» Azərbaycan Respublikası Baş prokurorunun 1 noyabr 2010-cu il tarixli 10/100 №-li əmrinin tələblərinə dönmədən əməl edərək hər bir vətəndaşın müraciətinə həssaslıqla yanaşacaqlar.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

# Cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) bəzi məsələlərinə aydınlıq gətirilməlidir

**Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə «Cinayət prosesində ekstradisiya, insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri» ixtisasartırma kursunun təşkili haqqında» 15.10.2014-cü il tarixli, 10/78 nömrəli əmrə əsasən 2014-cü ilin oktyabr ayının 27-dən 31-nə kimi Elm-Tədris Mərkəzində bu mövzuda kurs keçirilmişdir. Kursa dinləyici kimi prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin test üsulu ilə yoxlanılması zamanı ekstradisiya ilə bağlı suallara daha çox səhv cavab vermiş 21 əməkdaş dəvət edilmişdi. Məşğələləri Mərkəzin prokurorları ilə yanaşı Baş Prokurorluğun Beynəlxalq Əlaqələr idarəsinin əməkdaşları keçirirdilər. Kursa hazırlıq çərçivəsində Elm-Tədris Mərkəzində bu sahədəki məhkəmə-istintaq və prokuror nəzarəti təcrübəsinə dair materiallar öyrənilmiş, kursun yekunu üzrə imtahanda dinləyicilərə ayrı-ayrı prosessual sənədləri təhlil edərək dəyərləndirmək təklif olunmuşdu. Bu tədbir, həmçinin cinayət törətmiş şəxslərin verilməsi təcrübəsinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməyə imkan verdi.**

## Cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) hüquqi əsasları barədə

İstənilən prosessual-hüquqi fəaliyyət kimi dövlət orqanlarının cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) də təməlində ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyası durur. Konstitusiyanın 53-cü maddəsində (Maddə 53. Vətəndaşlıq hüququnun təminatı) vurğulanmışdır ki, «Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz». Bu norma «vətəndaşlıq hüququ»nun tərkib elementidir və xarici ölkələrin ərazisində cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşlarının həmin dövlətlərə cinayət təqibi həyata keçirilməsi üçün verilməməsini nəzərdə tutur.

Azərbaycan beynəlxalq hüququn subyekti olan dövlətlər birliyinin üzvüdür və öz vətəndaşını cinayət təqibi məqsədi ilə xarici dövlətə verməmək hüququnu təsbit etməsi onun cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq öhdəliklərinin müvafiq qismini yerinə yetirməkdən imtina etməsi kimi dəyərləndirilməməlidir. Əksinə, Azərbaycan cinayətkarlığa qarşı mübarizə ilə bağlı olan beynəlxalq müqavilələrə qoşulmuş və onlardan irəli gələn öhdəlikləri icra edir. Konstitusiyaya əsasən, «Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur» (Maddə 10. Beynəlxalq münasibətlərin prinsipləri); «insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir» (Maddə 12. Dövlətin ali məqsədi); «beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir» (Maddə 148. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar); Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir (Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi).

Milli cinayət və cinayət-prosessual qanunvericilik müəyyən etmişdir ki, xarici ölkədə cinayət törətmiş, axtarış nəticəsində Azərbaycanda tapılıb tutulmuş Azərbaycan Respublikasının vətəndaşının barəsində cinayət təqibi həyata keçirilir, lakin bunun üçün ilk öncə həmin ölkənin müraciəti olmalı və bu müraciətə cinayət işi əlavə edilməlidir.

Əgər xarici ölkə ərazisində cinayət törətdiyinə görə beynəlxalq axtarışda olmuş və Azərbaycan Respublikasının ərazisində tutulmuş şəxs digər ölkənin vətəndaşıdırsa, belə şəxs bir qayda olaraq (bu dövlətin Azərbaycanla müvafiq müqaviləsi vardırsa və ekstradisiya qanunla müəyyən edilmiş maddi-hüquqi şərtlərə cavab verirsə) sorğu edən dövlətə verilir.

Azərbaycan dövlətinin cinayət törətmiş şəxslərin verilməsi öhdəliyi bir sıra beynəlxalq müqavilələrlə təsbit edilmişdir. Onların arasında ən əhəmiyyətliləri və tez-tez tətbiq olunanları Müstəqil Dövlətlər Birliyinin «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında» 22 yanvar 1993-cü il tarixli Minsk Konvensiyası, eyni adlı, 7 yanvar 2002-ci il tarixli Kişinyov Konvensiyasıdır. MDB üzvü olmayan Avropa ölkələri ilə ekstradisiya münasibətləri 13.12.1957-ci il tarixli «Ekstradisiya haqqında» Avropa Konvensiyası ilə tənzimlənir. Korrupsiya cinayətləri üzrə 1999-cu il yanvarın 27-də Strasburq şəhərində qəbul olunmuş «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Avropa Konvensiyasına (Maddə 27. Ekstradisiya), insan alveri cinayətləri üzrə «İnsan alverinə qarşı mübarizə haqqında» 16.05.2005-ci il tarixli Avropa Konvensiyasına (Maddə 31. Yurisdiksiya) istinad etmək mümkündür. Digər dövlətlərlə belə məsələlərin həlli zamanı BMT Baş Assambleyasının 15 noyabr 2000-ci il tarixli 55/25 nömrəli qətnaməsi ilə qəbul edilmiş «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı», 31 oktyabr 2003-cü il tarixli 58/4 nömrəli «Korrupsiyaya qarşı» BMT konvensiyalarına istinad etmək olar.

Cinayət törətmiş şəxslərin verilməsi üzrə milli qanunvericilik Cinayət, Cinayət-Prosessual məcəllələrinin müvafiq normalarından, «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» 15 may 2001-ci il tarixli Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

Bəs Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərin Azərbaycanın dövlət orqanları tərəfindən qanunsuz ekstradisiya olunmamaq hüququ müdafiə edilirmi? Cavab birmənalıdır: müdafiə edilir. Bu müdafiənin maddi və prosessual hüquqi əsasları «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının və Azərbaycanın qoşulduğu digər müvafiq beynəlxalq müqavilələrdə təsbit edilmişdir. Belə müdafiənin Azərbaycan Respublikası vətəndaşının ekstradisiya olunmamaq hüququnun müdafiəsindən fərqi yuridik faktların fərqindən irəli gəlir. Sonuncu halda şəxsin Azərbaycan Respublikasının vətəndaşı olması faktı hüququn müdafiəsi üçün kafi əsasdır. Birinci halda isə yuridik fakt qismində şəxsin ekstradisiya edilməməsi üçün onun veriləcəyi ölkədə işgəncəyə məruz qalacağı ehtimalı və ya onun xüsusi statusu (məsələn, qaçqın statusu) çıxış edir. Belə hallarda «ekstradisiya olunmamaq» hüququ digər hüquqların, məsələn, «yaşamaq», «işgəncəyə məruz qalmamaq», «ədalətli məhkəmə araşdırması» kimi fundamental hüquqların («İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının 2, 3, 6-cı maddələri) müdafiəsi formasında təzahür edir.

### Hüquq normalarının tətbiqi çətinlikləri: məlumatsızlıq

Təcrübədə cinayət törətmiş şəxslərin verilməsi bir çox çətinliklərlə müşayiət edilir. Onların bir qismini obyektiv xarakterli adlandırmaq mümkündür, çünki bu çətinliklər normativ-hüquqi bazanı təşkil edən mənbələrdə mövcud olan qeyri-müəyyənliklər, ziddiyyətlərlə bağlıdırlar. Bəzi normativ müddəalar barədə məlumatsızlığı da bu sıraya aid etmək olar, lakin internet dövründə bu daha çox subyektiv çalarlara malik səbəbə bənzəyir.

Yuxarıda qeyd edildiyi kimi, MDB üzv dövlətləri arasında ekstradisiya məsələləri eyni adda olan Minsk və ya Kişinyov konvensiyaları ilə tənzimlənir. Kişinyov Konvensiyasının 120-ci maddəsinin (Maddə 120. Qüvvəyə minmə) 3-cü bəndində təsbit edilmişdir ki, «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiya və ona əlavə edilmiş 1997-ci il 28 mart tarixli Protokol bu Konvensiyanın iştirakçısı olan dövlətləri arasında öz qüvvəsini itirir».

Azərbaycan hər iki konvensiyaya qoşulmuşdur – Minsk Konvensiyasına Azərbaycan Respublikası Milli Məclisinin «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin «Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında» Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə» 1 sentyabr 1995-ci il tarixli qərarı, Kişinyov Konvensiyasına «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Konvensiyanın təsdiq edilməsi barədə» 13 yanvar 2004-cü il tarixli Qanunla. Lakin bəzi

ölkələr Kişinyov Konvensiyasına qoşulmamışlar və buna görə də onlarla münasibətlər Minsk Konvensiyasına əsasən həll edilir. Ona görə də konkret hallarda işçi bilməlidir ki, ekstradisiya sorğusu göndərən dövlət Kişinyov Konvensiyasına qoşulmuşdur, ya qoşulmamışdır, qoşulmamışdırsa, məsələ Minsk Konvensiyasına əsasən həll edilir, qoşulmuşdursa, məsələ mütləq Kişinyov Konvensiyasına əsasən həll olunur, əks təqdirdə, qəbul edilmiş qərarlar qanunsuz olacaqlar. Dövlətlərin qoşulma tarixi də əhəmiyyət kəsb edə bilər, ona görə bu məlumatı da bilmək vacibdir.

Təəssüflə qeyd edilməlidir ki, MDB iştirakçısı olan dövlətlərin hansılarının hələ də Kişinyov Konvensiyasına qoşulmaması barədə məlumatlar Azərbaycanın müvafiq dövlət orqanlarının rəsmi internet səhifələrinə yerləşdirilməmişdir. Onların dinamikliyini də nəzərə alsaq, bu edilməli və daima yenilənməlidir.

2014-cü ilin oktyabr ayının 17-nə olan vəziyyətə görə Minsk Konvensiyası Belarus, Özbəkistan, Qazaxıstan üçün 19 may 1994-cü il tarixdə, Rusiya Federasiyası üçün 10 dekabr 1994-cü il tarixdə, Tacikistan üçün 20 dekabr 1994-cü il tarixdə, Ermənistan üçün 21 dekabr 1994-cü il tarixdə, Ukrayna üçün 14 aprel 1995-ci il tarixdə, Qırğızıstan üçün 17 fevral 1996-cı il tarixdə, Moldova üçün 26 mart 1996-cı il tarixdə, Azərbaycan və Gürcüstan üçün 11 iyul 1996-cı il tarixdə (MDB üzv dövlətlərinin 09.10.2009-cu il tarixli qərarına əsasən Gürcüstan Konvensiyada iştirakını davam etdirir), Türkmənistan üçün 19 fevral 1998-ci il tarixdə qüvvəyə minmişdir.

Kişinyov Konvensiyası isə Belarus, Azərbaycan və Qazaxıstan üçün 27 aprel 2004-cü il tarixdən, Qırğızıstan üçün 1 oktyabr 2004-cü il tarixdən, Ermənistan üçün 19 fevral 2005-ci il tarixdən, Tacikistan üçün 17 may 2005-ci il tarixdən qüvvəyə minmişdir.

Deməli, Azərbaycan Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistanla ekstradisiya məsələlərini Kişinyov Konvensiyasına, qalan MDB dövlətləri ilə isə – Minsk Konvensiyasına əsasən həll edir. Ermənistanla bu sahədə münasibətlər məlum səbəblərə görə mümkün deyildir.

Minsk və Kişinyov konvensiyalarının ekstradisiya məsələlərinə həsr edilmiş müddəaları arasında fərqli, bir sıra hallarda əhəmiyyətli fərqlər mövcuddur. Ona görə də, qanunçuluğu təmin etmək və eyni zamanda bu prosesə cəlb olunmuş insanların hüquqlarını təmin etmək üçün ekstradisiya yoxlamaları zamanı tətbiq edilməli olan konvensiyanın seçimində diqqətli olmaq lazımdır.

## Hüquq normalarının tətbiqi çətinlikləri: dil problemləri

Minsk və Kişinyov konvensiyalarının tətbiqində dil məsələləri əhəmiyyətlidir. Minsk Konvensiyasının 17-ci maddəsində (Maddə 17. Dil) göstərilmişdir ki, bu Konvensiyanı icra edərkən bir-biri ilə münasibətdə Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri Razılığa gələn Tərəflərin və ya rus dilindən istifadə edirlər. Birinci halda sənədlərə onların rus dilinə tərcümə olunaraq təsdiq edilmiş surətləri əlavə edilir.

Kişinyov Konvensiyasının 124-cü maddəsində (Maddə 124. Depozitarinin funksiyaları) qeyd edilmişdir ki, Konvensiyanın əsli bir nüsxədə rus dilində tərtib edilmişdir; bu nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır, sonuncu da öz növbəsində bu Konvensiyanı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərir. Bu surətlər də rus dilində olur.

Lakin MDB üzv dövlətlərində cinayət mühakimə icraatı, o cümlədən ekstradisiya prosedurları milli dillərdə aparılır və bu istər-istəməz konvensiya normalarının autentikliyi məsələlərini ortaya çıxarır, bir sıra hallarda çətinliklər yaradır. Məsələn, 2002-ci il oktyabrın 7-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən xüsusi rəy ilə imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2004-cü il tarixdə imzaladığı 581-IIQ nömrəli Qanunla təsdiq edilmiş «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Konvensiyanın (Kişinyov Konvensiyası) 73-cü maddəsinin Azərbaycan və rus dillərində olan mətnləri arasında fərq təcrübəyə təsir edir. Bu maddə verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddətinin uzadılması qaydasını müəyyənləşdirir. Maddənin Azərbaycan dilində olan mətni belədir: «Maddə 73. Verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddəti. Bu

Konvensiyada müəyyən edilmiş müddətdə şəxsin verilməsinə mane olan halların baş verdiyi təqdirdə, icraatında cinayət işi olan sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi öz daxili qanunvericiliyinə uyğun olaraq verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddətinin uzadılması məsələsini həll edir və bu haqda qərarın lazımi qaydada təsdiq edilmiş surətini sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə göndərir.». Göründüyü kimi, bu normaya əsasən verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddətinin uzadılması məsələsini «sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi» həll edir. Maddənin rus dilində olan mətni isə belədir: *«Статья 73. Продление срока содержания под стражей лица, подлежащего выдаче. В случае возникновения обстоятельств, препятствующих выдаче лица в установленные настоящей Конвенцией сроки, компетентное учреждение юстиции запрашивающей Договаривающейся Стороны, в производстве которого находится уголовное дело, решает в соответствии с внутренним законодательством вопрос о продлении срока содержания выдаваемого лица под стражей и направляет учреждению юстиции запрашиваемой Договаривающейся Стороны удостоверенную надлежащим образом копию решения об этом».* Bu mətnə görə isə, qeyd edilən məsələni tamamilə başqa subyekt, əks tərəfin orqanı – *«sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi»* (компетентное учреждение юстиции запрашивающей Договаривающейся Стороны) həll edir.

Qeyd edilməlidir ki, «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» 13 iyun 1995-ci il tarixli 1057 nömrəli Qanunun 11-ci maddəsi (Maddə 11. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin ratifikasiyası haqqında qanunların qəbul edilməsi) ratifikasiya üçün təqdim edilmiş beynəlxalq müqavilələrin dövlət dilində tərtib olunması, rəsmi mətnləri dövlət dilində olmadıqda beynəlxalq müqavilələrin dövlət dilinə tərcümə edilməsi və tərcümə edilmiş mətnin rəsmi mətnə uyğunluğunu təsdiq edən sənədin əlavə olunması qaydasını müəyyənləşdirmişdir. Bu onu təsdiq edir ki, Kişinyov Konvensiyasının açıq mənbələrdə yerləşdirilmiş Azərbaycan dilində olan mətni müvafiq prosedura-lardan keçmişdir və onu etibarlı mənbə hesab etmək olar.

Göstərilən uyğunsuzluğun təcrübəyə əhəmiyyətli təsiri vardır. Məsələn, respublikanın rayon məhkəmələrinin birinin «təqsirləndirilən şəxsin ekstradisiya edilməsi üçün tutulması müddətinin uzadılması haqqında» qərarı ilə həbsə alınmış Qazaxıstan Respublikasının vətəndaşının həbsdə saxlanılması müddəti daha 30 gün müddətə uzadılarkən Kişinyov Konvensiyasının 73-cü maddəsinin Azərbaycan dilində olan mətni əsas götürülmüşdür. Konvensiyanın rus dilində mətninə əsasən, bu qərarı Qazaxıstan Respublikasının məhkəməsi çıxarmalı idi. Azərbaycanın rayon məhkəməsinin belə qərar çıxarmağa səlahiyyəti olmamışdır. Bu məhkəmə yalnız Qazaxıstan məhkəməsinin qərarını təsdiq edə, dəyişdirə və ya ləğv edə bilərdi. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 495.2-ci maddəsində (Maddə 495. Verilməsi üçün şəxsin həbsə alınması) dəqiqləşdirilmişdir ki, «Bu Məcəllənin 495.1-ci maddəsinin müddəasına uyğun olaraq həbsə alınmış şəxs barəsində seçilmiş qətimkan tədbirinin təsdiq edilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi üçün hakimə müraciət etmək hüququna malikdir». Göründüyü kimi, qeyd edilən qərar kontekstində Azərbaycan məhkəməsini «qanuni məhkəmə» hesab etmək çətindir. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının 5-ci maddəsinin 1-ci bəndinin «f» yarımbəndinə (Maddə 5. Azadlıq və toxunulmazlıq hüququ) əsasən, «1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa, azadlıqdan məhrum edilə bilməz: ((...) f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması». Həbsin «qanuni» sayılması üçün bu tədbiri qanunvericilikdə nəzərdə tutulmuş məhkəmə qanunda nəzərdə tutulmuş qaydada tətbiq etməlidir.

Fikrimizcə, Kişinyov Konvensiyasının bu müddəasının tətbiqi zamanı rus dilində olan mət-

ninə üstünlük verilməlidir, çünki Konvensiyanın əsli bu dildə tərtib edilmişdir; dövlətlərin orqanları arasında ekstradisiya ilə bağlı münasibətlər bu dildə aparılır; onun məzmunu milli qanunvericiliyin müvafiq proseduralarına (qətimkan tədbirinin sorğu edən tərəfin məhkəməsi tərəfindən seçilməsi, Azərbaycan Respublikasının məhkəməsinin isə bu tədbiri yalnız təsdiq etməsi qaydasına) uyğundur. Bununla bağlı bir nüansa da diqqət yetirmək gərəkdir. Rus dilində olan mətnin daha düzgün olmasını normanın bir ifadəsi – *«icraatında cinayət işi olan» (в производстве которого находится уголовное дело)* ifadəsi sübut edir. Mübahisəsizdir ki, ekstradisiyaya dair sorğu alan tərəfin icraatında eyni zamanda cinayət işi ola bilməz, deməli icraatında cinayət işi olan tərəf «sorğu edən Razılığa gələn Tərəf»dir.

Ona görə də, Kişinyov Konvensiyasının 73-cü maddəsinin tətbiqinə ehtiyac yarandıqda prokurorlar sorğu edən tərəfin ədliyyə müəssisəsi qarşısında vaxtında müvafiq məsələ qaldırmalı, onun müsbət həll edildiyi təqdirdə prosessual qərarın gəlməsini gözləməli, bu qərarı aldıqdan sonra onun təsdiq edilməsi barədə milli məhkəməyə vəsatətlə müraciət etməlidirlər. Vəsatətlərdə heç bir vaxt həbs qətimkan tədbirinin seçilməsi, onun müddətinin uzadılması məsələləri qoyulmamalıdır. Belə vəsatətlər məhkəmələr tərəfindən baxılmamalı, səbəbi göstərilməklə geri qaytarılmalıdır.

Eyni ilə Azərbaycan Respublikasının ərazisində cinayət törədib istintaqdan gizləndiyinə görə beynəlxalq axtarışa verilmiş və MDB ölkələrindən birinin ərazisində tutulmuş şəxslərin Azərbaycana ekstradisiya edilməsi zamanı da bu məsələyə diqqət yetirilməli, konvensiya normalarının dürüst tətbiq edilmələri, eləcə də ekstradisiya məqsədləri üçün tutulmuş şəxslərin azadlıq və toxunulmazlıq hüququnun təmin edilməsi üçün müvafiq xidməti və prosessual addımlar atılmalıdır.

Yeri gəlmişkən, Minsk Konvensiyasında ekstradisiya məqsədi ilə həbsə alınmış şəxsin həbsdə saxlanma müddətinin uzadılması, ümumiyyətlə nəzərdə tutulmamışdır. Konvensiyanın 62-ci maddəsində müəyyən edilmişdir ki, sorğu alan tərəf verilməyə dair sorğunu və ona əlavə olunan sənədləri 40 gün ərzində almadıqda şəxs həbsdən azad edilir. Lakin bu o demək deyildir ki, bu şəxsi sonra tutmaq və ya həbsə almaq mümkün deyil. O, verilmə barədə sorğu alındıqdan sonra yenidən tutula və ya həbsə alına bilər (Konvensiyanın 67-1-ci maddəsi). Minsk Konvensiyasının bu normaları, eləcə də bütövlükdə onun mətnində həbs müddətinin uzadılması prosessual institutunun nəzərdə tutulmaması onu deməyə əsas verir ki, bu Konvensiyaya əsasən, verilən şəxslərin (eləcə də verilməsi Azərbaycan tərəfindən sorğu edilən şəxslərin) həbs müddətinin son həddi - 40 gündür və bu müddət uzadılmır; həmin müddət başa çatan kimi şəxs həbsdən azad edilir, onun həbsdə saxlanması müddətinin uzadılması barədə prokuror tərəfindən vəsatət qaldırılmır, məhkəmələr belə vəsatətlərə baxmır; sorğu daxil olandan sonra zərurət yarandıqda o, yenidən, təkrarən həbs edilir.

### Hüquq normalarının tətbiqi çətinlikləri: ekstradisiya haqqında qərar

«Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Qanunun 8-ci maddəsində (Maddə 8. Şəxsin verilməsi haqqında sorğuya baxılması) göstərilmişdir ki, «Ağır cinayətlər məhkəməsi xarici dövlətin sorğusu əsasında şəxsin verilməsi məsələsinə baxır və bu barədə müvafiq əsaslandırılmış qərar qəbul edir»; «Ağır cinayətlər məhkəməsinin şəxsin verilməsi haqqında qərarından Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şikayət və ya protest verilə bilər». Nə bu Qanunda, nə də Azərbaycan Respublikası Prezidentinin «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 11 iyun 2001-ci il tarixli Fərmanında prokurorun (Azərbaycan Respublikasının prokurorluq orqanlarının vəzifəli şəxslərinin) hər hansı bir səlahiyyəti təsbit edilməmişdir.

«Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya»sı üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2005-ci il tarixli sərəncamında göstərilmişdir ki, «2002-ci il oktyabrın 7-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Bir-

liyinin Dövlət Başçıları Şurasının iclasında imzalanmış «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya»nın Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi məqsədilə səlahiyyətli orqanlar – mülki və ailə işləri üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, cinayət işləri üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu müəyyən edilsinlər». Bu səlahiyyətin məzmunu Kişinyov Konvensiyasının mətnində təsbit edilmişdir. Belə ki, Konvensiyanın 5-ci maddəsində (Maddə 5. Ünsiyyət qaydası) müəyyənləşdirilmişdir ki, «Prokurorun (məhkəmənin) sanksiyasını tələb edən prosessual hərəkətlərin və axtarış tədbirlərinin keçirilməsi haqqında tapşırıqların icra edilməsi məsələləri üzrə əlaqələr prokurorluq orqanları vasitəsilə həyata keçirilir»; 88-ci maddəsində (Maddə 88. Verilmə məsələləri üzrə əlaqələr) dəqiqləşdirilmişdir ki, «verilmə məsələləri üzrə əlaqələrin saxlanılması, əgər Razılığa gələn Tərəflərin daxili qanunvericiliyində digər qayda nəzərdə tutulmayıbsa, onların baş prokurorları (prokurorları) tərəfindən həyata keçirilir». Təcrübədə bu normalar cinayət törətmiş şəxsin verilməsi (ekstradisiyası) barədə qərarın çıxarılması səlahiyyətinin Azərbaycan Respublikasının Baş prokuroruna verilməsi kimi başa düşülərək tətbiq olunur.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 496.1-ci maddəsində (Maddə 496. Şəxsin verilməsi haqqında məsələnin həll edilməsi) deyilir: «Azərbaycan Respublikasının ərazisində olan şəxs onun cinayət məsuliyyətinə cəlb edilməsi (...) zəruriliyi nəzərə alınmaqla Azərbaycan Respublikasının cinayət təqibi orqanı tərəfindən xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının həmin şəxsin verilməsi xahişi ilə rəsmi müraciəti əsasında verilir». Azərbaycanın qanunvericiliyinə əsasən, «cinayət təqibi orqanı» rolunda ağır cinayətlər məhkəmələri çıxış edə bilməzlər. Prokurorluq isə, əksinə, cinayət təqibi orqanıdır.

Qanunvericinin hər hansı bir konkret məsələ üzrə iradəsi qanunlarda ardıcıl ifadə olunması aksiomadır. Bu baxımdan, əgər Kişinyov Konvensiyası üzrə cinayət törətmiş şəxslərin verilməsi səlahiyyəti xüsusi hal kimi Azərbaycan Respublikasının Baş prokuroruna aid edilirsə, bu, «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Azərbaycan Respublikası Qanununda (və ya Azərbaycan Respublikası Prezidentinin «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 11 iyun 2001-ci il tarixli Fərmanında təsbit oluna bilər. Və ya əksinə, qeyd edilən səlahiyyət Baş prokurora deyil, ağır cinayətlər məhkəmələrinə mənsubdursa, bu daha sadə yolla – Ali Məhkəmə Plenumunun qərarı formasında izahla təsdiq edilə bilər. Yeri gəlmişkən, bu uyğunsuzluq İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin də diqqətindən kənarda qalmamışdır. «Qarayev Azərbaycana qarşı» iş üzrə (Ərizə № 53688/08)10 iyun 2010-cu il tarixli qərarın 83-cü paraqrafında bu vəziyyət «ekstradisiya qərarının çıxarılması proseduru sahəsində Azərbaycanın daxili qanunvericiliyi və Azərbaycanın hüquq-mühafizə orqanlarının praktikası aydın deyil» kimi qiymətləndirilmişdir.

«Vətəndaşlıq hüququ»nun müdafiəsi maraqları baxımından ekstradisiyanın məhkəmə proseduralı olması daha məqsədəmüvafiqdir. Lakin bu o demək deyildir ki, ekstradisiya qərarının Baş prokuror tərəfindən qəbul edilməsi qaydası tətbiq edildiyi hallarda həmin hüququn məhkəmə müdafiəsi mümkün deyil. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində bilavasitə nəzərdə tutulmasa da, ekstradisiya olunmamaq hüququnu müdafiə etmək istəyən hər bir kəs Baş prokurorun müvafiq qərarından məhkəməyə şikayət verə bilir. Azərbaycan Respublikasının ərazisində birbaşa hüquqi qüvvəyə malik Konstitusiyanın (Maddə 147. Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsi) 60-cı maddəsinə (Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı) əsasən, «hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər».

*(Davamı jurnalın növbəti nömrələrində)*

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri.*

## Prokurorluğun fəaliyyətinin hüquqi təminatı möhkəmləndirilir

Prokurorluğun fəaliyyətinin hüquqi əsasları müstəqil Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsində qəbul edilmiş Konstitusiyasında müəyyən edilmişdir. Konstitusiyada Azərbaycan Respublikasının Prokurorluğuna xüsusi maddə (maddə 133) həsr olunaraq bu orqanın məhkəmə hakimiyyəti sisteminə daxil olduğu müəyyənləşmiş, prokurorluq orqanlarının statusunun, təşkilinin və fəaliyyətinin əsasları təsbit olunmuşdur. 24 avqust 2002-ci il tarixdə keçirilmiş ümumxalq səsverməsi nəticəsində Konstitusiyaya edilmiş mühüm əhəmiyyətli dəyişikliklər sırasında prokurorluğa həsr olunmuş 133-cü maddəyə edilmiş dəyişiklik xüsusi əhəmiyyət kəsb edir.

Əlavə və dəyişikliklər edilməmişdən əvvəl Konstitusiyanın 133-cü maddəsində müəyyən edilmişdi ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada qanunların eyni cür və dürüst icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir. 133-cü maddə Konstitusiyanın məhkəmə hakimiyyətinə həsr olunmuş VII fəslində nəzərdə tutulmaqla prokurorluq orqanlarının məhkəmə hakimiyyətinə aid olduğunu müəyyən etmişdir ki, bu da prokurorluğun hansı hakimiyyət qoluna aid olmasına dair nəzəri mübahisələrə birdəfəlik son qoymaqla bu mühüm dövlət orqanının fəaliyyətinin hüquqi təminatında müəyyənlik yaratmışdır.

Qeyd olunan maddə ilə yanaşı Konstitusiyada prokurorluğun fəaliyyətinə aid olan digər müddəalar da nəzərdə tutulmuşdur. Əsas Qanunun «Məhkəmə hakimiyyəti» fəslinin 125-ci maddəsinin IV hissəsinin 24 avqust 2002-ci il tarixli referendumdan əvvəlki redaksiyasında belə bir müddəa olmuşdur: «Konstitusiya icraatı istisna olmaqla, ədalət mühakiməsinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.»

24 avqust 2002-ci il tarixli ümumxalq səsverməsi-referendumla Konstitusiyanın 133-cü maddəsinin I hissəsində «qaydada» sözündən sonra «və hallarda» sözləri əlavə edilmiş, «eyni cür və dürüst» sözləri isə müasir prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olmadığından maddənin mətnindən çıxarılmışdır. Nəticədə Konstitusiyanın 133-cü maddəsinin I hissəsi aşağıdakı redaksiyanı qəbul etmiş və hazırda həmin redaksiyada qüvvədədir: «Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.»

24 avqust 2002-ci il tarixli referendumla Konstitusiyanın 125-ci maddəsinin IV hissəsində də dəyişiklik edilərək Əsas Qanunun həmin müddəası prokurorluğun fəaliyyətini daha dəqiq əks etdirən məzmunda müəyyən edilmişdir: «Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.».

Konstitusiyada 24 avqust 2002-ci il tarixdə keçirilmiş referendumla eyni zamanda, həm prokurorluğun fəaliyyətinin hüquqi təminatının səmərəliliyinin artırılması, həm də bütövlükdə qüvvədə olan qanunlarda mövcud olan bəzi boşluqların aradan qaldırılması, ölkənin qanunvericilik sisteminin təkmilləşdirilməsi prosesində prokurorluğun potensial imkanlarından və zəngin təcrübəsindən istifadə edilməsinə zəmin yaradılması üçün çox əhəmiyyətli olan əlavə edilməklə, Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Konstitusiyanın qeyd olunan müddəaları prokurorluğun fəaliyyətinin hüquqi təminatının əsaslarını müəyyən etmişdir. 24 avqust 2002-ci il tarixdə keçirilmiş referendumla Konstitusiyanın həmin müddəalarında dəyişiklik edilməklə prokurorluğun fəaliyyətinin hüquqi təminatının əsasları «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər nüfuzlu beynəlxalq aktların prokurorluğun dövlət orqanları içərisində yerinə, insan hüquq və azadlıqlarının müdafiə edilməsində və ədalət mühakiməsinin həyata keçirilməsində roluna dair tövsiyələri, inkişaf etmiş demokratik dövlətlərin təcrübəsi nəzərə alınmaqla hazırlanmış məhkəmə-hüquq konsepsiyasına daha uyğun müəyyən edilmişdir.

«Prokurorluq haqqında» Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu (sonradan edilmiş bir sıra əhəmiyyətli dəyişikliklərlə) insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən, qanunçuluq, siyasi bitərəflilik, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma və digər demokratik prinsiplər əsasında fəaliyyət göstərməklə inkişaf etmiş sivil dövlətlərin bu qəbildən olan orqanlarına məxsus xüsusiyyətləri özündə birləşdirən, müasir dövrün yüksək beynəlxalq tələblərinə cavab verə bilən yeni prokurorluğun fəaliyyətini tənzim etmişdir. Qanunda prokurorluğun vacib fəaliyyət istiqamətlərindən biri kimi ibtidai istintaqa prosessual rəhbərlik və qanunlara riayət edilməsinin təmin olunması göstərilmişdir.

2000-ci ilin sentyabr ayının 1-dən qüvvəyə minmiş yeni Cinayət-Prosessual Məcəllədə prokurorluğun fəaliyyəti xüsusi səlahiyyətlərə malik hüquq-mühafizə orqanı kimi geniş təsbit olunaraq cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar bu orqanın üzərinə düşən vəzifələr konkret olaraq müəyyən edilmişdir. Bu vəzifələr içərisində prokurorun cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirməsi mühüm yer tutur.

Cinayət-Prosessual Məcəllə ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsini prokurorun vəzifəsi kimi müəyyən etməklə ibtidai araşdırmanın təhqiqat və ibtidai istintaqdan ibarət iki növünü müəyyən etdiyi halda, «Prokurorluq haqqında» Qanunda prokurorluğun fəaliyyət istiqaməti kimi ibtidai istintaqa prosessual rəhbərliyin həyata keçirilməsinin nəzərdə tutulması sonuncunun müvafiq maddəsində uyğunlaşdırma prosesinin aparılmasını zəruri edirdi. Bununla əlaqədar olaraq, 5 mart 2004-cü il tarixli Qanunla «Prokurorluq haqqında» Qanunun 4-cü maddəsinə dəyişiklik edilərək prokurorluğun qeyd olunan fəaliyyət istiqaməti dəqiqləşdirilərək «cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir» kimi müəyyən olunmuşdur.

Prokurorluğun üzərinə düşən məqsəd və vəzifələrlə əlaqədar olaraq bu mühüm dövlət orqanının fəaliyyətinin hüquqi təminatında səciyyəvi xüsusiyyətlər vardır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2004-cü il 3 mart tarixli Sərəncamı ilə korrupsiya cinayətləri üzrə ixtisaslaşmış dövlət antikorrupsiya orqanının - Korrupsiyaya qarşı mübarizə idarəsinin Azərbaycan Respublikasının Baş prokuroru yanında yaradılması korrupsiyaya qarşı mübarizəni prokurorluğun işinin ən önəmli istiqaməti kimi müəyyən etməklə bu dövlət qurumunun həmin sahədə fəaliyyətinin hüquqi təminatının həyata keçirilməsini şərtləndirmişdir.

Korrupsiya ilə əlaqədar cinayətlərin aşkar edilməsi və açılmasının təmin edilməsi məqsədi ilə «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» 18 mart 2011-ci il tarixli qanunlarla Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir ki, bu da prokurorluğun korrupsiyaya qarşı mübarizə üzrə fəaliyyətinin hüquqi təminatını gücləndirilmişdir.

Baş prokuror yanında Korupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyəti bu sosial bəla ilə səmərəli mübarizənin aparılmasında mühüm əhəmiyyətə malik olduğundan onun hüquqi təminatının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görüülür. 14 fevral 2014-cü il tarixli Qanunlarla «Prokurorluq haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında «qanunlara dəyişikliklər edilməklə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə Baş İdarə statusu verilmiş, bu mühüm dövlət qurumunun prokurorluğun sistemində yeri daha dəqiq müəyyən edilmişdir. «Prokurorluq haqqında» Qanuna Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə xüsusi olaraq həsr edilmiş yeni maddə əlavə edilərək qurumun hüquqi statusu, vəzifə və səlahiyyətləri daha konkret göstərilmişdir. Bu qanunla Korrupsiyaya qarşı Mübarizə Baş İdarənin rəisinə Baş prokurorun müavini statusunun verilməsi, Baş İdarənin tərkibində idarə, şöbə və digər struktur bölmələrin yaradılmasının nəzərdə tutulması korrupsiya qarşı daha səmərəli mübarizənin aparılmasına şərait yaratmışdır.

Dövlət başçısının 24 iyul 2014-cü il tarixli 234 nömrəli Fərmanı ilə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yeni statusu ilə əlaqədar olaraq onun Əsasnaməsində müvafiq dəyişikliklər

edilərək bu ixtisaslaşdırılmış prokurorluq orqanının vəzifələri daha da genişləndirilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin vəzifələrinə korrupsiyaya qarşı mübarizənin vəziyyəti öyrənilərkən, korrupsiya ilə əlaqədar məlumatlar toplanılıb təhlil edilərkən və ümumiləşdirilərkən, korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlanarkən normativ hüquqi aktlarda və onların layihələrində müəyyən edilmiş korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırılması da daxil edilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə qeyd olunan vəzifənin həvalə edilməsi normativ hüquqi aktlarda korrupsiya hüquqpozmalarına şərait yaradan halların tez bir vaxtda aradan qaldırılmasını təmin etməklə korrupsiyaya qarşı əks təsirin hüquqi təminatını gücləndirir.

Prokurorluğun fəaliyyətinin hüquqi təminatının digər xüsusiyyəti onunla əlaqədardır ki, prokurorluq yeganə hüquq-mühafizə orqanıdır ki, məhkəmə hakimiyyətinə aiddir. Prokurorluq məhkəmə hakimiyyətinə aid olduğundan onun istintaq aidiyyəti, yəni hansı hallarda cinayət işləri üzrə ibtidai istintaqın prokurorluq tərəfindən aparılmalı olması qanunla – Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 215.3-cü maddəsi ilə müəyyən edilmişdir. İbtidai istintaq aparan digər istintaq orqanları icra hakimiyyətinə aid olduğundan, onların istintaq aidiyyəti Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» 25 avqust 2000-ci il tarixli Fərmanı ilə müəyyən edilir.

İbtidai istintaq prokurorluq orqanları tərəfindən aparılan cinayətlərin maddələri Cinayət-Prosessual Məcəllənin 215.3.1-ci maddəsində konkret olaraq göstərilmişdir. Prokurorluq orqanlarının istintaq aidiyyətinə aid edilmiş konkret maddələrlə yanaşı cinayət-prosessual qanun bir sıra digər hallarda da ibtidai istintaqın prokurorluq tərəfindən həyata keçirilməsini məqsədəmüvafiq hesab etmişdir. CPM-nin 215.3.2-ci maddəsinə əsasən hakimlərin, prokurorluq orqanları əməkdaşlarının, Azərbaycan Respublikasının xaricdəki dipolmatik idarələrinin və xarici dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin əməkdaşlarının, habelə, ədliyyə, polis, təhlükəsizlik, miqrasiya, vergi və gömrük orqanları əməkdaşlarının, qanunda göstərilən digər vəzifəli şəxslərin təqsirləndirilməsi ilə bağlı cinayət işləri üzrə ibtidai istitaq prokurorluq tərəfindən aparılır.

CPM-nin 215.3.2-ci maddəsinin əvvəlki redaksiyasında ədliyyə, polis, təhlükəsizlik, miqrasiya, vergi və gömrük orqanları əməkdaşlarının yalnız vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə törədilməsində təqsirləndirilməsi ilə bağlı cinayət işləri üzrə ibtidai istitaqın prokurorluq tərəfindən aparılması müəyyən edilmişdir. 21 dekabr 2010-cu il tarixli Qanunla prokurorluğun istintaq aidiyyəti genişləndirilərək CPM-nin 215.3.2-ci maddəsinə dəyişiklik edilməklə «vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə törədilməsində» sözləri çıxarılmışdır ki, nəticədə ədliyyə, polis, təhlükəsizlik, miqrasiya, vergi və gömrük orqanları əməkdaşlarının təqsirləndirilməsi ilə bağlı törədilən bütün cinayət işlərinin ibtidai istintaqı prokurorluq orqanlarına həvalə edilmişdir.

CPM-nin 215.3-cü maddəsinin «İbtidai istintaq aşağıdakı hallarda prokurorluq tərəfindən aparılır:» sözləri ilə başlanması və maddədə digər hallara istinad edilməməsi belə nəticəyə gəlməyə əsas verir ki, prokurorluq orqanlarının istintaq aidiyyəti qanunun bu maddəsində tam şəkildə müəyyən edilmişdir. Əslində isə bu belə deyildir, prokurorluğun sisteminə daxil olan hərbi prokurorluğun istintaq aidiyyəti ayrı bir maddədə (mad.215.4) tənzimlənmişdir. CPM-nin 215.3 və 215.4-cü maddələrinin hər ikisi eyni bir məsələni - prokurorluğun istintaq aidiyyətini nizama salmasına baxmayaraq, onların ifadə olunmasında fərqli qanunvericilik texnikasından istifadə edilmişdir. Belə ki, 215.3-cü maddədə prokurorluğun istintaq aidiyyəti CM-nin müvafiq maddələri rəqəmlərlə göstərilməklə müəyyən olunaraq fəsillərin adı çəkilməmiş (baxmayaraq ki, bu aidiyyətə bütöv fəsil də daxil olduğundan (məsələn, sülh və insanlıq əleyhinə cinayətlər) fəslin adına istinad oluna bilərdi), 215.4-cü maddədə isə CM-nin fəsillərinin adına istinad olunmuşdur. Göstərilənləri nəzərə alaraq, qanunun qanunvericilik texnikası baxımından daha dəqiq olması və mümkün ola bilən anlaşılmazlığın qarşısının alınması üçün,

CPM-nin 215.4-cü maddəsinin 215.3.3-cü maddə kimi müəyyən olunmasını, sonrakı maddələrin ardıcıllığında müvafiq dəyişiklik edilməsini və yeni maddədə CM-nin müvafiq fəslini əks etdirən sözlərdən sonra CM-nin maddələrinin rəqəmlərlə göstərilməsini təklif edərdik.

Prokurorluğun fəaliyyətinin hüquqi təminatının başqa bir xüsusiyyəti bu orqanda qulluğun dövlət qulluğunun xüsusi növünə aid olması ilə əlaqədardır. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsinə əsasən, prokurorluq orqanlarında qulluq dövlət qulluğunun xüsusi növüdür və prokurorluq işçilərinin qulluq keçməsi həmin qanunun vətəndaşların dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları istisna olmaqla başqa qanunlarla tənzimlənir. Prokurorluqda çalışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan işçilər – xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) «Dövlət qulluğu haqqında» Qanun şamil edilir.

Prokurorluq orqanlarında qulluq keçmə qaydalarını və şərtlərini «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu tənzimləyir. Qanunun 1.1-ci maddəsinə əsasən, prokurorluq orqanlarında qulluq prokurorluğun fəaliyyət istiqamətləri üzrə prokurorluq işçilərinin səlahiyyətlərini yerinə yetirmələri ilə əlaqədar həyata keçirdikləri dövlət qulluğunun xüsusi növüdür. Qanunun 3.3-cü maddəsinə görə isə prokurorluq orqanlarında xüsusi rütbələr nəzərdə tutulmayan vəzifələrdə işləyən mülki işçilərin əmək münasibətləri «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə, dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) isə əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Beləliklə, qüvvədə olan qanunvericiliyin təhlili prokurorluqla orqanlarında bir-birindən fərqli hüquqi statusa malik üç kateqoriya şəxslərin: 1) xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə işləyən prokurorluq işçilərinin, 2) xüsusi növ dövlət qulluqçularına aid edilməyən dövlət qulluqçusu olan şəxslərin və 3) dövlət qulluqçusu olmayan işçilərin – xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. işləməsi nəzərdə tutulmuşdur. Bu şəxslərin tutduğu vəzifə ilə əlaqədar fəaliyyətlərinin hüquqi təminatı vəziyyəti bir-birindən fərqlənir. Məsələn, «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanunun 32.2-ci maddəsində prokurorluq işçisinin prokurorluqda qulluqda olmasının yaş həddi 60 yaş müəyyən edilmişdir. «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanunun 32.3-cü maddəsində müəyyən olunduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin III və IV hissələrində göstərilən vəzifələrə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Xüsusi növə aid edilməyən digər dövlət qulluqçularının yaş həddi «Dövlət qulluğu haqqında» Qanunun 32-1.1-ci maddəsində 65 yaş müəyyən edilmişdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 10-1-ci maddəsinə görə də dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65 yaş müəyyən edilmişdir.

«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanunun 1.2-ci maddəsində prokurorluq işçilərinin qulluq keçməsinin «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş prokurorluğun fəaliyyət prinsiplərinə əsaslandığı göstərilmişdir. Baxmayaraq ki, Qanunun 2.2-ci maddəsində «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun vətəndaşların dövlət qulluğuna qəbul edilmək hüququna, qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəalarının prokurorluq orqanlarında qulluq keçən şəxslərə şamil edilməsi göstərilmişdir, Qanunun 1.2-ci maddəsinin dəqiq ifadə olunması və onun məzmununun birmənalı qəbul edilməsi üçün «fəaliyyət prinsiplərinə» sözlərindən sonra «və «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş dövlət qulluğunun prinsiplərinə» sözlərinin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir.

**Mahir TAĞIYEV,**
*Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru, ədliyyə müşaviri, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent.*

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşları «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının konstitusiya təminatının aktual problemləri» mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfransda iştirak etmişlər




Noyabrın 7-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının konstitusiya təminatının aktual problemləri» mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Ombudsman Aparatı, Konstitusiya Məhkəməsi, Azərbaycan Hüquqşünaslar Konfederasiyası, Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları və Fəlsəfə, Hüquq institutları, eləcə də Polis Akademiyasının təşkilatçılığı ilə keçirilən konfrans müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunmasının 19-cu ildönümünə həsr edilmişdir.

Konfransda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Milli Məclisin insan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova, AMEA İnsan hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun direktoru Aytən Mustafayev, Konstitusiya Məhkəməsinin hakimləri, millət vəkilləri, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, Rusiya Federeasiyasının bəzi ali təhsil müəssilərinin rəhbər vəzifəli şəxsləri və nümayəndələri iştirak etmişlər.

Baş Prokurorluğu tədbirdə Elm-Tədris Mərkəzinin Kafedra rəisi Günay Əyyubova və prokurorları Talıb Cəfərov, Aydın Mahmudov təmsil etmişlər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad etmiş, onun Akademiyanın həyatində ucaldılan abidəsinin önünə əklil qoymuşlar.

Konfransı giriş sözü ilə açan Polis Akademiyasının rəisi Nazim Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra demokratik inkişaf istiqamətində müəyyən addımlar atılsa da, xalqın milli mənəvi dəyərlər sistemindən qaynaqlanan bu ali prinsiplər yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə həqiqi mahiyyət kəsb etməyə başlamışdır. Natiq çıxışında demokratik dövlət quruculuğu sahəsində əldə olunmuş ən mühüm nailiyyətlərdən biri kimi 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsini göstərmiş, insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində polisin vəzifələrinin,

bu sahədə beynəlxalq aktların mükəmməl öyrənilməsi məqsədilə Polis Akademiyasında «Konstitusiya hüququ» və «Daxili işlər orqanlarının fəaliyyətində insan hüquqlarının təminatı» fənlərinin tədris olunduğunu diqqətə çatdırmışdır.

Tədbirdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva, BMT-nin Azərbaycandakı nümayəndəliyinin rezident əlaqələndiricisi Antonius Bruk, Milli Məclisin insan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova çıxış etmiş, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyanın ölkəmizin inkişafında, o cümlədən hüquqi dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşmasında, insan hüquq və azadlıqlarının təmin edilməsində əhəmiyyətindən danışmışlar.

Sonda Akademiyanın müdavimləri arasında keçirilmiş intellektual yarışın qalibləri mükafatlandırılmışdır.

***

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşları «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» mövzusunda keçirilən II beynəlxalq elmi-praktiki konfransda iştirak etmişlər



Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemlərini və müasir modelləri öyrənmək məqsədilə oktyabrın 21-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» mövzusunda II beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Beynəlxalq elmi-praktiki konfransı DİN-in Polis Akademiyasının rəisi Nazim Əliyev açmış, ictimai münasibətlərin qloballaşma şəraitində sürətli inkişafı cinayətlərin yeni növlərinin yaranmasına, cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərinin daha dinamik dəyişkənliyinə təkan verdiyini qeyd etmiş, mürəkkəb və ziddiyyətli məzmuna malik qloballaşma prosesinin cinayətkarlığın sistemli təhlilinin, profilaktik tədbirlərin strateji əsaslarının yaradılması istiqamətlərinin araşdırılmasının, cinayətkarlığın beynəlxalq və regional problemlərinin əlaqəli şəkildə öyrənilməsinin zərurətə çevrildiyini vurğulamışdır.

Konfransda bir çox xarici ölkələrin və Azərbaycanın tanınmış hüquqşünas alimlərinin, təhsil müəssisələrinin və hüquq-mühafizə orqanlarının əməkdaşlarının məzmunlu araşdırmaları və təklifləri ilə zəngin olan çıxışları dinlənilmişdir.

Baş Prokurorluğu konfransda Elm-Tədris Mərkəzinin prokurorları Talıb Cəfərov, Aydın Mahmudov və Zahid Tağıyev təmsil etmişlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Prokurorluğun əməkdaşları ATƏT-in Bakı Ofisinin dəstəyi ilə Bakıda keçirilən seminarda iştirak etmişlər




Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Ofisinin dəstəyi ilə dekabrın 1 və 2-si Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında Təlimçilər üçün Təlim (ToT) və məişət zorakılığı mövzuları üzrə seminar təşkil edilmişdir. Kursun məqsədi prokuror, hakim və vəkillər üçün interaktiv təlim texnikasını öyrətmə, məişət zorakılığının qarşısının alınmasına dair mill qanunvericilik və beynəxlaq standartlar, onun icra mexanizmlərinin təlimatlandırılmasından ibarət olmuşdur.

Tədbirdə hakimlər, Vəkillər Kollegiyasının üzvləri və prokurorluq orqanlarının işçiləri, o cümlədən Elm-Tədris Mərkəzinin əməkdaşları - kafedra rəisi Günay Əyyubova, prokurorlar Talıb Cəfərov və Elxan Əsgərov iştirak etmişlər.

Tədris prosesində beynəxlaq eksrertlər xanım Meri Aguirre (ABŞ), xanım Lori Mann və cənab Ceyms Benedetto tərəfindən tədris mühitinin vacibliyi, fiziki və psixoloji amillər, təqdimatın planlaşdırılması, böyüklərin öyrənmə metodikası, interaktiv təlim texnikası, məişət zorakılığının qarşısının alınması haqqında beynəxlaq standartlar və onların icra mexanizmləri məsələləri izah olunmuşdur.

Tədbirin sonunda iştirakçılara müstəqil mövzu seçimi əsasında qruplar üzrə təqdimat hazırlanması tapşırığı verilmiş, onu uğurla yerinə yetirmiş iştirakçılara xüsusi sertifikatlar təqdim olunmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## «Cinayət prosesində ekstradisiya, insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri» ixtisasartırma kursu təşkil edilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğun müstəntiqləri və prokuror köməkçiləri üçün oktyabrın 27-dən 31-dək «Cinayət prosesində ekstradisiya, insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri» ixtisasartırma kursu təşkil edilmişdir.

Tədris məşğələləri Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Beynəlxalq əlaqələr idarəsinin təcrübəli işçiləri tərəfindən qabaqcıl metodlardan və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə keçirilmişdir.

Dinləyicilərə cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) ilə bağlı milli normativ hüquqi aktların, beynəlxalq hüquq normalarının, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi metodikası, prokurorluğun ekstradisiya işləri üzrə təcrübəsi, ekstradisiya zamanı ortaya çıxan problemlər və onların həlli yolları izah edilmişdir.

Oktyabr ayının 31-də kursun yekunu üzrə yazılı imtahan keçirilmiş, imtahan prosesi videolentə alınmış, dinləyicilərə prokurorluğun arxiv materiallarından götürülmüş konkret prosessual qərarları kursda əldə etdikləri biliklər baxımından təhlil etmək təklif olunmuş, cavablar kompüterlərdə yazılaraq çap edilmiş, hər bir cavaba İmtahan Komissiyası tərəfindən rəy verilmiş, dinləyicilər rəylərlə tanış edilmiş, qeyd və etirazları öyrənilərək dəyərləndirilmiş, rəylər əsasında dinləyicilərə qiymətlər verilmiş, qiymətə dair protokol çıxarışları dinləyicilərin şəxsi işlərinə əlavə olunmuşdur.

***

## «İnzibati xətalar haqqında iş üzrə prokuror nəzarətinin metodikası» ixtisasartırma kursu təşkil edilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində noyabrın 17-dən 20-dək prokuror köməkçiləri üçün «İnzibati xətalar haqqında iş üzrə prokuror nəzarətinin metodikası» ixtisasartırma kursu təşkil olunmuşdur.

Kurs zamanı dinləyicilərə «İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin hüquqi əsasları», «İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin metodikası», «Prokurorun prosessual fəaliyyəti zamanı inzibati hüquqpozmaların aşkar edilməsi və həlli metodikası», «İnzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətinin taktiki xüsusiyyətləri», «İnzibati xətalar haqqında işlərin baxılmasında prokurorun iştirakının prosessual və metodiki məsələləri», «Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətinin xüsusiyyətləri», «İnzibati xətalar haqqında işlər üzrə prokuror nəzarəti sənədlərinin layihələrinin hazırlanması» mövzularda mühazirələr oxunmuş, bu mühazirələrə uyğun praktiki məşğələlər keçirilmişdir.

2014-cü ilin noyabrın 19-da kursun yekunu üzrə yazılı imtahan keçirilmiş, dinləyicilərə inzibati xətalara dair işlər üzrə icraat zamanı prokuror nəzarətinin hüquqi əsasları və konkret növ xətalar üzrə bu sahədə prokuror nəzarətinin xüsusiyyətləri barədə məlumatların yazılması tapşırığı verilmiş, onlara qanunlardan, sahəvi normativ aktlardan və hüquqi ədəbiyyatdan sərbəst istifadə etmək imkanı yaradılmış, hər bir cavaba dair İmtahan komissiyası tərəfindən rəy tərtib edilmiş, rəylər əsasında cavablar qiymətləndirilmişdir. İmtahan Komissiyasının iclas protokolundan çıxarışlar dinləyicilərin şəxsi işlərinə əlavə olunmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## «Tibb işçilərinin peşə vəzifələrinin icrası ilə bağlı cinayətlərə dair məlumatların araşdırılması metodikası» ixtisasartırma kursu təşkil edilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokuror köməkçiləri və müstəntiqlər üçün dekabrın 15-dən 20-dək «Tibb işçilərinin peşə vəzifələrinin icrası ilə bağlı cinayətlərə dair məlumatların araşdırılması metodikası» ixtisasartırma kursu təşkil olunmuşdur.

Kurs zamanı 21 dinləyiciyə «Əhalinin sağlamlığının qorunması hüququnun konstitusion-hüquqi əsasları, onun təmin edilməsi üzrə pozitiv öhdəliklər», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların qeydiyyatının, araşdırılmasının cinayət-prosessual əsasları», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların araşdırılmasının metodikası», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların araşdırılmasında komisyon məhkəmə-tibb ekspertizasının imkanları», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların araşdırılması zamanı cinayət-hüquqi məsələlər», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların araşdırılması zamanı prosessual hərəkətlərin aparılması taktikası», «Tibb işçilərinin peşə fəaliyyəti ilə bağlı cinayətlərə dair məlumatların araşdırılması üzrə yekun prosessual qərarların əsaslılığı və qanuniliyi meyarları» adlı mövzularda mühazirələr, bu mühazirələrə uyğun praktiki məşğələlər keçirilmişdir.

Dekabr ayının 19-da kursun yekunu üzrə yazılı imtahan keçirilmiş, dinləyicilərə prokurorluğun arxivində saxlanılan prosessual qərarları – «cinayət işinin başlanmasının rədd edilməsi», «cinayət işi üzrə icraata xitam verilməsi» və digər qərarların məzmununun kursda tədris olunan bilgilər baxımından təhlil etmək tapşırılmış, cavablara dair İmtahan Komissiyası rəylər tərtib etmiş və rəylər əsasında dinləyicilərin göstəriciləri qiymətləndirilmişdir. «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanunun 13.2-ci maddəsinin tələblərin icrasına zəmin yaratmaq məqsədi ilə İmtahan Komissiyasının iclas protokolundan çıxarışlar dinləyicilərin şəxsi işlərinə əlavə edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

***

## «Mürəkkəb kriminalistik xarakteristikaya malik cinayət işlərinin istintaqı zamanı metodiki tövsiyələrin əhəmiyyəti» ixtisasartırma kursu təşkil edilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğa qulluğa yeni qəbul edilmiş işçilərin nəzəri və peşə hazırlığının artırılmasında mürəkkəb kriminalistik xarakteristikaya malik cinayətlər üzrə ibtidai istintaqı yüksək peşəkarlıqla aparmış prokurorluq işçilərinin iş təcrübəsindən səmərəli istifadə etmək məqsədilə dekabrın 24-26-da «Mürəkkəb kriminalistik xarakteristikaya malik cinayət işlərinin istintaqı zamanı metodiki tövsiyələrin əhəmiyyəti» ixtisasartırma kursu təşkil edilmişdir.

Kursa mühazirəçi qismində yüksək peşəkarlıqla ibtidai istintaq aparmış əməkdaşlar, dinləyici qismində isə prokurorluğa qulluğa yeni qəbul edilmiş işçilər cəlb edilmişlər.

Mühazirəçilər tədris zamanı ağır və xüsusilə ağır cinayətlər üzrə yüksək peşəkarlıqla ibtidai istintaqını apardıqları konkret cinayət işləri üzrə ibtidai istintaq metodikası, ayrı-ayrı istintaq hərəkətlərinin taktikası barədə kriminalistik tövsiyələr, təcrübədə yaranan və istintaqın gedişinə, obyektiv həqiqətin müəyyən edilməsinə mane olan əngəllər, belə neqativ halların baş verməməsi üçün görülməli preventiv tədbirlər,



qabaqcıl iş təcrübəsinin tətbiqi barədə, o cümlədən informasiya texnologiyalarından və kompüter proqramlarından istifadə edib bu işlər üzrə prosessual sənədlər əyani göstərməklə onların hazırlanması metodikası və xüsusiyyətləri barədə məlumat vermiş, hadisə yerinə baxış, ifadənin yerində yoxlanılması istintaq hərəkətlərinin video çəkilişlərini nümayiş etdirmişlər.

Dekabrın 26-da kurs başa çatmış, yekunda dinləyicilər arasında sorğu aparılmış, dinləyicilərə kurs zamanı əldə etdikləri yeni bilgilər və peşə vərdişlərinə dair məlumatları yazmaq təklif olunmuşdur. Cavablar təhlil edilmiş, ixtisasartırma işində bu tədris formasından istifadənin səmərəsi və perspektivləri dəyərləndirilmişdir.

***

## «Prokurorluq orqanlarında uçot və statistik hesabatların hazırlanması metodikası» ixtisasartırma kursu təşkil edilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində bütün ərazi rayon (şəhər) və Bakı şəhərinin rayon prokurorları üçün hissə-hissə 4 qrup komplektləşdirilərək oktyabrın 23-dən 26-dək, oktyabrın 30-dan noyabrın 2-dək, noyabrın 20-dən 23-dək və noyabrın 27-dən 30-dək «Prokurorluq orqanlarında uçot və statistik hesabatların hazırlanması metodikası» ixtisasartırma kursu təşkil olunmuşdur.

Kurslar zamanı prokurorluqda tətbiq olunan statistik hesabat formaları üzrə hesabatların hazırlanması qaydası və metodikası tədris edilmiş, daha mürəkkəb hesabat – «İstintaq işi haqqında» 1-E formalı statistik hesabatların tərtibi ilə əlaqədar sınaq yoxlamaları keçirilmiş, bu yoxlamalarda dinləyicilərin yol verdikləri səhvlər birgə təhlil edilmişdir.

Hər bir kurs üzrə yazılı imtahan keçirilmiş, dinləyicilərə çıxış məlumatları əsasında «İstintaq işi haqqında» 1-E formalı statistik hesabatların hazırlanması tapşırılmış, dinləyicilər tərəfindən hazırlanmış imtahan-tədris hesabatları İmtahan Komissiyası tərəfindən təhlil edilərək qiymətləndirilmişdir. İmtahanların nəticələrinə dair məlumatlar İmtahan Komissiyasının iclas protokolundan çıxarışlar formasında dinləyicilərin şəxsi işlərinə əlavə edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Prokurorluğun əməkdaşları Ədliyyə Akademiyasında təşkil olunmuş icbari təlim prosesində iştirak etmişlər



Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarına qulluğa qəbulla əlaqədar müsabiqədə müvəffəqiyyət qazanmış namizədlərin peşə fəaliyyətinə buraxılması üçün Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında dekabrın 3-dən 23 gün müddətində icbari təlim keçirilmişdir.

Təlim prosesinə Ədliyyə Akademiyasının əməkdaşları ilə yanaşı, prokurorluğun, o cümlədən Elm-Tədris Mərkəzinin əməkdaşları da cəlb edilmişlər.

Mərkəzin əməkdaşları müxtəlif mövzular üzrə mühazirələrlə çıxış etmişlər. Məsələn, «İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Günay Əyyubova «Ədalətli məhkəmə araşdırması hüquqlarının məhkəmə-istintaq təcrübəsində müdafiəsi məsələləri», Mərkəzin böyük prokuroru Fərman Rzayev «Cinayət prosesində sübutlar və sübutetmə», «İbtidai araşdırma zamanı axtarış və götürmə (prosessual və taktiki cəhətlər)», Cinayət hüququ, cinayət prosesi və kriminlogiya kafedrasının prokuroru Talıb Cəfərov «Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin istintaq metodikası», Prokurorluq orqanlarının fəaliyyətinin təşkili kafedrasının prokuroru Aydın Mahmudov «Prokurorluq haqqında» və «Prokurorluq orqanlarında qulluqkeçmə haqqında» Azərbaycan Respublikasının Qanunları və qarşıda duran vəzifələr», «Prosessual məcburiyyət tədbirləri (tutulma, qətimkan tədbirləri və digər prosessual məcburiyyət tədbirləri)», Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafeadrasının prokuroru Zahid Tağıyev «Cinayətlərin tövsifinin ümumi qaydaları», Kriminalistika kafedrasının prokuroru Elxan Əsgərov «Kriminalistik fotoşəkil çəkmə», «Trasologiya: əl izlərinin aşkar edilməsi və götürülməsi», «Ayaq izləri. Onların götürülmə qaydası və kriminalistik əhəmiyyəti» mövzularını tədris etmişlər.

Dekabrın 26-da kursun yekunu üzrə keçirilmiş imtahan zamanı dinləyicilər yüksək bilik səviyyəsi nümayiş etdirmişlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Prokurorluğun əməkdaşı din xadimləri üçün təşkil olunan təlimdə iştirak etmişdir

Sentyabr və noyabr aylarında Qafqaz Müsəlmanları İdarəsinin nəzdindəki Bakı İslam Universitetində respublikanın şəhər, rayon və kəndlərinin din xadimləri üçün təşkil etdiyi təlimdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin prokuroru Aydın Mahmudov iştirak etmiş, «Dini etiqad və vicdan azadlığının anlayışı, hüquqi əsasları və bu barədə qanunvericiliyin pozulmasına görə məsuliyyət» mövzusunda mühazirələrlə çıxış etmişdir.

Mühazirə zamanı dinləyicilərə ulu öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasının 18 və 48-ci maddələrində din və vicdan azadlığının təsbit edilməsi və dövlətin bunun təmin olunmasının qarantı olduğu bildirilmiş, vicdan azadlığı anlayışının yaranma və inkişafı tarixindən, Azərbaycanda mövcud olan yüksək tolerantlıq mühitindən danışılmışdır. Qeyd olunmuşdur ki, son dövrlər din pərdəsi altında yayılan və bidətçilərin fəaliyyətinin nəticəsi olan radikal xəvaricilik, təkfirçilik, vəhhabilik, sələfilik, nurçuluq və digərlərinin islamda nəsə yenilik etməyə, onun təməl ehkam və prinsiplərini dəyişdirməyə, insanların doğru düşüncələrini səhv yola yönəltməyə cəhd etmələri, onların məqsədyönlü təsirləri altında bəzi cahil insanların yalançı dini təəssübkeşliklə Azərbaycandan qaçaraq İraqda və Suriyada siyasət girovları olan İŞİD terror qruplaşmasına qoşulub guya «cihadda» iştiraka getmələri, bu yola qədəm qoymuş bir çox Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilərək barələrində cinayət işi başlanılması və həbs tədbirinə məruz qalmaları, özgə torpaqlarında baş verən silahlı münaqişələrə qərəzli məqsədlərlə qatılan və öldürülən şəxslərin şəhid adlandırılması dinimizə əsasən yanlış hərəkətdir. Bunlarla bağlı 14 mart 2014-cü il tarixli Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə olunmuş Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədi ilə sabit qrup yaratma (maddə 283-1.), Terrorçuluğa açıq çağırışlar (maddə 214-2) və Terrorçuluq məqsədi ilə təlim keçmə (maddə 214-3.) cinayət tərkibləri, bu maddələrdə nəzərdə tutulan əməlləri törətmiş şəxsin cinayət məsuliyyətindən azad olunması şərtləri geniş izah edilmişdir.

Mühazirələrdə «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikası Qanununun əsas müddəaları ətraflı şərh olunmuş, bu qanunun pozulmasına görə müəyyən edilmiş inzibati və cinayət məsuliyyəti normalarının mahiyyəti izah edilmiş, beynəlxalq təşkilatların vicdan azadlığı və dini etiqad azadlığı məsələlərini daim diqqət mərkəzində saxlamaları, bununla bağlı müvafiq beynəlxalq sənədlər qəbul olunması diqqətə çatdırılmış, nümunə kimi 10.12.1948-ci il tarixli «Ümumdünya İnsan hüquqları Bəyannaməsi» (Maddə 18: «Hər bir insanın düşüncə, vicdan və din azadlığı hüququ vardır; buraya öz dinini və inancını dəyişmək, təkbaşına və ya digərləri ilə birgə öz dininə və inancına etiqad etmək, fərdi və ya kütləvi qaydada dini təlim, ibadət, dini və ritual adət və mərasimləri yerinə yetirmək hüququ daxildir.»), 25.11.1988-ci il tarixli BMT-nin «Din və inanclarla əlaqədar dözümsüzlük və diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında» Bəyannaməsi, «Mülki və siyasi hüquqlar haqqında « 1966-cı il tarixli Beynəlxalq Paktı və 21.11.1990-cı il tarixli «Yeni Avropa üçün Paris Xartiyası», 1950-ci il «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası göstərilmiş, Azərbaycanda dövlət və din münasibətlərinin prinsipial xarakter daşıması, cəmiyyətin hər bir üzvünə sərbəst din seçmə, dini icma yaratmaq, icma daxilində öz etiqadına əməl edə bilmə imkanına təminat verilməsi xüsusi vurğulanmışdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Vətəndaşların müraciətləri elektron qaydada cavablandırılacaqdır

Dövlət başçısının tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilməklə əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq, ərizə və şikayətlərin baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi davam etdirilir.

Vətəndaşların prokurorluq orqanlarına müraciət etmək imkanlarının elektron vasitələrdən istifadə etməklə daha da asanlaşdırılması, daxil olmuş müraciətlərə verilən cavabın onlara operativ çatdırılmasının, müraciətə baxılması vəziyyəti barədə vətəndaşın daha çevik məlumatlandırılmasının təmin edilməsi məqsədilə Baş Prokurorluğun veb-saytında Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarının tətbiqi xidməti tərəfindən «Müraciətlərə onlayn baxılması» funksiyası (bölməsi) yaradılmışdır.

Prokurorluğa müraciət etmiş vətəndaşlar həmin xidmət vasitəsilə Baş Prokurorluğun veb-saytına (www.prokurorluq.gov.az) daxil olaraq onlara proqram tərəfindən avtomatik olaraq göndərilmiş bildirişdəki koddan və xüsusi paroldan istifadə etməklə müraciətlərinə dair cavabı elektron variantda əldə edə biləcəklər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının müddəaları yerlərdə müzakirə edilib



Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru Rəşad Qasımov və idarənin Mətbuat xidmətinin prokuroru Çingiz Əli-zadə dekabrın 4-də Qusar, dekabrın 16-da isə Saatlı rayon prokurorluqlarında Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələrə həsr edilmiş seminar-məşğələlər keçirilmişlər.

Məşğələlərdə Sumqayıt və Şirvan şəhər, Saatlı, Sabirabad, Hacıqabul, Beyləqan, Biləsuvar, Salyan, İmişli, Füzuli, Abşeron, Şabran, Xaçmaz, Xızı, Quba, Qubadlı, Siyəzən rayon prokurorluqları və Sumqayıt hərbi prokurorluğunun əməkdaşları iştirak etmişlər.

İştirakçılara «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının məzmunu barədə ətraflı məlumatlar çatdırılaraq qeyd edilmişdir ki, bu mühüm sənəd Azərbaycanda reallaşdırılan quruculuq siyasətinin təməl prinsiplərini, formalaşmaqda olan yeni dünya nizamında ölkəmizin yerini və rolunu, onun hazırda yüksələn xətlə davam edən dinamik inkişafının prioritetlərini özündə ehtiva edir. Konsepsiyanın başlıca məqsədi dünyada baş verən maliyyə-iqtisadi böhran və mürəkkəb qlobal dəyişikliklər fonunda Azərbaycanın milli maraqlarının hərtərəfli qorunmasına nail olmaq, dövlətimizin və xalqımızın etibarlı gələcəyini təmin etməkdir. Konsepsiyanın əhatə edəcəyi növbəti illərdə Azərbaycan dövlətinin siyasi, iqtisadi, hərbi qüdrətinin gücləndirilməsi xətti əsas götürülməklə, çoxsaylı kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olunması olan «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası digər dövlət təsisatları kimi prokurorluq orqanlarında da inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva etməklə prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

Mövzu ilə bağlı müzakirələr aparılaraq iştirakçıların suallarına ətraflı cavablar verilmiş, mülahizələri dinlənilmişdir.

**Baş Prokurorluğunun Hüquqi təminat və informasiya idarəsi**

***

## Şəki və Yevlax rayonlarında «Cinayət prosesində ictimaiyyətin iştirakının hüquqi əsasları» mövzusunda seminarlar keçirilib



Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru Mahir Tağıyev 2014-cü ilin noyabrın 27-də Şəki şəhərində Ağsu, Balakən, Qax, Qəbələ, Zaqatala, İsmayıllı, Oğuz, Şamaxı və Şəki rayon prokurorluqlarının, bu idarənin prokuroru Malik Səlimov noyabrın 28-də Yevlax rayonunda Ağdam, Ağcabədi, Ağdaş, Bərdə, Tərtər, Yevlax, Zərdab, Ucar, Göyçay, Goranboy rayon, Gəncə şəhər prokurorluqları, Gəncə, Tərtər, Qarabağ hərbi prokurorluqlarının əməkdaşları üçün «Cinayət prosesində ictimaiyyətin iştirakının hüquqi əsasları» mövzusunda seminar-məşğələlər keçirmişlər.

Seminarlarda qeyd olunmuşdur ki, ölkənin hüquq sistemində xalqın nümayəndələrinin iştirakının genişləndirilməsi, o cümlədən cinayət prosesində ictimaiyyətin iştirakına hərtərəfli şəraitin yaradılması «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş məqsədlərlə yanaşı, eyni zamanda Azər-

baycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nda müəyyən edilmiş, dövlət orqanlarının fəaliyyətində «şəffaflığın artırılması» və «hesabatlılığın təmin edilməsi» kimi əsas prinsiplərdən irəli gəlir. Cinayətkarlıqla mübarizənin həyata keçirilməsinin, cinayət mühakimə icraatının səmərəliliyinin təmin olunmasında əhalinin və ictimaiyyətin iştirakının vacib əhəmiyyətə malik olduğu beynəlxalq sənədlərdə də təsbit olunmuşdur.

Cinayət prosesində ictimaiyyətin iştirakının cinayət mühakimə icraatının prinsiplərindən biri olduğu göstərilməklə onların təcrübədə tətbiqinin səmərəliliyinin artırılması yollarına dair fikirlər bildirilmişdir. Eyni zamanda Baş Prokurorluğun qanunvericilik təşəbbüsü qaydasında verdiyi təklifə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 20 iyun 2014-cü il tarixdə qəbul edilmiş Qanuna əsasən qanunvericilikdən «andlı iclasçılar» institutunun çıxarılmasının zəruriliyi əsaslandırılmışdır.

Seminar-məşğələlərdə cinayət prosesində ictimaiyyətin iştirakı ilə əlaqədar təcrübədə yaranan məsələlərin həlli ilə bağlı tövsiyələr verilmiş, mövzu ilə əlaqədar geniş müzakirə və fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

***

## Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Mülkü müdafiənin təmin edilməsi haqqında» 25.09.1998-ci il 193 nömrəli Qərarına əsasən, fövqəladə hadisələrin, qəza və dağıntıların nəticələrini aradan qaldırmaq, ilkin qəza-xilasetmə, tibbi yardım və digər mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə müvafiq dövlət orqanlarında hərbiləşdirilməmiş mülki müdafiə qüvvələrinin yaradılması nəzərdə tutulmuşdur. Baş Prokurorluq üzrə 06.07.2012-ci il tarixli 10/73 nömrəli əmrlə Baş Prokurorluğun hərbiləşdirilməmiş mülki müdafiə dəstələri yaradılmışdır.

Oktyabrın 17-də Baş Prokurorluğun Tarix Muzeyində Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanov hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə təlim məşqi keçmişdir. Təlim zamanı Azərbaycan Respublikası FHN-in Mülki müdafiə idarəsinin Əhalinin və ərazilərin mühəndis mühafizəsi şöbəsinin rəisi Zaur Məmmədrzayev və həmin idarənin Müdafiənin təşkili və planlaşdırması şöbəsinin zabiti Rafael Məhərrəmov iştirak etmişlər.

Məşq zamanı hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir. Mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti, zəruri vərdişləri mənimsəmələrinin keyfiyyəti yoxlanılmış və müəyyən edilmişdir ki, vəzifələrindən irəli gələn nəzəri biliklərə yiyələnmələri vəziyyəti qənaətbəxşdir. Sonda suallar cavablandırılıb, fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Abşeron rayon prokurorluğunda «Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi» mövzusunda seminar keçirilmişdir



Oktyabrın 24-də Abşeron rayon prokurorluğunda «Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi» mövzusunda bölgə seminarı keçirilmişdir.

Tədbirdə Sumqayıt şəhər, Abşeron, Quba, Xaçmaz, Xızı, Siyəzən, Qusar, Qubadlı və Şabran rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Seminarda çıxış edən Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Elşad Eyvazov tərəfindən prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verilərək Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili zamanı müasir informasiya texnologiyalarından geniş istifadə edilməsi məsələlərinə aid müddəaları şərh olunmuş, prokurorluqda müraciətlərlə iş üzrə fəaliyyətin elektron formada həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Daha sonra, Baş Prokurorluqda tətbiq edilən «Elektron Sənəd Dövriyyəsi» Proqramının mahiyyəti və işləmə mexanizmi haqqında ətraflı məlumat verilmiş və bildirilmişdir ki, prokurorluğun müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə bağlı fəaliyyətində son illərdə tətbiq olunan yeni iş metodlarının davamı olaraq Baş Prokurorluğun veb-saytında «online müraciət» adlı yeni funksiya yaradılmışdır. Bunun nəticəsində Baş Prokurorluğa müraciət etmiş hər bir şəxs Baş Prokurorluğun inzibati binasına gəlmədən, internet vasitəsilə veb-sayta daxil olaraq Müraciətlərə baxılması idarəsi tərəfindən ona göndərilən bildirişdə əks olunmuş istifadəçi kodu və parolunu «online müraciət» bölməsində yığmaqla öz müraciətinə baxılmasının nəticəsi barədə məlumat ala, ona ünvanlanmış cavabı oxuya və həmin cavabı printer vasitəsilə çap edib əldə edə biləcəkdir. Tədbir iştirakçılarına informasiya texnologiyalarından səmərəli istifadə etmək barədə tövsiyələr verilmişdir.

Fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

## Şəki rayon prokurorluğunda «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir



Oktyabrın 31-də Şəki rayon prokurorluğunda bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir. Seminarda Mingəçevir şəhər, Şəki, Ağdaş, Zaqatala, Balakən, Oğuz, Qəbələ, Qax, İsmayıllı və Göyçay rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Tədbirdə Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi, Vətəndaşların qəbulu şöbəsinin prokuroru Yaqut Əliyeva çıxış edərək prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat vermiş, Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin vətəndaşların qəbulu məsələlərini tənzimləyən müddəalarını şərh etməklə vətəndaşların prokurorluq orqanlarında qəbulunun səmərəli keçirilməsinə dair tövsiyələr vermişdir.

Seminarda həmçinin vətəndaşların yaşayış yerləri üzrə qəbulunun xüsusiyyətləri barədə danışılaraq belə qəbulların təşkili və keçirilməsi qaydaları haqqında zəruri izahlar verilmiş, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələri təhlil edilmişdir.

Fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

***

## Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması üzrə Şirvan şəhər prokurorluğunda seminar keçirilmişdir

Noyabrın 21-də Şirvan şəhər prokurorluğunda Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Yadigar Aslanov tərəfindən «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin tətbiqi məsələlərinə həsr edilmiş seminar keçirilmişdir. Seminarda Şirvan şəhər, Hacıqabul, Saatlı, Sabirabad, Kürdəmir,



Biləsuvar, Neftçala və Salyan rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Tədbir prosesində müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində lazımi səmərə əldə edilməsi üçün zəruri addımlarla bağlı seminar iştirakçılarının irəli sürdükləri təkliflər geniş müzakirə olunmuş, əmrin icrası ilə bağlı yaranmış müsbət təcrübə ətraflı təhlil edilmiş, gələcəkdə bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsinin vacibliyi vurğulanmışdır.

İştirakçılara müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə, o cümlədən Baş Prokurorluqda tətbiq olunan «Elektron sənəd dövriyyəsi» proqramının mahiyyəti və işləmə mexanizmi haqqında ətraflı məlumat verilmiş, dinləyicilərin sualları cavablandırılmaqla əmrin düzgün icrası ilə əlaqədar tövsiyələr verilmişdir.

***

## Sumqayıt şəhər prokurorluğunda «Arxiv işinin təşkili» mövzusunda seminar keçirilmişdir

Noyabrın 14-də Sumqayıt şəhər prokurorluğunda «Arxiv işinin təşkili» mövzusunda seminar keçirilmişdir. Seminarda Sumqayıt şəhər, Abşeron, Quba, Xaçmaz, Qusar, Şabran, Siyəzən, Xızı, Qubadlı, Şuşa və Zəngilan rayon prokurorluqlarının ekspert komissiyalarının sədrləri və dəftərxana müdirləri iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru – arxiv müdiri Zöhrə Məmmədova tərəfindən prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat vermiş, Azərbaycan Respublikası Baş prokurorunun 04.12.2001-ci il tarixli 08/160 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılması Qaydaları haqqında» Təlimatın və Azərbaycan Respublikası Baş prokurorunun 25.06.2002-ci il tarixli 08/61 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı»nın müddəalarını şərh olunmaqla arxiv işinin təkmilləşdirməsinə dair tövsiyələr verilmiş, tabe prokurorluqların ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar təhlil edilərək müvafiq izahlar verilmiş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

***

## Baş Prokurorluğun əməkdaşları məcburi köçkünlərə bayram sovqatı paylamışlar

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi 12 noyabr – Konstitusiya günü və 17 noyabr – Milli Dirçəliş Günü münasibətilə Bərdə rayonunda məskunlaşmış 704 ailədən ibarət 2800 məcburi köçkünə 17 min 80 kiloqram həcmində, 21 min 700 manat məbləğində ərzaq yardımı göstərmişdir.

Baş Prokurorluğun məsul işçiləri və 24 rayon prokurorluğunun əməkdaşları Bərdə şəhərindəki Meşəçilik İnstitutu ərazisində məskunlaşan məcburi köçkünlərlə görüşüb, onların məişət şəraiti və problemləri ilə tanış olmuşlar. Görüşdə Baş Prokurorluğun idarə rəisinin müavini Nurəli Məmmədov Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli, habelə qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində ölkə başçısının apardığı siyasət barədə məlumat vermiş, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin xalqımızın mənafeyinə uyğun həlli, işğal altındakı torpaqlarımızın azad ediləcəyi ilə nəticələnəcəyini konkret dəlillərlə əsaslandırmışdır.

Göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirən məcburi köçkünlər Prezident İlham Əliyevin işğal olunmuş ərazilərimizin azad edilməsi, ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətini dəstəklədiklərini bildirmişlər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Naxçıvan Muxtar Respubliksında Prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur

Prokurorluq orqanlarında işə qəbulun aşkarlıq şəraitində keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yolu olmaqla bərabər, həm də ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyularaq bu gün də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin məntiqi nəticəsidir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına yeniləşdirilməsi üçün ciddi zəmin yaratmışdır.

Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yayayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə müvafiq olaraq 2003-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən aprelin 1-də Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə əsasən, Azərbaycan Respublikası Baş Prokurorunun 03.12.2007-ci il tarixli 10/101-11/410-k nömrəli əmri ilə təsdiq edilmiş «Prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları»na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant olan 10 ştat vahidi üzrə müsabiqə elan edilmiş, sentyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında işləmək istəyənlər üçün test imtahanı keçirilmişdir. Komissiyanın imtahan zalında imtahanın aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün hərtərəfli şərait yaradıldığından imtahan keçirilən üçsaatlıq müddət ərzində heç bir nöqsan qeydə alınmamışdır. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) Naxçıvan Muxtar Respublikası Regional bölməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları imtahanda iştirak etmişlər. Vakant olan 10 ştat vahidi üzrə imtahanda iştirak etmiş 30 namizədin 10-u növbəti mərhələyə – yazılı imtahana buraxılmaq hüququ qazanmışdır.

Oktyabrın 17-də namizədlirin müvafiq qanun və ya digər normativ hüquqi aktı tətbiq etmək qabiliyyətini müəyyənləşdirmək məqsədilə prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant olan 10 ştat vahidi üzrə elan edilmiş işə qəbulun növbəti yazılı imtahan mərhələsi keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının Müsabiqə Komissiyası tərəfindən imtahanın aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında keçirilməsi üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Müsabiqənin yazılı imtahan mərhələsində iştirak edən 7 namizəddən 1 nəfər qadın olmaqla hamısı Naxçıvan Dövlət Universitetinin məzunlarıdır.

Noyabrın 13-də namizədlərin prokuroluqda işləmək üçün zəruri keyfiyyətlərə malik olmasının müəyyən etmək məqsədilə ixtisas imtahanlarından keçid balı toplamış namizdələrlə müsahibə keçirilmişdir. Müsahibə mərhələsində 7 namizəd iştirak etmişdir. Müsabiqə Komissiyasının qərarına əsasən müsahibə müvəffəqiyyətlə keçmiş 7 namizəd «Prokurorluq orqanlarında

qulluq keçmə haqqında» Qanuna və Azərbaycan Respublikası Prezidentinin 21.11.2008-ci il tarixli 24 №-li Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsinə əsasən, müsabiqədən keçmiş namizədlər Akademiyada icbari təlimə cəlb edilmişlər. İcbari təlimi müvəffəqiyyətlə bitirmiş namizədlərə peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə verilmişdir.

Dekabrın 29-da isə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilmişdir. Əvvəlcə müsabiqənin keçirilməsi və nəticələri haqqında məlumat verilmiş, sonra isə prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq və Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə əmlər elan edilmiş, 6 nəfər Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarına, 1 nəfər isə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təklifi əsasında Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul olunmuşlar. İşə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içmişlər. Mərasimdə çıxış edən gənclər prokurorluq orqanlarına işə qəbulun şəffaf və ədalətli keçirilməsi üçün dövlət başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirərək, onlara göstərilən yüksək etimadı əməli işləri ilə doğruldacaqlarını əminliklə ifadə etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

***

## Naxçıvan Muxtar Respublikasında Beynəlxalq İnsan Hüquqları Günü qeyd olunmuşdur

Dekabrın 10-da «Miqrantların hüquqlarının müdafiəsi: dövlətdaxili və beynəlxalq standartlar» mövzusunda Naxçıvan Şəhər Məhkəməsinin akt zalında konfrans keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, eyni zamanda muxtar respublikada fəaliyyət göstərən digər dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Özəl Universitetinin müəllim və tələbələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova açaraq bildirmişdir ki, 1948-ci il dekabrın 10-da BMT-nin Baş Assambleyasında İnsan hüquqları haqqında Ümumdünya Bəyannamə qəbul edilmiş, Baş Assambleyanın 423 saylı qətnaməsi ilə bütün ölkələrə bu günü rəsmi olaraq «Beynəlxalq İnsan Hüquqları Günü» kimi qeyd edilməsi tövsiyə olunmuşdur. Daha sonra çıxışda qeyd edilmişdir ki, insan hüquqları sistemində əhalinin müxtəlif sosial qruplarının hüquqları ilə yanaşı, miqrantların hüquqları da mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə miqrasiya prosesinin subyektləri olan şəxslərin – əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Muxtar Respublikada da qanun çərçivəsində miqrantların hüquqlarının qorunması daim diqqət mərkəzində saxlanılır, miqrasiya prosesinin həyata keçirilməsi sahəsində tədbirlər uğurla davam etdirilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov «Naxçıvan Muxtar Respublikasında miqrantların hüquqlarının həyata



keçirilməsində dövlət siyasətinin ümumi aspektləri» mövzusunda geniş məruzə ilə çıxış edərək, qeyd etmişdir ki, muxtar respublikada da insan hüquqlarının təminatı sahəsində görülən tədbirlər təqdirəlayiqdir. Naxçıvan Muxtar Respublikasında Konstitusiyanın qəbulu və Ombudsman institutunun yaradılması, insan hüquqlarının təminatı ilə bağlı Konstitusiya nəzarəti institutunun formalaşdırılması muxtar respublikada insan amilinə verilən diqqətin bariz nümunəsidir. Ölkəmizdə dünya təcrübəsinə söykənən vahid miqrasiya siyasətinin formalaşmasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə hazırlanan və dövlət başçısının 2004-cü ildə təsdiq etdiyi «Dövlət Miqrasiya Siyasəti Konsepsiyası» çox mühüm rol oynamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Fazil Ələkbərov «Naxçıvan Muxtar Respublikasında miqrasiya prosesinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi» mövzusunda çıxış edərək göstərmişdir ki, bu gün Dövlət Miqrasiya Xidməti fəaliyyətini beynəlxalq standartlara uyğun şəkildə qurmağı bacarıb. Belə ki, «Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il iyulun 15-də imzaladığı Fərmana uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi internet saytında xüsusi elektron xidmət bölməsi yaradılmışdır. Hazırda istənilən şəxsin elektron xidmət bölməsindən maneəsiz, sərbəst istifadəsi, həmçinin elektron qaydada qəbul edilən sənədlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin olunur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov «Qanunsuz miqrasiya ilə mübarizənin cinayət-hüquqi aspektləri» mövzusunda məruzəsində miqrasiya ilə bağlı mövcud qanunvericilik bazası barədə ətraflı məlumat verərək qeyd etmişdir ki, qanunsuz miqrasiyaya qarşı mübarizə hər bir dövlətin əmək bazarının qorunması, işsizlik səviyyəsinin müəyyən həddə saxlanılması, eləcə də neqativ proseslərin doğurduğu beynəlxalq terrorizm, dini ekstremizm, narkobiznes, insan alveri kimi transmilli cina-

yətlərin qarşısının alınmasında vacib rol oynayır. Ölkəmizdə miqrasiya proseslərinin nəzarətdə saxlanılması ilk növbədə milli təhlükəsizliyin hərtərəfli təmini baxımından aktuallıq kəsb edir. Bu aktuallıq bir tərəfdən ölkəmizin zəngin təbii ehtiyatlara, inkişaf potensialına malik olması, əlverişli coğrafi mövqedə yerləşməsi, digər tərəfdən isə beynəlxalq hüquq normalarını kobud şəkildə pozan Ermənistanın təcavüzü ilə üzləşməsi, müharibə şəraitində yaşaması ilə şərtlənir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 3 dekabr 2013-cü il tarixli qanunla «Qanunsuz miqrasiyanın təşkili» adlı yeni, 318-1-ci maddə əlavə olunmuş və bu ictimai təhlükəli əməlin ibtidai araşdırması prokurorluq orqanlarının səlahiyyətinə aid edilmişdir. Cinayət qanunvericiliynə əsasən əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə hüquq pozuntusu hesab olunur.

Məruzə ətrafında daha sonra Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə şöbəsinin baş əməliyyat müvəkkili Namiq Seyidov, «Naxçıvan» Sərhəd Diviziyasının Sərhəd nəzarəti bölməsinin rəisi Əhməd Abbasov çıxış etmişlər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova yekun vurmuşdur.

***

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları muzeylərdə olmuşlar

Muzeylər tariximizin və mədəniyyətimizin təkcə saxlanc yeri deyil, həm də təbliğ edildiyi məkanlardır. Bir xalqın sahib olduğu muzeylərin zənginliyi həmin xalqın tarixinin və mədəniyyətinin zənginliyindən xəbər verir. Son zamanlar muzeylərin inkişafına dövlət orqanları tərəfindən xüsusi diqqət yetirilir. Əhali arasında da muzeylərə maraq xeyli artmışdır. Dövlət qulluqçularının muzeylərlə tanış olmaları işini sistemli şəkildə təşkil etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasında mərkəzi icra hakimiyyəti orqanları üçün «Muzey günləri» müəyyən edilmişdir. «Muzey günləri»ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar. Bu tədbirin keçirilməsində məqsəd muxtar respublikada fəaliyyət göstərən muzeylərlə ictimaiyyət arasında əlaqənin möhkəmləndirilməsindən, görkəmli şəxsiyyətlərimiz, qədim tariximiz və zəngin mədəni irsimiz haqqında kollektivləri məlumatlandırmaqdan ibarətdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları da «Muzey günləri»ndə yaxından iştirak edirlər. Prokurorluq əməkdaşları iyunun 28-də «Naxçıvanqala» Tarix-Memarlıq Muzey Kompleksində, iyulun 26-da Açıq Səma Altında Muzeydə, avqustun 30-da Heydər Əliyev Muzeyində, sentyabrın 27-də Naxçıvan Dövlət Tarix Muzeyində, oktyabrın 25-də Ədəbiyyat Muzeyində, noyabrın 29-da «Xan Sarayi» Dövlət Tarix-Memarliq Muzeyində, dekabrın 27-də isə Naxçıvan Dövlət Xalça Muzeyində olmuşlar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

## Azərbaycan mötəbər beynəlxalq qurumların fəal iştirakçısıdır



Ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən 120-yə yaxın dövləti birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli əməkdaşlıq edir və uzun müddətdir Təşkilatın ali orqanlarında təmsil olunmaqla, xüsusi fəallığı ilə fərqlənir.

Noyabrın 23-dən 27-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Assosiasiyanın İllik yığıncaqları, o cümlədən BPA-nın rəhbər orqanları olan İcraiyyə Komitəsinin və Senatın iclasları keçirilmişdir.

Tədbirlərdə ölkəmizi Assosiasiyanın fəxri üzvü və senatoru, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinin tərkibinə Baş prokurorun müavini, Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi, BPA-nın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyev, həmçinin Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev, Baş prokurorun köməkçisi Orxan İsayev, ədliyyə nazirinin köməkçisi Adil Əbilov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Azad Cəfərli daxil edilmişdilər.

Konfransın təntənəli açılışında Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vitse-prezidenti, baş nazir, Dubay Əmirliyinin rəhbəri şeyx Məhəmməd bin Rəşid Al Maktum iştirak etmişdir. Mərasimdə Assosiasiyanın ərəb dilində saytının təqdimatı keçirilmişdir.

Mərasimin sonunda şeyx Məhəmməd bin Rəşid Al Maktum nümayəndə heyətlərinin başçıları ilə xatirə şəkli çəkdirmişdir.

Dünyanın 100-ə qədər dövlətindən 500-ə yaxın nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin qatıldığı bu mötəbər tədbirdə Dubayın Baş prokuroru Essam Essa Al Humaidan və Assosiasiyanın prezidenti Qerhard Yaroş giriş nitqi ilə çıxış etmişlər. Konfransda qanunun aliliyi, şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizə, beynəlxalq əməkdaşlıq, yuvenal ədliyyə, müasir İKT-lərin tətbiqi və digər aktual məsələlər ətrafında müzakirələr aparılmışdır. Müzakirələrdə Azərbaycan nümayəndə heyəti fəal iştirak etmiş, dövlət başçısı cənab İlham Əliyevin qəti siyasi iradəsi sayəsində və himayəsi ilə korrupsiyaya qarşı aparılan sərt mübarizə tədbirləri, bu mübarizə nəticəsində əldə olunmuş nailiyyətlər iştirakçıların diqqətinə çatdırılmışdır. Şəffaflığın təmin olunması ilə bağlı yaxşı təcrübələrə həsr olunmuş seminarda Azad Cəfərli ölkə rəhbərinin təşəbbüsü ilə ya-

radılmış, çox qısa zamanda səmərəli fəaliyyəti ilə artıq beynəlxalq miqyasda Azərbaycan brendinə çevrilmiş «ASAN xidmət»i, onların mərkəzlərinin fəaliyyəti mövzusunda çıxış etmişdir. Tədbir zamanı iştirakçılara əyani vəsaitlər paylanmışdır.

Senatın iclasında iştirak edən nazir Fikrət Məmmədov Assosiasiyanın gələcək inkişafı, mühüm və mürəkkəb məsələlərin həllində Senatın rolu, yeni perspektivlər və digər məsələlər üzrə çıxışında konkret təkliflər vermiş və onlar qəbul edilmişlər.

Tədbir çərçivəsində İcraiyyə Komitəsinin iclası keçirilmiş, iclasda təşkilati məsələlərə baxılmışdır. Ümumi Yığıncaqda İcraiyyə Komitəsi üzvlərinin seçkiləri keçirilmiş, habelə təltif olunma mərasimi təşkil olunmuşdur. Azərbaycan nümayəndə heyətinin üzvü Ruslan Hacıyev Assosiasiyanın işində fəal iştirakına görə BPA-nın Xüsusi Xidmətlər Sertifikatına layiq bilinmişdir.

Tədbirdə Assosiasiyada Antikorrupsiya Şəbəkəsinin yaradılması qərara alınmışdır. Azərbaycanın BPA-nın fəaliyyətinə verdiyi dəyərli töhfələr, eləcə də beynəlxalq antikorrupsiya mübarizəsində təşəbbüskarlığı nəzərə alınaraq həmin şəbəkənin və hazırlanacaq müvafiq saytın idarə edilməsi ölkəmizə etibar olunmuşdur.

Konfrans zamanı Azərbaycan nümayəndə heyəti BƏƏ, Rusiya, Ukrayna, Qazaxıstan və Gürcüstanın Baş prokurorları, bir sıra digər dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri, beynəlxalq təşkilatların məsul nümayəndələri ilə görüşlər keçirmiş, qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

***

## Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev dekabrın 8-dən 10-dək Amerika Birləşmiş Ştatların paytaxtı Vaşinqton şəhərində Dünya Bankının dəstəyi ilə Korrupsiyaya qarşı Mübarizə Aparan Təşkilatların Beynəlxalq Birliyinin (ICHA) 3-cü iclasında iştirak etmişdir.

Korrupsiyaya qarşı mübarizə aparan 130-dan çox ölkəni təmsil edən ixtisaslaşdırılmış qurumların və istintaq orqanlarının 300-ə yaxın yüksək vəzifəli şəxsləri, habelə beynəlxalq təşkilatların nümayəndələri və ekspertlərinin təmsil olunduğu tədbiri Dünya Bankının prezidenti Cim Yen Kim və Böyük Britaniya şahzadəsi Uilyam açaraq korrupsiya və rüşvətxorluğun bəşəriyyət üçün təhlükəyə çevrildiyini, insanları daha çox narahat edən bu sosial bəlaya qarşı birgə mübarizənin aparılmasının vacibliyini bildirmişlər.

İclasın korrupsiyaya qarşı mübarizədə hüquq-mühafizə orqanlarının fəaliyyəti adlı sessiyasında çıxış edən Kamran Əliyev ölkə başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə zəminində həyata keçirilən islahatlar, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) birgə səyləri ilə müvafiq olaraq cari ilin iyul və noyabr aylarında Bakı şəhərində keçirilmiş «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda konfransın və IACA-ya üzv və iştirakçı dövlətlərin Assambleyasının 3-cü sessiyasının əhəmiyyətini xüsusi vurğulamışdır.

Korrupsiyanın qarşısının alınmasına həsr edilmiş sessiyadakı çıxışında Kamran Əliyev ölkə rəhbərinin təşəbbüsü ilə yaradılaraq Azərbaycan brendinə çevrilmiş «ASAN xidmət» mərkəzlərinin fəaliyyətinə dair iştirakçılara ətraflı məlumat vermişdir. Xidmətin vətəndaş məmnunluğuna




yönələn fəaliyyəti, korrupsiyanın qarşısının alınmasında önəmli rolu və bütövlükdə bu sahədə ölkəmizdə aparılan işlər tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanaraq təqdir olunmuşdur.

Tədbirdə Kamran Əliyev Dünya bankının və Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF) yüksək rəsmiləri ilə ikitərəfli görüşlər keçirmiş, qarşılıqlı əməkdaşlıq məsələləri barədə müzakirələr aparmışdır.

Bundan başqa, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev dekabrın 11-dək 12-dək Fransanın paytaxtı Paris şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin (UNODC), İqtisadi inkişaf və Əməkdaşlıq Təşkilatı (OECD), Dünya Bankı, Beynəlxalq Şəffaflıq Təşkilatının dəstəyi ilə korrupsiyaya qarşı mübarizədə ən müsbət təcrübələr və gələcək əməkdaşlıq adlı Simpoziumda iştirak etmişdir.

Tədbirdə korrupsiyaya qarşı mübarizə sahəsində ən qabaqcıl təcrübəyə malik olan 50-yə yaxın beynəlxalq təşkilatların nümayəndələri çıxışlarında uzun illər əldə etdikləri təcrübəni bölüşmüşlər.

Simpoziumda çıxış edən Kamran Əliyev Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində aparılan islahatlar, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər, «Qaynar xətt» əlaqə mərkəzinin fəaliyyəti, beynəlxalq əməkdaşlıq, xüsusilə Baş İdarənin Litva Xüsusi İstintaq İdarəsi ilə birgə həyata keçirdiyi və Avropa standartlarına uyğun şəkildə təşkilati quruluş prosesinə dəstək vermək məqsədi daşıyan Tvinninq Proqramının, korrupsiyanın qarşısının alınmasında önəmli rolu olan «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti barədə iştirakçılara ətraflı məlumat vermiş, onların çoxsaylı suallarını cavablandırmışdır.

Tədbirdə Litva Respublikasının Xüsusi İstintaq İdarəsinin rəis müavini Zidrunas Bartkus öz çıxışında qeyd edilən Tvinninq Proqramının Avropadakı layihələr sırasında ən uğurlu olmasını, bunun Azərbaycanda korrupsiyaya qarşı mübarizənin güclü siyasi iradəyə söykəndiyinə dəlalət edən amil olduğunu xüsusi vurğulamışdır.

Simpozumun sonunda tədbir iştirakçılarına Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən bukletlər paylanmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## MDB ölkələrinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının növbəti iclası keçirilmişdir



Sentyabrın 25 və 26-da Tacikistanın paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının növbəti iclası keçirilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini – Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. İclasda cinayətkarlıqla mübarizə, insan hüquqlarının müdafiəsi, habelə korrupsiyaya qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılmış, əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

***

## Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları regional seminarda iştirak etmişlər

Dekabrın 16-dan 17-dək Batumi şəhərində Gürcüstan hökumətinin dəstəyi ilə ATƏT katibliyi, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının Antikorrupsiya Şəbəkəsi tərəfindən təşkil edilmiş «Korrupsiyanın qarşısının alınması» mövzusunda regional seminar keçirilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının da qatıldığı tədbirdə Cənubi Qafqaz və Şərqi Avropa ölkələrinin nümayəndələri ilə yanaşı nüfuzlu beynəlxalq təşkilatların ekspertləri tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində tətbiq edilən müasir inzibati və preventiv tədbirlər, antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, institusional yeniliklər və digər məsələlər ətrafında çıxışlar edilmişdir.

Seminarda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru Samir Mahmudov çıxış edərək korrupsiyanın qarşısının alınması, şəffaflığın artırılması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər, «hüquqi şəxslərin cinayət məsuliyyəti», «sövdələşmə», «qanunsuz varlanma» məsələləri üzrə milli qanunvericilikdə edilən dəyişiklər haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermiş, onları maraqlandıran sualları cavablandırmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Elm-Tədris Mərkəzinin nümayəndəsi Peşəkar Hüquqşünaslar üçün İnsan Hüquqları Təlimi Avropa Proqramının (HELP) sertifikatına layiq görülmüşdür



Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş Direktorluq tərəfindən «HELP» Proqramı (European Programme for Human rights Education for Legal Professionals – Peşəkar Hüquqşünaslar üçün İnsan Hüquqları Təlimi Avropa Proqramı) çərçivəsində 2014-cü il noyabr ayının 3-dən 7-dək Fransanın Strasburq şəhərində Təlimçilər üçün Təlim (ToT) kursu təşkil edilmişdir.

Kursun məqsədi prokuror, hakim, vəkil və digər praktik hüquqşünaslar üçün «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyanın və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsi üzrə təlimlərin keyfiyyətli təşkili, bu kimi kursların informasiya texnologiyalarından istifadə edilməklə e-təhsil (məsafəli təhsil) formasında həyata keçirilməsi, bu sahədə ən son yeniliklər barədə təlimatlandırılmasından ibarət idi.

Tədbirdə Avropa Şurasına üzv 35 ölkənin 50 nümayəndəsi iştirak etmişdir. Azərbaycan Prokurorluğundan Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Günay Əyyubova dəvət olunmuşdur.

Dörd günlük təlim prosesində Avropa Məhkəməsinin son presedent hüququnun bəzi aspektləri, bu hüququn milli hüquq sisteminə, milli ehtiyaclara uyğunlaşdırılması, öyrənilməsi üçün milli səviyyədə təlim ehtiyaclarının müəyyən edilməsi, ümumi prinsipləri, məqsədləri, tədris modeli və materialları, bu sahədə xüsusi kursların, təlim proqramlarının təşkili, işçi qruplar, vəzifələr və qiymətləndirmənin aparılması, informasiya texnologiyalarından istifadə etməklə məsafəli təhsil kursunun təşkili, təlimçinin bu kursda rolu, «HELP» Moodle Platformasından, eləcə də «HUDOC» portalının yeni imkanları və bu imkanlardan istifadə qaydaları tədris edilmişdir.

Günay Əyyubova Avropa Məhkəməsinin presedent təcrübəsinin öyrədilməsi sahəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti, o cümlədən ixtisasartırma kurslarının təşkilində tətbiq olunan forma və metodlar barədə məlumat vermiş və bu təcrübə tədbirə məsul şəxslər tərəfindən müsbət dəyərləndirilmiş, növbəti sessiyalarda iştirakçılara Azərbaycan təcrübəsi nümunə kimi xatırladılmışdır.

Tədbirin sonunda iştirakçılara fəaliyyətlərinə uyğun xüsusi mövzular üzrə «HELP» Moodle Platformasında şərti məsafəli tədris kursunun təşkilinə dair tapşırıq verilmişdir. Günay Əyyubova üçün müəyyən edilmiş tapşırıq «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 5-ci maddəsinin 1 (f) bəndində nəzərdə tutulan hüquq – «şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması» və sığınacaqlar üzrə 25 nəfər prokuror üçün tədris proqramının hazırlanmasından ibarət olmuşdur. Qeyd olunan mövzu üzrə «HELP» Moodle Platformasında şərti e-tədris kursu təşkil edilmiş, bu zaman xüsusi elektron səhifədə kursun proqramı hazırlanmış, mövzu

üzrə materiallar, videolar, linklər yerləşdirilmiş, diskussiya üçün forum yaradılmış və müzakirə üçün foruma mövzular yazılmış, müxtəlif formalarda (multiple choice, true/false, short answer) testlər və sorğu anketi hazırlanmış, iştirakçı qismində konkret şəxslər cəlb edilmişdir. Bu iş Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş Direktorluğu tərəfindən müsbət qiymətləndirilmiş və Günay Əyyubova «HELP üzrə təlimçi» sertifikatına layiq görülmüşdür.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

***

## Baş Prokurorluğun əməkdaşı Orta Asiya və Cənubi Qafqaz ölkələri prokurorlarının ikinci regionlararası iclasında iştirak etmişdir




Dekabrın 9-11-da Gürcüstanın Tbilisi şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsi (UNODC) təşkilatçılığı və Gürcüstanın Baş Prokurorluğunun dəstəyi ilə Orta Asiya və Cənubi Qafqaz ölkələri prokurorlarının İkinci regionlararası iclası keçirilmişdir.

Həmin iclas BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsinin «Orta Asiya və Cənubi Qafqaz ölkələrində transmilli mütəşəkkil cinayətkarlığa qarşı prokurorlar və mərkəzi orqanlarının şəbəkəsinin qurulması/möhkəmləndirilməsi» təşəbbüsü çərçivəsində keçirilmişdir.

İclasda gündəliyi – Mütəşəkkil qruplar tərəfindən törədilmiş transmilli cinayətlərin istintaqı zamanı elektron sübutların sorğu və təqdim edilməsi sahəsində təcrübənin mübadiləsi olmuşdur.

Tədbirdə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsinin baş hüquqi müşaviri Olqa Zudova, Orta Asiya ölkələrindən – Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistanın, Cənubi Qafqaz ölkələrinin, o cümlədən Gürcüstanın Baş prokurorunun müavini İrakliy Şotadze və digər rəhbər işçiləri, Böyük Britaniya, Almaniya, Niderland, Norveç və ABŞ hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasından prokurorluq orqanlarından Baş Prokurorluğun Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Novruz Hacıyev, Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru Anar Tağıyev və Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsinin rəis müavini Emin Məmmədov təmsil olunmuşlar.

İclasın üçüncü sessiyasında Anar Tağıyev «Mümkün elektron sübutların rəsmi sorğusu və təqdim edilməsi sahəsində Milli qanunvericilik və təcrübə (qarşılıqlı hüquqi yardım mexanizmi vasitəsilə)» mövzusu üzrə Azərbaycan Respublikasının qanunvericiliyi, sübutların mübadiləsi ilə əlaqədar qoşulduğu beynəlxalq konvensiyalar, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzində keçirilən məhkəmə kompüter ekspertizaları, elektron sübutların alınması və saxlanılması mexanizmləri barədə çıxış etmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787) 98-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 98.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**«98.4.** Gömrük auditi və onun nəticələrinin rəsmiləşdirilməsi «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.».

**2.** 98.8-ci və 98.10-cu maddələrin ikinci cümlələrinə «qərarının surəti» sözlərindən sonra «, auditin sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarış və auditi aparan şəxsin xidməti vəsiqəsi» sözləri əlavə edilsin.

**3.** 98.9-cu maddənin birinci cümləsi çıxarılsın.

**4.** 98.13-cü maddə ləğv edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1035-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8,

maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466; Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 948-IVQD nömrəli, 30 may tarixli 972-IVQD, 974-IVQD nömrəli, 20 iyun tarixli 987-IVQD, 998-IVQD və 1007-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 348-8-ci maddə əlavə edilsin:

«**Maddə 348-8. Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanunvericiliyin pozulması**

**348-8.1.** Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmayan yoxlamanın keçirilməsinə görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək miqdarda cərimə edilir.

**348-8.2.** Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmış yoxlama barədə məlumatın verilməsi qaydalarının pozulmasına, yəni:

**348-8.2.1.** sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmış yoxlamanın nəticələri barədə məlumatın tam, düzgün və ya vaxtında müvafiq icra hakimiyyəti orqanına verilməməsinə;

**348-8.2.2.** sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmış və hər hansı səbəbdən aparılmamış yoxlama barədə məlumatın həmin səbəblər göstərilməklə vaxtında müvafiq icra hakimiyyəti orqanına verilməməsinə;

**348-8.2.3.** yoxlayıcı orqan tərəfindən yoxlamanın dayandırılması və ya sahibkarın fəaliyyətinə məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarla bağlı məlumatın müvafiq icra hakimiyyəti orqanına verilməməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan min manatadək miqdarda cərimə edilir.

**348-8.3.** Bu Məcəllənin 348-8.1-ci və 348-8.2-ci maddələrində nəzərdə tutulan hallar istisna olmaqla, yoxlayıcı orqan və ya yoxlayıcı tərəfindən «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda yoxlamalarla bağlı müəyyən edilmiş tələblərin və prosedurların pozulmasına görə –

vəzifəli şəxslər beş yüz manatdan min beş yüz manatadək miqdarda cərimə edilir.

**348-8.4.** Sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsinə, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsinə və sahibkarlıq fəaliyyəti üçün istifadə olunan əraziyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olmağa görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək miqdarda cərimə edilir.».

**2.** 360.1-ci maddədə «348-7,» rəqəmlərindən sonra «348-8,» rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1027-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 15.3-cü maddədə «hallarda» sözündən sonra «, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda» sözləri əlavə edilsin.

**2.** 21.1-ci və 21.2-ci maddələrdə «3» rəqəmi «10» rəqəmi ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1079-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 15-ci maddə üzrə:

**1.1.** 5-ci hissədən «vəzifəli şəxslərinin» sözləri çıxarılsın və həmin hissədə «öz səlahiyyətləri çərçivəsində qəbul etdikləri» sözləri «qəbul etdiyi» sözləri ilə əvəz edilsin;

**1.2.** 6-cı hissədən «vəzifəli şəxslərinin» sözləri çıxarılsın.

**2.** 235-ci maddənin 2-ci hissəsinin birinci cümləsində «və onun vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində qəbul etdikləri» sözləri «qəbul etdiyi» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1042-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Siyasi partiyalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

«Siyasi partiyalar haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 12-1.1.2-ci maddədə «hər il maliyyə hesabatını müvafiq icra hakimiyyəti orqanına» sözləri «bu Qanunun 21.2-ci maddəsində nəzərdə tutulmuş maliyyə hesabatını və 21.4-1-ci maddəsində nəzərdə tutulmuş məlumatları və sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına» sözləri ilə əvəz edilsin.

**2.** 17-1.6-cı maddədə «Azərbaycan Respublikasının Qanununa» sözlərindən sonra «və bu Qanuna» sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 18-1-ci maddə əlavə edilsin:

**«Maddə 18-1. Üzvlük haqqı**

Üzvlük haqqı siyasi partiyanın üzvləri tərəfindən siyasi partiyanın nizamnaməsinə uyğun olaraq pul formasında mütəmadi ödənilən vəsaitdir. Üzvlük haqqının məbləğindən artıq ödənişlər ianə hesab edilir.».

**4.** Aşağıdakı məzmunda 19.7-ci maddə əlavə edilsin:

**«19.7.** Şəxsin bir və ya bir neçə partiyaya il ərzində verdiyi ianələrin yuxarı həddi on min manatdan artıq ola bilməz.».

**5.** 21-ci maddə üzrə:

**5.1.** 21.1-ci maddədə «partiyalar» sözündən sonra «bu Qanunla müəyyən edilmiş tələbləri nəzərə almaqla» sözləri əlavə edilsin;

**5.2.** 21.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

«Siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir.»;

**5.3.** aşağıdakı məzmunda 21.4-1-ci və 21.6-cı maddələr əlavə edilsin:

**«21.4-1.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının müraciəti əsasında siyasi partiyalar maliyyə fəaliyyətlərinə dair əlavə məlumatları və sənədləri təqdim edirlər.»;

**«21.6.** Siyasi partiyaların illik maliyyə hesabatları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində yerləşdirilir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1050-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

«Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«6.5.** Bu Qanunun 4.0.9-cu maddəsində nəzərdə tutulmuş təşkilatlar tərəfindən bu Qanunun 9-12-ci maddələrinin tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.».

**2.** 17.8-ci maddədən «bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş halda nəzarətin həyata keçirilməsi qaydalarına,» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1039-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq, «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 243; 1995, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 385, № 6, maddə 493; 1998, № 2, maddə 70; 2000, № 12, maddə 835; 2001, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002, № 1, maddə 4, № 8, maddə 463; 2004, № 7, maddə 505; 2005, № 3, maddə 152, № 10, maddə 874; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 3, maddə 219, № 4, maddə 319, № 11, maddə 933, № 12, maddələr 1006, 1017, 1029; 2007, № 7, maddə 712, № 8, maddə 753, № 11, maddə 1053; 2008, № 3, maddə 158, № 8, maddələr 699, 701, № 10,

maddə 886; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 166, № 4, maddə 276, № 11, maddə 935; 2011, № 4, maddə 270, № 6, maddə 474, № 7, maddə 580; 2012, № 7, maddə 647; 2013, № 5, maddə 465, № 6, maddə 619, № 7, maddə 793; 2014, № 4, maddə 323) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar» sözləri «Pasportlar» sözü ilə əvəz edilsin.

**2.** Preambuladan «, xaricə daimi yaşayış üçün gedən vətəndaşların hüquqi vəziyyəti, əcnəbilərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydaları» sözləri çıxarılsın.

**3.** 1-ci, 2-ci, 11-ci–15-ci maddələr ləğv edilsin.

**4.** 9-cu maddənin ikinci hissəsində «Bu Qanunun 1-ci maddəsinin birinci hissəsinin 2-ci və 3-cü bəndlərində, ikinci hissəsində nəzərdə tutulmuş hallarda» sözləri «Vətəndaşın ölkədən getmək hüququ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində göstərilmiş hallara əsasən müvəqqəti məhdudlaşdırıldıqda» sözləri ilə əvəz edilsin.

**5.** 16-cı maddədən «, yaxud ölkədən getməyin və ölkəyə gəlməyin bu Qanunla müəyyənləşdirilmiş qaydaları pozulduqda» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1055-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 27-ci maddəsinin XIII-I hissəsinin birinci abzasında:

**1.1.** birinci cümlədə «məlumatı» sözündən sonra «, habelə bu Qanunun 27-ci maddəsinin VI-I hissəsində nəzərdə tutulmuş məlumatları» sözləri əlavə edilsin;

**1.2.** ikinci cümlədə «üç» sözü «bir» sözü ilə əvəz edilsin.

**2.** 50-ci maddədə:

**2.1.** III hissədə «seçməlidir ki,» sözlərindən sonra «eyni zolaqda özündən» sözləri əlavə edilsin.

**2.2.** IV hissənin birinci cümləsində «sürücüləri» sözündən sonra «eyni zolaqda» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1072-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 48.2.1-ci maddədən «və məhkəmə baxışından keçə» sözləri çıxarılsın.

**2.** 48.3-cü maddədən «, habelə cinayət işinin ona təqdim olunmuş materialları ilə tanış olduğu müddət» sözləri çıxarılsın.

**3.** 158.1-ci maddədə «və ya az ağır cinayət törədilməsinə görə 2 (iki) ay həddində, ağır və xüsusilə ağır cinayət törətməsinə görə isə 3 (üç) ay» sözləri «cinayət törədilməsinə görə 2 (iki) ay həddində, az ağır cinayət törədilməsinə görə 3 (üç) ay həddində, ağır və xüsusilə ağır cinayət törədilməsinə görə isə 4 (dörd) ay» sözləri ilə əvəz edilsin.

**4.** 158.3-cü maddədə «cinayət işinin məhkəməyə göndərildiyi» sözləri «məhkəməyə göndərilmiş cinayət işi üzrə qətimkan tədbiri ilə bağlı məsələyə baxıldığı» sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2011-ci il 10 oktyabr tarixli qərarına əsasən 158.4-cü maddə 2012-ci il martın 1-dən qüvvədən düşmüş hesab edildiyi üçün həmin maddə çıxarılsın.

**6.** 159.7.2-ci maddədə «6 (altı)» sözləri «7 (yeddi)» sözləri ilə, 159.7.3-cü maddədə «9 (doqquz)» sözləri «10 (on)» sözləri ilə, 159.7.4-cü maddədə «12 (on iki)» sözləri «13 (on üç)» sözləri ilə əvəz edilsin.

**7.** 163.5-ci maddənin üçüncü cümləsi çıxarılsın, 163.5.1-ci və 163.5.2-ci maddələr isə ləğv edilsin.

**8.** 164.6-cı maddənin üçüncü cümləsi çıxarılsın, 164.6.1-ci və 164.6.2-ci maddələr isə ləğv edilsin.

**9.** 218.2.3-cü maddədə «3 (üç)» sözləri «4 (dörd)» sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2011-ci il 10 oktyabr tarixli qərarına əsasən 218.4-cü maddənin «Təqsirləndirilən şəxsin və onun müdafiəçisinin cinayət işinin materialları ilə tanış olma müddəti cinayət işi üzrə ibtidai istintaqın müddətinə daxil deyil» müddəası 2012-ci il martın 1-dən qüvvədən düşmüş hesab edildiyi üçün həmin maddənin birinci cümləsi çıxarılsın.

**11.** 218.7.4-cü maddədə «4 (dörd)» sözləri «5 (beş)» sözləri ilə əvəz edilsin.

**12.** 218.8.2-ci maddədə «2 (iki)» sözləri «3 (üç)» sözləri ilə əvəz edilsin.

**13.** 218.10.2-ci maddədə «9 (doqquz)» sözləri «10 (on)» sözləri ilə əvəz edilsin.

**14.** 218.10.3-cü maddədə «12 (on iki)» sözləri «13 (on üç)» sözləri ilə əvəz edilsin.

**15.** 218.10.4-cü maddədə «18 (on səkkiz)» sözləri «19 (on doqquz)» sözləri ilə əvəz edilsin.

**16.** 290.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Təqsirləndirilən şəxs barəsində həbs və ya ev dustaqlığı qətimkan tədbiri seçilmişdirsə, ittiham aktı həmin qətimkan tədbirinin müddətinin bitməsinə

ən azı 20 gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir.».

**17.** 290.2.7-ci maddədə «seçilməsini» sözündən sonra «və bu Məcəllənin 290.1-ci maddəsində nəzərdə tutulmuş müddətə riayət olunmasını» sözləri əlavə edilsin.

**18.** 290.5.2-ci maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 290.5.3-cü maddə əlavə edilsin:

«**290.5.3.** təqsirləndirilən şəxsin həbsdə və ya ev dustaqlığında saxlanılmasına bu Məcəllənin 155.1-155.3-cü maddələrində nəzərdə tutulan əsaslar mövcud olduqda, bu Məcəllənin 292.1-1-ci maddəsində nəzərdə tutulmuş müddətin təmin edilməsi məqsədi ilə həmin qətimkan tədbirinin müddətinin uzadılması barədə məhkəməyə təqdimat vermək.».

**19.** Aşağıdakı məzmunda 292.1-1-ci maddə əlavə edilsin:

«**292.1-1.** Təqsirləndirilən şəxs barəsində həbs və ya ev dustaqlığı qətimkan tədbiri seçilmişdirsə, cinayət işi həmin qətimkan tədbirinin müddətinin bitməsinə ən azı 15 gün qalmış məhkəməyə göndərilməlidir.».

**20.** Aşağıdakı məzmunda 298.6-cı maddə əlavə edilsin:

«**298.6.** Cinayət işinin həcminin böyüklüyü, təqsirləndirilən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar məhkəmənin hazırlıq iclasının keçirilməsi müddəti uzadıldıqda, məhkəmə hazırlıq iclasına qədər bu Məcəllənin 155.1-155.3-cü maddələrində nəzərdə tutulmuş əsasların mövcudluğunu araşdıraraq, həbs və ya ev dustaqlığı qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması, dəyişdirilməsi və ya ləğv edilməsi barədə qərar qəbul edir.».

**21.** 448.5-ci maddə ləğv edilsin.

**22.** 448.7-ci maddədən «bu Məcəllənin 448.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olunmaqla,» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1074-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344; Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 949-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7.0.31-ci maddədə «vəkalətnaməyə malik olan şəxsdir» sözləri «etibarnaməsi olan vəkil, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndə qismində dəvət etdiyi digər şəxs və ya zərər çəkmiş şəxsin qohumudur» sözləri ilə əvəz edilsin.

**2.** 19.2-ci maddədə «və ya onun qanuni nümayəndəsi, şübhəli, yaxud təqsirləndirilən şəxsin qanuni nümayəndəsi, habelə mülki cavabdeh» sözləri «, mülki cavabdeh və ya onların qanuni nümayəndələrinin» sözləri ilə əvəz edilsin, «özlərinin» sözündən

sonra «bu Məcəllə ilə müəyyən edilmiş qaydada» sözləri əlavə edilsin.

**3.** 92-ci maddə üzrə:

**3.1.** 92.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

«**92.5.** Müdafiəçidən imtina etmiş şübhəli və ya təqsirləndirilən şəxsə bu Məcəllənin 92.3.1-ci maddəsinə əsasən sonradan müdafiəçi təyin edilməsi həmin vaxtadək aparılmış prosessual hərəkətlərin təkrarlanmasını məcburi edən hal deyil.».

**3.2.** 92.13-cü maddədən «məhkəmə istintaqı başlananadək» sözləri çıxarılsın.

**4.** 102.2-ci maddə üzrə:

**4.1.** birinci cümlədə «zərər çəkmiş şəxsin,» sözləri çıxarılsın;

**4.2.** aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

«Cinayət prosesində zərər çəkmiş şəxsin nümayəndəsi qismində zərər çəkmiş şəxs tərəfindən verilmiş və notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkillər və ya zərər çəkmiş şəxsin qohumları iştirak edə bilərlər.».

**5.** 114.1.4-cü maddədə «təmsil etdiyi» sözlərindən sonra «zərər çəkmiş şəxs,» sözləri əlavə edilsin.

**6.** 340-cı maddə üzrə:

**6.1.** 340.2-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«İşdə bir neçə zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki iddiaçı, təqsirləndirilən şəxs, mülki cavabdeh iştirak etdikdə, məhkəmə iclasında sədrlik edən öz çıxışlarının ardıcıllığını müəyyən etmək üçün onlara vaxt verir.».

**6.2.** aşağıdakı məzmunda 340.2-1-ci maddə əlavə edilsin:

«**340.2-1.** Dövlət ittihamı bir neçə dövlət ittihamçısı tərəfindən müdafiə edildikdə məhkəmə çıxışı onların öz razılığına əsasən müəyyən edilən dövlət ittihamçısı tərəfindən səsləndirilir. İşdə təqsirləndirilən şəxsin bir neçə müdafiəçisi, zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının və ya mülki cavabdehin bir neçə nümayəndəsi olduqda məhkəmə çıxışını müdafiə və ya təmsil olunan şəxsin müəyyən etdiyi müdafiəçi və ya nümayəndə səsləndirir. Göstərilən hallarda müvafiq məhkəmə çıxışından sonra məhkəmə iclasında fasilə elan edilmədən digər dövlət ittihamçısı, müdafiəçi və ya nümayəndə məhkəmə çıxışına əlavələr səsləndirə bilər.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1088-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq, «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununu «Terrorçuluğa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 mart tarixli 921-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81) 1.0.4-cü maddəsinə «214,» rəqəmlərindən sonra «214-2, 214-3,» rəqəmləri, «219-1,» rəqəmlərindən sonra «226, 227,» rəqəmləri əlavə edilsin, «və 282-ci» sözləri «, 282 və 283-1-ci» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1087-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 17-ci maddədə «xarici hüquqi şəxslər» sözlərindən sonra «və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri» sözləri əlavə edilsin.

**2.** 36.1-ci maddədə «qorunması qaydaları,» sözlərindən sonra «xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyət göstərməsi qaydaları,» sözləri, «inzibati xətalara görə» sözlərindən sonra «, habelə hüquqi şəxslərin dövlət reyestri üçün zəruri məlumatların verilməməsinə, qeyri-hökumət təşkilatları haqqında və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulmasına görə» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1089-IVQD

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 4.2-1-ci maddə əlavə edilsin:

**«4.2-1.** Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər.».

**2.** 5.4.4-1-ci maddəyə «(təmsilçiləri)» sözündən sonra «, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin qanuni təmsilçisi (təmsilçiləri)» sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 6.1.1-1-ci maddə əlavə edilsin:

**«6.1.1-1.** Xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində bu Qanunun 6.1.1-ci maddəsində göstərilən məlumatlardan başqa, həmçinin onu yaratmış təşkilatın qeydiyyatını aparmış qurumun adı, filial və ya nümayəndəliyin hüquqi ünvanı, fəaliyyətinin predmeti, rəhbərinin səlahiyyətləri göstərilməlidir.».

**4.** 6.1.5-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və ya nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir;».

**5.** Aşağıdakı məzmunda 6.1.6-cı maddə əlavə edilsin:

**«6.1.6.** xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin rəhbəri müavininin təyin edilməsi barədə sənəd.».

**6.** 12.8.2-ci maddəyə «edilməsi» sözündən sonra «və qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi» sözləri əlavə edilsin.

**7.** Aşağıdakı məzmunda 12.8.3-1-ci maddə əlavə edilsin:

**«12.8.3-1.** qeyri-hökumət təşkilatına və xarici dövlətlərin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılması və bərpa edilməsi, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması barədə məlumatlar;».

**8.** 12.11-ci maddədə «hüquqi şəxsləri» sözləri «qurumları» sözü ilə əvəz edilsin.

**9.** 14.2.3-cü maddəyə «fəaliyyət ərazisi» sözlərindən sonra «, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi» sözləri əlavə edilsin.

**10.** 14.2.5-ci maddəyə «səlahiyyət müddəti» sözlərindən sonra «, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi» sözləri, «dayandırılmasına» sözündən sonra «və bərpa edilməsinə» sözləri əlavə edilsin.

**11.** Aşağıdakı məzmunda 16.10-cu maddə əlavə edilsin.

**«16.10.** Xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1078-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.0.17-ci maddədə «vətənə qayıdış şəhadətnaməsi,» sözlərindən sonra «Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən səyahət sənədi,» sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 15.6-cı maddə əlavə edilsin:

«**15.6.** Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan və sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda verilən səyahət sənədi onların ölkə hüdudlarından kənara çıxması üçün əsasdır.».

**3.** 21.1-ci maddədə «alınmalıdırlar» sözündən sonra «(bu barədə ölkəyə daxil olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət sərhədinin buraxılış məntəqələrində Azərbaycan, rus və ingilis dillərində olan müvafiq bildiriş verilir)» sözləri əlavə edilsin.

**4.** 41-ci maddəyə aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

«**Qeyd:** Bu Məcəllənin 41.1.2-ci, 41.1.6-cı və 41.1.8-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.».

**5.** 46-cı maddəyə aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

«**Qeyd:** Bu Məcəllənin 46.1.2-ci, 46.1.9-cu və 46.1.11-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.».

**6.** 53-cü maddəyə aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

«**Qeyd:** Bu Məcəllənin 53.1.2-ci, 53.1.13-cü və 53.1.15-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.».

**7.** Aşağıdakı məzmunda 64.0.6-1-ci və 80.6-1-ci maddələr əlavə edilsin:

«**64.0.6-1.** Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə xidmətə və ya işə dəvət olunan hərbi qulluqçulara və mütəxəssislərə;

**80.6-1.** Sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən səyahət sənədi verilir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1071-IVQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694; 2013, № 5, maddə 458) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 20.1-ci maddəyə «tətbiq edilmir» sözlərindən sonra «, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul olunmur» sözləri əlavə edilsin.

**2.** 20.2-ci maddədə «Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma cinayət təqibi başa çatanadək tətbiq olunmur» sözləri «cinayət təqibi başa çatanadək Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq olunmur, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir» sözləri ilə əvəz edilsin.

**3.** 20.3-cü maddənin birinci cümləsinə «tətbiq olunmur» sözlərindən sonra «, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir» sözləri əlavə edilsin.

**4.** 20.7-ci maddə ləğv edilsin.

**5.** 21.3-cü maddədə «etibarsız hesab edilir» sözləri «ləğv edilir» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1066-IVQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378; 1998, № 1, maddələr 15, 16; 1999, № 4, maddə 228, № 5, maddə 286; 2001, № 6, maddələr 362, 363, № 11, maddə 694, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddələr 199, 212, № 7, maddə

507, № 8, maddə 596; 2005, № 10, maddə 871, № 12, maddə 1093; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 6, maddə 561, № 8, maddə 756, № 11, maddələr 1053, 1078; 2008, № 3, maddə 156, № 6, maddələr 462, 481, № 8, maddə 709, № 12, maddə 1048; 2010, № 3, maddə 171, № 6, maddə 482; 2011, № 2, maddə 71) 23-cü maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

«**3.** Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə qulluq edən hərbi qulluqçular (hərbi attaşelər, hərbi nümayəndələr və onların köməkçiləri istisna olmaqla), habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq hərbi təlimlərə, antiterror, xilasetmə və xidməti zərurətlə bağlı digər tədbir və ya əməliyyatlara cəlb olunan müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanlarının rəsmiləşdirilmiş icazəsi olduqda Azərbaycan Respublikasından gedə bilərlər.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1053-IVQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Əmək Məcəlləsini Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

«**4.** İşəgötürənlər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 64-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, işə cəlb etmək istədikləri hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs üçün həmin Məcəllə ilə müəyyən edilmiş qayda və şərtlərlə iş icazəsi almalıdırlar.».

**2.** Aşağıdakı məzmunda 5-6-cı hissələr əlavə edilsin:

«**5.** Əməkçi miqrantların əmək fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmayan məsələlər bu Məcəllə ilə tənzimlənir.

**6.** İşəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1059-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununu nəzərə alaraq **qərara alır:**

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.4-cü maddənin birinci cümləsində «keçirilə bilər» sözləri «keçirilir» sözü ilə əvəz edilsin;

**2.** 8.3-cü maddədə «edə bilər» sözləri «edir» sözü ilə əvəz edilsin;

**3.** 9.3.8-ci maddədə «məsələləri» sözü «tənzimlənmə məsələləri» sözləri ilə əvəz edilsin;

4. 15-ci maddədə «Azərbaycan Respublikasının qanunvericiliyi» sözləri «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu» sözləri ilə əvəz edilsin;

**5.** 25.1-ci maddənin birinci və ikinci cümlələrində və 25.2-ci maddənin birinci cümləsində «keçirilə bilər» sözləri «keçirilir» sözü ilə əvəz edilsin;

**6.** 26.4-cü maddədə «edilə bilər» sözləri «edilir» sözü ilə əvəz edilsin;

**7.** 26.6-cı maddədə «qanunvericiliyi» sözü «Mülki Prosessual Məcəlləsi» sözləri ilə əvəz edilsin;

**8.** 27.1-ci maddədə «edilə bilərlər» sözləri «edilirlər» sözü ilə əvəz edilsin;

**9.** 28-ci maddədə «qanunvericiliyinə» sözü «Mülki Prosessual Məcəlləsinə» sözləri ilə əvəz edilsin;

**10.** 30.3-cü maddədə «edilə bilər» sözləri «edilir» sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1101-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**«15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

«15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 83) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci maddə üzrə:

**1.1.** «doğulduğu tarix,» sözlərindən sonra «doğulduğu yer,» sözləri əlavə edilsin;

**1.2.** aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«5 yaşı tamam olmuş vətəndaşa verilən fərdi identifikasiya kartında bu məlumatlardan əlavə, vətəndaşın fotoşəkli də yerləşdirilir.».

**2.** 2.2.3-cü, 2.2.5-ci və 2.3-cü maddələr ləğv edilsin.

**3.** 3.1-ci maddə üzrə:

**3.1.** ikinci cümlədə «15» rəqəmləri «5» rəqəmi ilə əvəz edilsin;

**3.2.** aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

«5 yaşı tamam olmuş vətəndaşa verilən fərdi identifikasiya kartı vətəndaşın 15 yaşı tamam olanadək etibarlıdır.».

**4.** 3.2-ci maddənin ikinci cümləsində «vətəndaşın qan qrupunun və gözlərinin rənginin göstərildiyi tibbi arayış, doğum haqqında şəhadətnamə (bu Qanun qüvvəyə minənədək doğum haqqında şəhadətnamə verilmişdirsə), qanuni nümayəndənin şəxsiyyət vəsiqəsi və qanuni nümayəndə olduğunu təsdiq edən sənəd» sözləri «15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə»də nəzərdə tutulan sənədlər» sözləri ilə əvəz edilsin.

**5.** Aşağıdakı məzmunda 3.3-1-ci maddə əlavə edilsin:

**«3.3-1.** 5 yaşı tamam olmuş vətəndaşa fərdi identifikasiya kartının verilməsinə və ya dəyişdirilməsinə görə, habelə fərdi identifikasiya kartının sənədlər müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 3 və ya 1 iş günü müddətində verilməsinə və ya dəyişdirilməsinə görə «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.».

**6.** 3.4-cü maddədə «Bu Qanunun» sözləri «Vətəndaşın 5 yaşı tamam olduqda, yaxud bu Qanunun» sözləri ilə əvəz edilsin.

**7.** 3.6-cı maddə üzrə:

**7.1.** birinci cümlədə «3.3-cü maddəsində» sözləri «3.3-cü, 3.3-1-ci və ya 3.6-1-ci maddələrində» sözləri ilə əvəz edilsin;

**7.2.** ikinci cümlədə «daxil etmiş orqana» sözləri «dəyişdirmək səlahiyyətinə malik orqana və ya tibb müəssisəsinə» sözləri ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 3.6-1-ci maddə əlavə edilsin:

**«3.6-1.** Fərdi identifikasiya kartının üzərində göstərilən məlumatlarda səhv müəyyənləşdirildikdə, həmin kart müvafiq icra hakimiyyəti orqanına daxil olduğu gündən 1 gün müddətində dövlət rüsumu alınmadan dəyişdirilir.».

**9.** 3.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«3.7.** Fərdi identifikasiya kartının elektron daşıyıcısına (çipinə) daxil edilmiş məlumatların dəyişdirilməsinə, habelə 5 yaşı tamam olmamış vətəndaşa bu Qanunun 3.3-cü maddəsində göstərilən müddətdə fərdi identifikasiya kartının verilməsinə və dəyişdirilməsinə görə dövlət rüsumu ödənilmir.».

**10.** 3-cü maddənin «Qeyd» hissəsində «2015-ci il dekabrın 1-dək 15» sözləri «Bu Qanun qüvvəyə minənədək 16» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1090-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununu nəzərə alaraq **qərara alır:**

«Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12, I kitab, maddə 697; 2007, № 6, maddə 560, № 10,

maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.6-cı maddənin birinci cümləsində «keçirilə bilər» sözləri «keçirilir» sözü ilə və üçüncü cümləsində «verilə bilər» sözləri «verilir» sözü ilə əvəz edilsin;

**2.** 21.2-ci maddənin ikinci cümləsində «qaldırıla bilər» sözləri «qaldırılır» sözü ilə əvəz edilsin;

**3.** 21.2-1-ci maddədə «edilə bilər» sözləri «edilir» sözü ilə əvəz edilsin;

**4.** 23.2.7-ci maddədə «qanunvericiliklə» sözü «Reklam haqqında» Azərbaycan Respublikasının Qanununda» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1099-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, I kitab, maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 9.1-ci maddədə «şəxslərin» sözündən sonra «, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə,» sözləri əlavə olunsun.

**2.** 11.1-ci maddədə «razılığı» sözündən sonra «, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi» sözləri əlavə olunsun.

**3.** Məcəlləyə aşağıdakı məzmunda 12.0.3-1-ci maddə əlavə edilsin:

«**12.0.3-1.** tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən şəxslər;».

**4.** 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 13. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi**

**13.1.** Nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçirlər.

**13.2.** Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

**13.3.** Nikaha daxil olmaq istəyən şəxslərə onların tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış tibbi müayinədən keçmə faktını və bu Məcəllənin 13.2-ci maddəsinə uyğun olaraq, tibbi məsləhətin verildiyini təsdiq edir və həmin şəxslərin tibbi müayinəsinin nəticələrini əks etdirmir.

**13.4.** Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış onların müvafiq icra hakimiyyəti orqanına nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur. Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri nikaha daxil olmaq istəyən şəxslərdən onların tibbi müayinəsinin nəticələrini tələb edə bilməz.

**13.5.** Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası və nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**13.6.** Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir.

**13.7.** Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.».

**5.** 25-ci və 26.1.8-ci maddələrdə «13.3-cü» sözləri «13.7-ci» sözləri ilə əvəz edilsin.

**6.** 171-ci maddənin mətni 171.1-ci maddə hesab olunsun və Məcəlləyə aşağıdakı məzmunda 171.2-ci maddə əlavə edilsin:

**«171.2.** Nikaha daxil olmaq barədə ərizəyə, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə olunur.».

**Maddə 2.** Bu Qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 1080-IVQD



AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 5.1-1-ci maddə əlavə edilsin:

**«5.1-1.** İnzibati orqan, bu Qanunun 7.1-ci və 7.2-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, müraciət daxil olduğu gündən 15 gün müddətində hüquqi yardım göstərilməsini təmin etməlidir. Hüquqi yardım göstərilməsi üçün daha artıq müddət tələb olunduğu hallarda, inzibati orqan tərəfindən hüquqi yardımın göstərilməsi müddəti, ona bu məqsədlə müraciət etmiş digər inzibati orqana əsaslandırılmış yazılı məlumat verilməklə, 15 günədək uzadıla bilər.».

**2.** 7.4-cü maddənin ikinci cümləsində «qısa müddət ərzində» sözləri «5 gün müddətində» sözləri ilə əvəz edilsin.

**3.** 23.1-ci maddədə «ərizə və ya vəsatətlərin» sözləri «ərizə, şikayət və ya vəsatətlərin» sözləri ilə, «ərizə və ya vəsatətdə» sözləri «ərizə, şikayət və ya vəsatətlərdə» sözləri ilə əvəz edilsin.

**4.** 24.5-ci maddədə «ərizə və ya vəsatətləri» sözləri «ərizə, şikayət və ya vəsatətləri» sözləri ilə əvəz edilsin.

**5.** 34-cü maddə üzrə:

**5.1.** 34.1.3-cü maddədə «maddəsində» sözü «və 35.5-ci maddələrində» sözləri ilə əvəz edilsin;

**5.2.** aşağıdakı məzmunda 34.3-cü maddə əlavə edilsin:

**«34.3.** Bu Qanunun 34.1.3-cü maddəsində nəzərdə tutulmuş nöqsanlar aradan qaldırıldıqdan sonra inzibati orqana yenidən ərizə ilə müraciət edilə bilər.».

**6.** 41-ci maddə üzrə:

**6.1.** adında «təyin» sözü «cəlb» sözü ilə əvəz edilsin;

**6.2.** 41.1-ci maddədə «ekspertiza təyin» sözləri «ekspert və ya mütəxəssis cəlb» sözləri ilə əvəz edilsin;

**6.3.** 41.4-cü maddədən «və ya mütəxəssisləri» sözləri, 41.6-cı maddədən isə «və ya mütəxəssis» sözləri çıxarılsın;

**6.4.** aşağıdakı məzmunda 41.6-1-ci maddə əlavə edilsin:

**«41.6-1.** Mütəxəssis inzibati orqana zəruri kömək göstərilməsi üçün elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi bilik və bacarığa malik olmalıdır. Lakin mütəxəssisin ifadə etdiyi fikir ekspert rəyini əvəz etmir.».

**7.** 72-ci maddənin adında «şikayətin verilməsi» sözlərindən sonra «və geri götürülməsi» sözləri əlavə edilsin və aşağıdakı məzmunda 72.6-cı maddə əlavə edilsin:

**«72.6.** İnzibati qaydada verilmiş şikayət üzrə bu Qanunun 80-ci maddəsində nəzərdə tutulmuş qərar

qəbul edilənədək, həmin şikayət maraqlı şəxsin və ya onun nümayəndəsinin ərizəsinə əsasən geri götürülə bilər.».

**8.** 75-ci maddə üzrə:

**8.1.** 75.1.2-ci maddədə «məhkəmənin» sözündən sonra «qanuni qüvvəyə minmiş» sözləri əlavə edilsin;

**8.2.** 75.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 75.1.4-cü maddə əlavə edilsin:

**«75.1.4.** şikayət maraqlı şəxsin və ya onun nümayəndəsinin ərizəsinə əsasən geri götürüldükdə.».

**9.** 76.1-ci maddədə «İnzibati» sözü «Bu Qanunun 76.2-ci maddəsinə əsasən inzibati aktın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, inzibati» sözləri ilə əvəz edilsin.

**10.** 80-ci maddə üzrə:

**10.1.** 80.1.1-ci maddədə «saxlaya bilər» sözləri «saxlayır və ya» sözləri ilə əvəz edilsin;

**10.2.** 80.1.2-ci maddədə «ləğv edə bilər» sözləri «ləğv edir» sözləri ilə, «qəbul edə bilər» sözləri isə «qəbul edir və ya» sözləri ilə əvəz edilsin;

**10.3.** 80.1.3-cü maddədə «dəyişdirə bilər» sözləri «dəyişdirir» sözü ilə əvəz edilsin;

**10.4.** 80.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 80.1.4-cü maddə əlavə edilsin:

**«80.1.4.** inzibati şikayət bu Qanunun 71.2-ci maddəsinə uyğun olaraq inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən verilibsə, həmin şikayət üzrə aparılmış araşdırmanın nəticəsinə dair qərar qəbul edir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2014-cü il
№ 1085-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 998-IVQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 612; 2001, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002, № 1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004, № 1, maddələr 19, 26, № 3, maddələr 138, 141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407, № 7, maddə 590, № 8, maddələr 662, 663, 674, 675, 679, № 9, maddə 743, № 11, maddələr 942, 945; 2007, № 1, maddə 11, № 2, maddə 87, № 3, maddə 230, № 7, maddə 715, № 8, maddələr 767, 769, № 11, maddələr 1110, 1116, 1120, № 12, maddə 1227; 2008, № 1, maddə 7, № 3, maddə 186, № 6, maddələr 504, 507, № 7, maddə 617, № 8, maddə 713, № 9, maddə 798, № 10, maddə 894, № 11, maddələr 969, 971, 980, № 12, maddələr 1060, 1061, 1062, 1065; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 5, maddə 330, № 7, maddələr 532,

535, 539, 540, 542, № 9, maddə 688, № 10, maddələr 776, 785, № 12, maddələr 979, 993; 2010, № 2, maddə 80, № 3, maddələr 180, 189, № 5, maddə 393, № 7, maddələr 606, 607, 610, № 8, maddələr 721, 725, № 10, maddələr 847, 854, № 11, maddə 972; 2011, № 3, maddələr 174, 175, № 6, maddələr 490, 511, 513, № 10, maddə 895, № 12, maddələr 1117,1129; 2012, № 1, maddə 7, № 2, maddə 64, № 3, maddə 199, № 4, maddə 284, № 5, maddə 424, № 6, maddə 544, № 7, maddələr 682, 692,698, № 11, maddələr 1097,1113, № 12, maddə 1237; 2013, № 3, maddə 238, № 4, maddələr 371, 378, № 5, maddə 500, № 6, maddə 658, № 8, maddələr 892, 894, 907, № 9, maddələr 1042, 1057, 1058; 2014, № 2, maddələr 105, 112, № 4, maddələr 358, 364, № 5, maddə 477, № 6, maddə 634, № 7, maddələr 807, 815; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 sentyabr tarixli 247 nömrəli və 9 sentyabr tarixli 252 nömrəli fərmanları) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.3-cü bəndə «234-cü,» sözlərindən sonra «253-1.3-cü,» sözləri əlavə edilsin.

**2.** 3.52-ci bənddən «avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi,» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 noyabr 2014-cü il
№ 338

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 4 mart tarixli 917-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 872; 2008, № 3, maddələr 169, 186, № 5, maddə 364, № 6, maddələr 483, 504, № 12, maddə 1057; 2009, № 2, maddələr 59, 69, 73, № 5, maddə 321, № 6, maddə 421; 2010, № 2, maddə 80, № 3, maddələr 180, 184, 193, № 6, maddə 494, № 7, maddə 606, № 8, maddələr 716, 725, № 10, maddə 849; 2011, № 6, maddə 512, № 9, maddə 792; 2012, № 3, maddə 200, № 5, maddə 421, № 10, maddə 951, № 11, maddə 1117, № 12, maddə 1238; 2013, № 2, maddə 108, № 4, maddələr 370, 372, 376, № 9, maddələr 1045, 1059, № 12, maddə 1520; 2014, № 4, maddə 363, № 7, maddələr 808, 809, 814, № 9, maddə 1066; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 339 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bəndə «Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri,» sözlərindən sonra «Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi məlumat xidmətinin rəisi,» sözləri, «xətalar haqqında işlərə» sözlərindən sonra «(inzibati xəta hadisəsi səlahiyyətli vəzifəli şəxs tərəfindən bu Məcəllənin 429-5.3-cü maddəsinə uyğun olaraq bilavasitə aşkar edildikdə)» sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

**«2.2-1.** Bu Məcəllənin 151.1, 151.2, 151.3, 151.3-1, 151.3-2, 151-1, 151-2.1, 151-3 və 158-1.3-cü maddələrində nəzərdə tutulmuş və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara dair elektron protokoldan (qərardan) bu Məcəllənin 429-3.6 və 429-3.7-ci maddələrində qeyd olunan vəsatət (şikayət) verildikdə – Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri, Mərkəzi məlumat xidmətinin rəisi, Naxçıvan Muxtar Respublikasının

Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavini, ərazi polis orqanlarının dövlət yol polisi idarələrinin, şöbələrinin rəisləri, onların müavinləri, ərazi polis orqanlarının dövlət yol polisi bölmələrinin rəisləri, ərazi polis orqanlarının dövlət yol polisi qruplarının rəhbərləri.

**3.** 2.3-cü bənddən «158.1-ci,» sözləri çıxarılsın və həmin bənddə «nəzərdə tutulmuş» sözlərindən əvvəl «(foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalar istisna olmaqla)» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 noyabr 2014-cü il
№ 385

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları»nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326; 2008, № 6, maddə 495, № 11, maddələr 969, 980; 2013, № 6, maddə 656) ilə təsdiq edilmiş «Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları»na aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

«**3.5.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi reyestrlərin elektron məlumatlarından real vaxt rejimində istifadə edir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 291

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 280 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 12-1-ci hissə əlavə edilsin:

«**12-1.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi sistemin elektron məlumatlarından real vaxt rejimində istifadə edir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2014-cü il
№ 292

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

## «Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

«Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 989-IVQD nömrəli Qanununun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 617 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş «İstintaq təcridxanalarının daxili intizam Qaydaları»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10.1-ci bəndin ikinci cümləsinə «şəxsin qocalığı,» sözlərindən sonra «yetkinlik yaşına çatmaması,» sözləri əlavə edilsin.

**2.** 10.2-ci bəndə «öz üzərinə götürmüş» sözlərindən sonra «milli, yaxud» sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**
Bakı şəhəri, 2 oktyabr 2014-cü il
№ 324

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

## «Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

«Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 952-IVQD nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 may tarixli 171 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 267; 2001, № 1, maddə 70, № 7, maddə 512; 2003, № 8, maddə 460; 2005, № 9, maddə 855, № 11, maddə 1061; 2007, № 10, maddə 1013; 2008, № 2, maddə 116; 2010, № 8, maddə 764; 2011, № 8, maddə 781, № 9, maddə 852; 2012, № 9, maddə 922; 2013, № 3, maddə 344; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 avqust tarixli 277 nömrəli qərarı) ilə təsdiq edilmiş «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş pozuntulara görə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cərimə ballarının uçotu Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**«1.1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş balla qiymətləndirilən xətalara görə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cərimə ballarının uçotunun aparılması bu Qayda ilə tənzimlənir.».

**2.** 2-ci hissə ləğv edilsin.

**3.** 4.1-ci bəndin ikinci və üçüncü cümlələri çıxarılsın, dördüncü cümləsində «DYP-nin vəzifəli şəxsinin inzibati tənbeh tətbiqi barədə qərarı» sözləri «İnzibati tənbeh tətbiq etmə haqqında qərar» sözləri ilə əvəz edilsin.

**4.** 5-ci hissə üzrə:

**4.1.** 5.1-ci bənddə «Yol hərəkəti qaydaları əleyhinə inzibati xətalara görə sürücülərə təyin edilmiş cərimə balları barədə məlumatların» sözləri «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş balla qiymətləndirilən xətalara görə inzibati tənbeh tətbiq etmə haqqında qərarların» sözləri ilə əvəz edilsin;

**4.2.** 5.2-ci bənddə «yol hərəkəti qaydaları əleyhinə inzibati xətalara görə cərimə balları barədə məlumatların» sözləri «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş balla qiymətləndirilən xətalara görə inzibati tənbeh tətbiq etmə haqqında qərarların» sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**
Bakı şəhəri, 16 oktyabr 2014-cü il
№ 331

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

17 sentyabr 2014-cü il Bakı şəhəri

## Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 13-cü maddəsinin şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şafiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin hakimi İmanverdi Şükürovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Fuad Məmmədovun, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Rahib Nəbizadənin, Bakı Apellyasiya Məhkəməsinin hakimi Ülvi Mayılovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 13-cü maddəsinin yanlış iddia növlərinin münasibləri ilə əvəz olunmasında proses iştirakçılarına yardım etmək vəzifəsinin apellyasiya instansiyası məhkəməsinə aid olub-olmaması baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Müraciətdə göstərilir ki, «Bank of Azerbaijan» Açıq Səhmdar Cəmiyyəti cavabdeh Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Şəki Ərazi İdarəsinə (bundan sonra – DƏDRX-in Şəki Ərazi İdarəsi), üçüncü şəxslər N.Quseynov və T.Nəsrullayevaya qarşı Qax rayonu Oncalı kəndində yerləşən fındıq təmizləmə sexi və köməkçi tikililərə N.Quseynovun adına verilmiş 1 oktyabr 2011-ci il tarixli çıxarışın etibarsız hesab edilməsi barədə məhkəmədə iddia qaldırmışdır. Şəki İnzibati-İqtisadi Məhkəməsinin 14 mart 2013-cü il tarixli qərarı ilə iddia tələbi təmin edilməmişdir.

Həmin qərar Şəki Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının (bundan sonra – Şəki Apellyasiya Məhkəməsinin İİK) 4 sentyabr 2013-cü il tarixli qərarı ilə dəyişdirilmədən saxlanılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin İİK) 29 yanvar 2014-cü il tarixli qərarı ilə Şəki Apellyasiya Məhkəməsinin İİK-in 4 sentyabr 2013-cü il tarixli qərarı ləğv edilərək, iş təkrar baxılması üçün həmin məhkəməyə göndərilmişdir.

Ali Məhkəmənin İİK qərarını onunla əsaslandırmışdır ki, apellyasiya instansiyası məhkəməsi Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin (bundan sonra – İPM) 13-cü maddəsi ilə müəyyən olunmuş məhkəmənin «yardım etmək vəzifəsi»-ni icra etməmiş, iddiaçıya mübahisə predmeti olan çıxarışın verilməsinə əsas olmuş sənədlərin üzə çıxarılmasında yardım etmək əvəzinə iddia tələbinə olduğu kimi baxaraq onu əsassız hesab etmiş, bununla da iddiaçıya tələbin dəqiqləşdirilməsində yar-

dım etməmiş və aidiyyət məsələsində yanlışlığa yol vermişdir.

Şəki Apellyasiya Məhkəməsi göstərilən məsələ ilə bağlı məhkəmə təcrübəsində yaranmış qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə İPM-in 13-cü maddəsinin yanlış iddia növlərinin münasibləri ilə əvəz olunmasında proses iştirakçılarına yardım etmək vəzifəsinin apellyasiya instansiyası məhkəməsinə aid olub-olmaması baxımından şərh edilməsini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsindən (bundan sonra – Konstitusiya Məhkəməsi) xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu ilk növbədə qeyd etməyi zəruri hesab edir ki, müraciətdə qeyd olunan iddianın predmetini DƏDRX-in Şəki Ərazi İdarəsi tərəfindən mülkiyyət hüququna dair verilən çıxarışın etibarsız hesab edilməsi təşkil edir. Konstitusiya Məhkəməsi Plenumunun «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair» 19 may 2014-cü il tarixli Qərarı ilə bu kateqoriyadan olan işlərə mülki məhkəmə icraatı qaydasında baxılmalı olduğu müəyyən edilmişdir. Bu baxımdan, hazırkı iş üzrə İPM-in hər hansı maddəsinin və ya müddəasının şərh edilməsi zərurəti aradan qalxmış olur. Lakin Şəki Apellyasiya Məhkəməsinin müraciətində qaldırılan məsələnin məhkəmə təcrübəsi üçün əhəmiyyətini nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu həmin məsələyə şərh verilməsini məqsədəmüvafiq hesab edərək aşağıdakıları qeyd edir.

Azərbaycan Respublikasının Konstitusiyası (bundan sonra – Konstitusiya) insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi təsbit etməklə yanaşı, onların məhkəmədə müdafiəsinə də təminat vermişdir. (Konstitusiyanın 12, 60, 71-ci maddələri). Konstitusiyanın 60-cı maddəsində təsbit olunmuş məhkəmə müdafiəsi hüququ müstəqil hüquq olmaqla yanaşı, Konstitusiyada təsbit edilmiş digər insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı kimi çıxış edir.

Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. (Konstitusiyanın 60-cı maddəsinin II hissəsi).

«İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın (bundan sonra – Konvensiya) 6-cı maddəsinə əsasən hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Konstitusiyada və Konvensiyada təsbit olunmuş bu təminatın əsas mexanizmlərindən biri kimi çıxış edən ədalət mühakiməsinin həyata keçirilməsinin konstitusiya prinsipləri Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (bundan sonra – MPM) və İPM-də əks olunmaqla, hər kəsin Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətlə bağlı mülki prosessual və inzibati prosessual qanunvericiliklərdə məhkəmə aktlarının qanuniliyinin və əsaslılığının yuxarı instansiya məhkəmələri tərəfindən yoxlanılmasının mahiyyəti və xüsusiyyətləri tədqiq olunmalıdır.

MPM-in 2.1-ci maddəsinə görə mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəməyə müraciət etmək hüququndan imtina edilməsi etibarsızdır. (MPM-in 4.1 və 4.2-ci maddələri).

Qeyd olunmalıdır ki, «İnzibati icraat haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «İnzibati icraat haqqında» Qanun) və İPM-in qəbul edilməsi vətəndaşların hüquqlarının və qanunla qorunan maraqlarının daha səmərəli şəkildə müdafiə olunmasına və inzibati orqanların fəaliyyətinin daha şəffaf olmasına yönəlmişdir. Həmin qanunvericilik aktlarında inzibati məhkəmə icraatına dair müddəaların müəyyən edilməsi, eləcə də mülki və inzibati məhkəmə icraatlarının ciddi fərqləndirilməsi prosessual qanunvericiliyin əsas yeniliklərindəndir.

İnzibati prosessual qanunvericiliyin səciyyəvi cəhətlərindən biri odur ki, inzibati münasibətlər (publik hüquq münasibətləri) dövlət idarəçiliyi və yerli özünüidarəetmə sahəsində meydana çıxır və bu münasibətlərdə tərəflərdən biri mütləq icra hakimiyyəti orqanı, bələdiyyə və qanunla inzibati akt qəbul etmək səlahiyyəti verilən hər hansı bir subyektdir. Bu münasibətlərin iştirakçıları əvvəlcədən qeyri-bərabər olurlar, onlardan biri suverenlik daşıyıcısıdır və digər tərəfə, yəni fiziki və hüquqi şəxsə münasibətdə hakimiyyət səlahiyyətlərinə malik olur. İnzibati mübahisənin yaranması səbəbindən asılı olmayaraq, bir qayda olaraq, məhkəməyə müraciət edən tərəf fiziki və ya hüquqi şəxs olur.

Məhz bu səbəbdən də qanunverici tərəfindən sonuncuların qanuni mənafelərinin müdafiəsini daha səmərəli təmin etmək üçün inzibati mübahisələrə ixtisaslaşdırılmış məhkəmələr tərəfindən inzibati məhkəmə icraatı qaydasında baxılması müəyyən edilmişdir. Bu, qanunvericilikdə yenilik olmaqla hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı konstitusiya tələblərinin reallaşdırılması istiqamətində atılmış mühüm addımdır və məhkəmə müdafiəsinin effektivliyinə xidmət edir.

İPM-in qarşısında duran əsas vəzifə ictimai-hüquqi münasibətlər sahəsində dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, onların vəzifəli şəxslərinin, digər subyektlərin qanunla müəyyən edilmiş qaydada hakimiyyət idarəçiliyi sahəsindəki funksiyalarını yerinə yetirərkən yol verdikləri pozuntulardan fiziki şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin, habelə hüquqi şəxslərin hüquq və mənafelərinin qorunmasıdır.

İPM-in 1.2-ci maddəsinə əsasən bu Məcəllə ilə başqa qayda müəyyən edilmədiyi və bu Məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında MPM-in müddəaları tədbiq oluna bilər.

MPM və İPM-in müddəalarının qarşılıqlı tədqiqi göstərir ki, hər iki Məcəllədə müvafiq icraatların bəzi ümumi prinsipləri mövcuddur. Bu prinsiplərə hakimlərin müstəqilliyi, qanun və məhkəmə qarşısında bərabərlik, sübut etmə vəzifəsi, çəkişmə prinsipi, məhkəmə baxışının aşkarlığı və dispozitivlik prinsipləri aiddir. (MPM-in 7, 8, 9, 10, 77-ci və İPM-in 10, 11, 14, 15, 17-ci maddələri).

Bununla belə, hər iki icraatın ümumi prinsipləri ilə yanaşı, İPM-in spesifik, fərqli prinsipləri vardır. Belə ki, MPM-ə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməli olduğu halda, İPM-ə görə isə məhkəmə proses iştirakçılarının izahatları, ərizə və təklifləri ilə, onların təqdim etdikləri sübutlarla və işdə olan digər materiallarla kifayətlənməyərək, mübahisənin həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları xidməti vəzifəsinə görə araşdırmağa borcludur. (MPM-in 14.2-ci və İPM-in 12.1-ci maddələri). Bununla yanaşı, İPM-ın 12.2-ci maddəsinə əsasən məhkəmə müstəqil şəkildə öz təşəbbüsü ilə və ya proses iştirakçılarının vəsatətinə əsasən digər zəruri sübutları toplamağa borcludur. Məhkəmə tərəflərdən əlavə məlumat və sübutlar tələb edə bilər.

Eyni zamanda, inzibati məhkəmə icraatını mülki məhkəmə icraatından fərqləndirən digər xüsusiyyət də İPM-in 13-cü maddəsində nəzərdə tutulan məhkəmənin yardım etmək vəzifəsidir. Həmin maddəyə əsasən məhkəmə qaldırılan iddialarda yol verilən formal xətaların aradan qaldırılmasında, aydın olmayan iddia tələblərinin dəqiqləşdirilməsində, yanlış iddia növlərinin münasibləri ilə əvəz olunmasında, natamam faktiki məlumatların tamamlanmasında, eləcə də işin hallarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi baxımından əhəmiyyət kəsb edən izahatların təqdim olunmasında proses iştirakçılarına yardım etməyə borcludur.

Birinci instansiya məhkəməsində inzibati icraat İPM-in VIII fəslinin normaları ilə tənzimlənir. Bu fəslə iddianın qaldırılması, ərizənin məzmunu, iddianın təqdim edilməsi, hazırlıq icraatı, məhkəmənin və proses iştirakçılarının işin hallarının obyektiv araşdırılması ilə bağlı vəzifələri, məhkəmə baxışının hədləri və digər prosessual hərəkətləri tənzimləyən normalar daxil edilmişdir. Həmin normalar sırasında məhkəmənin və proses iştirakçılarının işin hallarının obyektiv araşdırılması ilə bağlı vəzifələrini müəyyən edən İPM-in 48-ci maddəsi məhkəmə icraatının effektivliyinin artırılması və icraatın tezləşdirilməsinin təmin edilməsi məqsədilə həmin Məcəllənin «məhkəmədə işin hallarının araşdırılması» prinsipinə riayət olunmasını tələb edir.

Bununla yanaşı, İPM-in 48-ci maddəsi həmin Məcəllənin 13-cü maddəsində nəzərdə tutulan məhkəmənin açıqlama və göstəriş vermək vəzifəsinin

həyata keçirilməsi zamanı tamamlayıcı funksiya daşıdığından əhəmiyyətli norma kimi qiymətləndirilir.

İPM-in 48.1-ci maddəsinə görə sədrlik edən hakim bütün formal xətaların aradan qaldırılmasına, qeyri-müəyyən ifadələrin aydınlaşdırılmasına, işin mahiyyəti üzrə vəsatətlərin verilməsinə, natamam faktiki məlumatların tamamlanmasına, prosesin sonrakı mərhələlərində işin hallarının tam müəyyənləşdirilməsi və obyektiv qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edən bütün yazılı izahatların təqdim olunmasına yardım etməlidir.

Qeyd edilməlidir ki, hakimin yardım etmək vəzifəsi yalnız formal pozuntuların aradan qaldırılması ilə bağlı deyil, faktiki halların aydınlaşdırılması ilə də bağlı ola bilər. Bu vəzifənin həyata keçirilməsi zamanı məhkəmə tərəflərin bərabərliyi prinsipinə əməl etməlidir.

Məhkəmə baxışının hədləri adlanan İPM-in 52-ci maddəsinə əsasən, məhkəmə iddia ərizəsinin ifadə tərzi ilə bağlı olmasa da, iddia tələbindən kənara çıxmağa haqlı deyildir. Bu maddə «ne ultra petita» prinsipini nəzərdə tutur və inzibati prosesdə dispozitivlik prinsipinin qüvvədə olduğunu bir daha vurğulayır. Həmin norma ilə məhkəməyə münasibətdə müəyyən edilir ki, o, prosesi iddia tələbi əsasında qursun və iddia tələbindən kənara çıxmadan mübahisəni həll etsin. İnzibati prosesdə məhkəmə bir tərəfdən işin hallarının araşdırılması prinsipini, digər tərəfdən isə dispozitivlik prinsipini rəhbər tutmalıdır. Məhz bu prinsip məhkəmə üçün işin hallarının araşdırılması prinsipinin sərhədlərini müəyyən edir.

Apellyasiya instansiyası məhkəməsində şikayət üzrə icraat İPM-in X fəslinin normaları ilə tənzimlənir. İPM-in 81-ci maddəsində apellyasiya şikayətinin mümkünlüyü, apellyasiya şikayəti vermək hüququ və inzibati apellyasiya icraatında tətbiq edilən qaydalar nəzərdə tutulmuşdur. İnzibati məhkəmə icraatında apellyasiya şikayətinin mümkünlüyünün yoxlanılması üçün, ilk növbədə, bu maddənin tələbləri nəzərə alınmalıdır.

Qanunvericinin inzibati apellyasiya icraatı ilə bağlı müəyyən etdiyi mühüm qaydalardan biri də İPM-in 81.3-cü maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən bu fəsildə başqa qaydanın müəyyən edilmədiyi hallarda, şikayət üzrə inzibati məhkəmə icraatında birinci instansiya məhkəməsində icraatla bağlı bu Məcəllədə nəzərdə tutulmuş şikayətin verilməsinin formasına və məzmununa dair tələblər, müvafiq prosessual qaydalar və MPM-in apellyasiya instansiyası məhkəməsində icraatla bağlı müvafiq müddəaları tədbiq olunur.

Apellyasiya şikayəti üzrə işə yenidən baxılmasının hədlərini nəzərdə tutan İPM-in 82-ci maddəsində göstərilir ki, apellyasiya instansiyası məhkəməsi mübahisə ilə bağlı işə şikayət həddində və hüquqi məsələlər, habelə sübutlar və faktlar (faktiki hallar) əsasında mahiyyəti üzrə tam həcmdə baxır. Apellyasiya instansiyası məhkəməsi həmçinin bu Məcəllənin 12-ci maddəsinin tələblərinə əsasən yeni təqdim olunmuş sübutları (sübutetmə vasitələrini) və faktları (faktiki halları) da nəzərə alır.

Bu normaya əsasən apellyasiya instansiyası məhkəməsi şikayət ərizəsində irəli sürülən tələblər həddində, lakin tam hüquqlu məhkəmə kimi işin bütün hallarını araşdırır və işə mahiyyəti üzrə baxır. Bu isə o deməkdir ki, apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin araşdırdığı hallarla bağlı olmur, mübahisə predmetini tam həcmdə yoxlayır və öz qərarını araşdırdığı işin hallarına və formalaşdırdığı daxili inama əsasən qəbul edir.

İnzibati apellyasiya icraatının əsas qaydaları İPM-in apellyasiya instansiyası məhkəməsində icraat adlanan 87-ci maddəsində müəyyən edilmişdir.

İnzibati apellyasiya icraatı zamanı inzibati icraatın prinsipləri ilə yanaşı, İPM-in X fəslinin müddəalarına tam və düzgün əməl olunması həqiqətin müəyyən edilməsinə və pozulmuş hüquq və azadlıqların vaxtında bərpa edilməsinə xidmət etmiş olar.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair» 20 may 2011-ci il tarixli Qərarında mülki işlər üzrə apellyasiya icraatının hədlərinə dair dolğun və müfəssəl şərh verilmişdir. Həmin Qərarda qeyd edilmişdir ki, apellyasiya institutu əksər dövlətlərin mülki-prosessual qanunvericiliyində öz əksini tapmış və onun iki növü nəzərdə tutulmuşdur: tam və natamam apellyasiya.

Tam apellyasiya zamanı (Fransa, İtaliya) mövcud prosessual hüquqda nəzərdə tutulmuş apellyasiya icraatının əhəmiyyəti işə mahiyyəti üzrə yenidən baxılmasından, məqsədi isə məhkəmə səhvlərinin

aradan qaldırılmasından və tərəflərin özlərinin yol verdikləri nöqsanların düzəldilməsindən ibarətdir. Tərəflər birinci instansiya məhkəməsinə təqdim edilmiş sübutlarla yanaşı, işi tamamilə dəyişə bilən yeni sübutlar təqdim etmək hüququna malikdirlər. Bu cür yanaşma nəticəsində apellyasiya məhkəməsi birinci instansiya icraatının nə qədər dolğun olmasına baxmayaraq, işi tam həll etməyə borcludur və onu birinci instansiya məhkəməsinə yenidən baxılması üçün qaytarmaq hüququna malik deyil. Apellyasiya instansiyasında işin faktiki halları tam həcmdə tədqiq olunur, birinci instansiya məhkəməsində olduğu kimi sübutların qiymətləndirilməsi üzrə eyni hərəkətlər aparılır.

Natamam apellyasiya zamanı (Avstriya, Almaniya) isə sübutetmə prosesi birinci instansiya məhkəməsində cəmlənib, apellyasiya məhkəməsi isə birinci instansiyada tərəflərin təqdim etdiyi faktiki materiallar əsasında işə yenidən baxaraq onun səhvlərini və nöqsanlarını aradan qaldırmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372.5-ci maddəsinin həmin Məcəllənin 155, 156 və 372.4-cü maddələri ilə müqayisəli şəkildə şərh edilməsinə dair» 27 avqust 2012-ci il tarixli Qərarında qeyd edilmişdir ki, apellyasiya məhkəməsində yeni və əlavə sübutların təqdim olunmasında və yoxlanılmasındakı məhdudiyyətlər ölkəmizdə natamam apellyasiyanın olmasına dəlalət edir.

Tam apellyasiyadan fərqli olaraq, natamam apellyasiya zamanı apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsini əvəz etmir, onun vəzifəsi birinci instansiyada işin mahiyyətinə aid olmayan hallardan təmizlənmiş və apellyasiya şikayətinin həcmində mübahisənin predmetinə baxılmasından ibarətdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunvericilikdə məhkəmə icraatının səmərəliliyini yüksəltmək, pozulmuş hüquq və azadlıqların ağlabatan müddətdə və daha dolğun müdafiəsini təmin etmək məqsədi ilə, inzibati işlərə baxan məhkəmələrə ümumi yurisdiksiyalı məhkəmələrdən fərqli olaraq yeni səlahiyyətlərin verilməsi, o cümlədən inzibati apellyasiya icraatı üzrə apellyasiya instansiyası məhkəmələrinin səlahiyyətlərinin, eləcə də inzibati prosessual qanunvericiliyin prinsiplərinin dairəsinin genişləndirilməsi ölkəmizdə bu növ işlər üzrə apellyasiya institutunun tam apellyasiya növünə keçilməsi kimi qəbul edilməməlidir.

İPM-in inzibati apellyasiya icraatının hədlərini nəzərdə tutan 82-ci maddəsi apellyasiya instansiyası məhkəməsinin mübahisə ilə bağlı işə şikayət həddində və hüquqi məsələlər, habelə sübutlar və faktlar (faktiki hallar) əsasında mahiyyəti üzrə tam həcmdə baxmasını nəzərdə tutsa da, eyni zamanda həmin Məcəllənin 12-ci maddəsinin tələblərinə əsasən yeni təqdim olunmuş sübutların (sübutetmə vasitələrinin) və faktların (faktiki halların) da nəzərə alınmasını göstərir.

İPM-in 12-ci maddəsi apellyasiya məhkəməsinin üzərinə mübahisənin düzgün həlli üçün nəinki proses iştirakçılarının təqdim etdikləri izahatları, ərizə və təklifləri, sübutları araşdırıb qiymətləndirmək, eyni zamanda onun üzərinə öz təşəbbüsü ilə digər zəruri sübutları toplamaq vəzifəsini qoymuşdur. (İPM-in 12.1 və 12.2-ci maddələri).

İPM-in 82-ci maddəsinin təhlilindən göründüyü kimi, bu maddədə işə yeni təqdim olunmuş sübutlar (sübutetmə vasitələri) və faktlar (faktiki hallar) əsasında mahiyyət üzrə tam həcmdə baxılması göstərilmiş, eyni zamanda Məcəllənin işin hallarının araşdırılması prinsipini nəzərdə tutan 12-ci maddəsinə istinad edilmişdir. Lakin İPM-in məhkəmənin proses iştirakçılarına yardım etmək vəzifəsini nəzərdə tutan 13-cü maddəsinə toxunulmamışdır.

Qeyd edilənləri və qanunvericinin «məhkəmənin yardım etmək vəzifəsi»ni birinci instansiya məhkəməsində işin hallarının obyektiv araşdırılması ilə bağlı məhkəmənin vəzifələrini müəyyən edən İPM-in 48-ci maddəsinə aid etdiyini nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, İPM-in 13-cü maddəsinin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəası apellyasiya icraatına aid edilməməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu İPM-in 13-cü maddəsinin hansı instansiya məhkəməsində tətbiqi ilə bağlı göstərişin olmamasını qanunverici tərəfindən apellyasiya məhkəmələrinə apellyasiya icraatı ilə yanaşı, bir sıra kateqoriyadan olan inzibati mübahisələrə birinci instansiya məhkəməsi kimi baxmaq səlahiyyətinin verilməsi ilə əlaqələndirir.

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu inzibati icraatın spesifik xüsusiyyətlərinə əsaslanaraq, İPM-in 13-cü maddəsində nəzərdə tu-

tulan məhkəmənin qaldırılan iddialarda yol verilən formal xətaların aradan qaldırılması, aydın olmayan iddia tələblərinin dəqiqləşdirilməsi, natamam faktiki məlumatların tamamlanması, işin hallarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi baxımından əhəmiyyət kəsb edən izahatların təqdim olunması ilə bağlı proses iştirakçılarına yardım etməsini müəyyən edən müddəaların inzibati apellyasiya icraatında tətbiqini istisna etmir. Lakin həmin maddənin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəasının inzibati apellyasiya icraatında tətbiq edilməsi isə yol verilməzdir.

Belə ki, İPM-in 13-cü maddəsinin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəası mahiyyət etibarı ilə yeni iddia tələblərinin meydana çıxması və iddianın predmetinin dəyişdirilməsi iddia üzrə cavabdehlərin dairəsinin dəyişdirilməsi ilə nəticələnə bildiyindən bu, apellyasiya icraatının vəzifələri ilə uzlaşmaya və yeni iddia növünə məruz qalmış prosesin digər tərəfinin müdafiə hüquqlarının pozulması ilə nəticələnə bilər.

Eyni zamanda qeyd edilməlidir ki, İPM-in 11-ci maddəsinin tələbinə görə inzibati məhkəmə icraatı hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir. Apellyasiya icraatı zamanı iddia növünün dəyişdirilməsi isə proses iştirakçılarının Konstitusiyanın 60-cı maddəsində təsbit olunmuş məhkəmə müdafiəsi hüququna xələl gətirər və onları pozulmuş hüquqlarını üçpilləli məhkəmə iyerarxiyasında mübahisələndirmək imkanından məhrum edər.

İPM-in 3.2-ci maddəsində bu Məcəllənin XV, XVI, XVII, XVIII fəsillərində göstərilən mübahisələrə dair iddialara apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi kollegiyaları tərəfindən birinci instansiya məhkəməsi kimi baxılması nəzərdə tutulmuşdur. Bu, normativ xarakterli aktların qanunauyğunluğunun mübahisələndirilməsinə dair, siyasi partiyalarla bağlı, kütləvi informasiya vasitələri ilə bağlı və seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə iddialardır ki, onlara Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarında birinci instansiya məhkəməsi kimi baxılır. İPM-in 13-cü maddəsinin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəası da qeyd olunan mübahisələr üzrə işlərə apellyasiya məhkəmələri tərəfindən birinci instansiya məhkəməsi qismində baxılarkən tətbiq oluna bilər.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, İPM-in 13-cü maddəsi ilə tənzimlənən məhkəmənin yardım etmək vəzifəsi birinci instansiya məhkəməsi qismində inzibati-iqtisadi məhkəmələrdə qaldırılan iddialarla əlaqədar məhkəmənin proses iştirakçılarına yardım etmək vəzifəsini nəzərdə tutur. Apellyasiya icraatı qaydasında apellyasiya şikayəti üzrə işlərə baxılarkən apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyaları birinci instansiya məhkəmələri tərəfindən inzibati məhkəmə icraatının digər prinsipləri kimi, İPM-in 13-cü maddəsinin də tələbinə əməl edilib-edilməməsini yoxlamalıdırlar.

Yuxarıda qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İPM-in 13-cü maddəsinin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəası birinci instansiya məhkəmələrində işə baxılması ilə bağlı inzibati məhkəmə icraatına şamil olunur və inzibati apellyasiya icraatında tətbiq edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 13-cü maddəsinin «yanlış iddia növlərinin münasibləri ilə əvəz olunması» müddəası birinci instansiya məhkəmələrində işə baxılması ilə bağlı inzibati məhkəmə icraatına şamil olunur və inzibati apellyasiya icraatında tətbiq edilə bilməz.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

24 sentyabr 2014-cü il Bakı şəhəri

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəasının şərh edilməsinə dair**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Şəmkir rayon Məhkəməsinin sədri Qafil Baxşıyevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi Camal Ramazanovun və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin İstintaq və təhqiqat şöbəsinin rəisi Hikmət Kərimovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəasının şərh edilməsinə dair Şəmkir rayon Məhkəməsinin müraciəti ilə bağlı konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəmkir rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəasının şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, N.Zeynalovun Cinayət Məcəlləsinin 263.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə məhkəmənin hazırlıq iclasında dövlət ittihamçısı cinayət işinin baxılmasına xitam verilməsi və işin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmasını xahiş etmişdir.

Dövlət ittihamcısı öz mövqeyini onunla əsaslandırmışdır ki, 20 noyabr 1935-ci ildə anadan olmuş N.Zeynalov 23 may 1985-ci ildə nəqliyyat vasitələrini idarə etmək hüququ verən «B» kateqoriyalı müddətsiz sürücülük vəsiqəsi almışdır. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Yol hərəkəti haqqında» Qanun) 33-cü maddəsinin V hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa, sü-

rücülük vəsiqəsi dəyişdirilənədək məhdudlaşdırıla bilər.

Həmin Qanunun 34-cü maddəsinin I hissəsinə görə sürücülük vəsiqəsi şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sənəddir. Qeyd olunan maddənin V hissəsinin 1, 2 və 3-cü bəndlərində sürücülük vəsiqəsinin etibarlıq müddəti 60 yaşına çatmayan şəxslər üçün 10 il, 60 və daha çox yaşı olan şəxslər üçün onların 70 yaşı tamam olanadək qalan müddət, 70 və daha çox yaşı olan şəxslər üçün 2 il müəyyən edilmişdir.

Eyni zamanda, «Yol hərəkəti haqqında» Qanunun 35-ci maddəsinin VIII hissəsinin 4-cü bəndində göstərilmişdir ki, sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün bu Qanunun 34-cü maddəsinin V hissəsinin 2-4-cü bəndlərində nəzərdə tutulduğu hallarda tibbi arayış təqdim edilməlidir.

Eləcə də, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 2012-ci il 4 avqust tarixli Qərarı ilə təsdiq edilmiş «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması, sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi, sürücülük vəsiqələrinin verilməsi, dəyişdirilməsi və qaytarılması qaydaları haqqında» Təlimatın 6-cı bəndində keçmiş SSRİ nümunəli sürücülük vəsiqələrinin dəyişdirilməsi qaydaları nəzərdə tutulmuşdur.

Beləliklə, dövlət ittihamçısının mövqeyinə görə, istintaq orqanı N.Zeynalova nəqliyyat vasitələrini idarə etmək hüququ verən 23 may 1985-ci ildə əldə etdiyi sürücülük vəsiqəsinin etibarlı olub-olmamasını müəyyən etməmiş, yalnız həmin sürücülük vəsiqəsinin müddətsiz verilməsinə istinad edərək yanlış olaraq 78 yaşlı şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnun olması qənaətinə gəlmişdir. Belə ki, təqsirləndirilən şəxs N.Zeynalov sürücülük vəsiqəsini 50 yaşında almış və yuxarıda qeyd olunan normativ hüquqi aktların tələblərinə görə hadisə törədilən zaman onun nəqliyyat vasitələrini idarə etmək hüququ olmamışdır.

Şəmkir rayon Məhkəməsi hesab edir ki, keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsi olan şəxsə münasibətdə Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin dispozisiyasında əks olunmuş «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəasının tətbiqində yaranmış qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə həmin müddəanın şərh edilməsinə zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Yol-nəqliyyat hadisələrinin baş vermə səbəblərinin aradan qaldırılması, bu hadisələrlə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə «Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 dekabr tarixli Sərəncamı (bundan sonra –Sərəncam) qəbul edilmişdir.

Sərəncamın 1.2-ci bəndində yol-nəqliyyat hadisələrinin sərxoş halda, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış və ya belə hüququ olmayan şəxslər tərəfindən törədilməsi ağır nəticələrə səbəb olduğu hallarda cinayət məsuliyyətinin sərtləşdirilməsi təklif olunmuşdur.

Qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinə müvafiq əlavələrin edilməsindən öncə Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yol-nəqliyyat hadisələrinin sərxoş halda, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış və ya belə hüququ olmayan şəxslər tərəfindən törədilməsi Cinayət Məcəlləsinin 263-cü maddəsi ilə tövsif olunurdu.

Cinayət Məcəlləsinin 263-cü maddəsinə müvafiq olaraq avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda, eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda, bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, eləcə də bu Məcəllənin 263.1-ci maddəsin-

də nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda cinayət məsuliyyətinə səbəb olur. (Cinayət Məcəlləsinin 263.1, 263.1-1, 263.2, 263.3-cü maddələri).

«Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2013-cü il 5 aprel tarixli Qanunu ilə Cinayət Məcəlləsinə yeni məzmunda 263-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda olan və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda, eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda, eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda, eyni əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda cinayət məsuliyyətinə səbəb olur. (Cinayət Məcəlləsinin 263-1.1–263-1.4-cü maddələri).

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair» 17 mart 2011-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər.

Göstərilənlərlə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 263-1-ci maddəsində nəzərdə tutulan cinayət əməli insanların həyat və ya sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərə yönəldiyi üçün bu cinayətin tərkibinin, xüsusilə də onun subyektinin düzgün müəyyən olunması böyük əhəmiyyət kəsb edir.

Cinayət Məcəlləsinin 263 və 263-1-ci maddələrində nəzərdə tutulan cinayətlərin obyekti yol hərəkətinin və nəqliyyat vasitələrinin istismarının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir. Eyni zamanda, Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə cinayət məsuliyyətinin yaranması insan sağlamlığına zərər vurulmasından asılı olduğu üçün bu cinayətlərin əlavə obyekti insanın həyat və ya sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlərdir.

Cinayət Məcəlləsinin 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin subyekti yalnız yol-nəqliyyat hadisəsinin törədildiyi anda 16 yaşına çatmış, anlaqlı vəziyyətdə olan və nəqliyyat vasitələrini idarə edən şəxs ola bilər.

Bununla yanaşı, Cinayət Məcəlləsinin 263-1-ci maddəsində nəzərdə tutulan cinayətin subyekti yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən, psixotrop maddələrdən və digər güclü təsir edən maddələrdən istifadə edilməsi nəticəsində sərxoş halda pozan nəqliyyat vasitələrini idarə edən şəxsdir. Bu cinayətin digər subyekti isə yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxsdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin subyektlərindən biri olan nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxsin düzgün müəyyən olunması üçün «Yol hərəkəti haqqında» Qanunun normaları təhlil olunmalıdır.

«Yol hərəkəti haqqında» Qanun yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, ətraf mühitin, xüsusi, bələdiyyə və dövlət əmlakının mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin

aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsaslarını və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquqlarını və vəzifələrini müəyyən edir.

«Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinə görə bu maddənin ikinci hissəsində nəzərdə tutulan yaş həddinə çatmış, sağlamlıq cəhətdən sürücülüyə yararlı, yol hərəkəti qaydalarını bilən, sürmə vərdişi və sürücülük vəsiqəsi olan hər bir fiziki şəxs Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitələrini idarəetmə hüququna malikdir. Azərbaycan Respublikasının ərazisindəki yollarda nəqliyyat vasitələrini idarəetmə hüququ sürücülük vəsiqəsi əsasında həyata keçirilir.

«Yol hərəkəti haqqında» Qanunun qeyd olunan normasında nəqliyyat vasitələrini idarəetmə hüququnun əldə edilməsinin şərtləri və qaydaları dəqiq müəyyən olunmuşdur və bu Qanuna uyğun olaraq sürücülük vəsiqəsini əldə etmiş şəxs nəqliyyat vasitələrini idarə etmək hüququ olan şəxs hesab edilməlidir. Beləliklə, Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası, ilk növbədə, hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi ehtiva edir.

Bununla yanaşı, «Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinin V hissəsində fiziki şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılmasından bəhs olunur. Belə ki, həmin normaya əsasən Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1) şəxsin sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarıbsa – sürücülük vəsiqəsi dəyişdirilənədək;

2) şəxs tərəfindən yol hərəkətinin qaydaları bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulmuşdursa – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada beş ildən artıq olmayan müddətin qurtarmasınadək;

3) şəxsdə bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə — xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək.

Beləliklə, qanunverici şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılmasının üç şərtini müəyyən etmişdir: sürücülük vəsiqəsinin etibarlıq müddətinin bitməsi; yol hərəkəti qaydalarının bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulması; şəxsdə xəstəliklərin və ya fiziki qüsurların müəyyən edilməsi.

Sürücülük vəsiqəsinin etibarlıq müddəti «Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsində göstərilmişdir. Həmin maddənin V hissəsinə görə sürücülük vəsiqəsinin etibarlıq müddəti aşağıdakı kimidir: 1) 60 yaşına çatmamış şəxslər üçün – 10 il; 2) 60 və daha çox yaşı olan şəxslər üçün – onların 70 yaşı tamam olanadək qalan müddət; 3) 70 və daha çox yaşı olan şəxslər üçün – 2 il; 4) siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəlikləri olan şəxslər üçün – təqdim etdikləri tibbi arayışda göstərilən, lakin 2 ildən artıq olmayan müddət.

Həmin Qanunun 35-ci maddəsinə görə isə sürücülük vəsiqəsinin etibarlıq müddətinin qurtarması onun dəyişdirilməsini tələb edir. Sürücülük vəsiqəsinin etibarlıq müddətinin qurtarması fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququnu məhdudlaşdırır. («Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinin V hissəsinin 1-ci bəndi). Belə olan halda Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası, həmçinin hadisə törədilən zaman sürücülük vəsiqəsinin etibarlıq müddəti qurtarmış şəxsi ehtiva edir.

Bununla yanaşı, şəxsin yol hərəkəti qaydalarının kobud surətdə pozulmasına görə nəqliyyat vasitələrini idarə etmək hüququnun məhdudlaşdırılması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) ilə müəyyən edilmişdir.

İnzibati Xətalar Məcəlləsinin 28-ci maddəsinə əsasən həmin Məcəllənin 151.4-cü maddəsində göstərilən balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 20 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılır.

Həmçinin, Cinayət Məcəlləsinin 45-ci maddəsinə görə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növü Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xarakteri, təqsirkar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədək müddətə təyin edilə bilər.

Beləliklə, qanunvericiliyin yuxarıda göstərilən normalarının təhlilindən belə qənaətə gəlmək olar ki, hadisə törədilən zaman nəqliyyat vasitəsini idarə etmək hüququndan müəyyən müddətə məhrum edilmiş şəxs və yol hərəkəti qaydalarının qanunvericiliklə müəyyən edilmiş hallarda kobud surətdə pozulmasına görə bu hüququ məhdudlaşdırılmış şəxs nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Bununla yanaşı qeyd edilməlidir ki, «Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinin V hissəsinin 3-cü bəndinə görə şəxsdə bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə, xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək həmin şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırıla bilər.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli Fərmanının 2-ci bəndinə görə həmin Qanunun 33-cü maddəsinin III hissəsində (birinci halda) və VI hissəsində, 34-cü maddəsinin V hissəsinin 4-cü bəndində və 35-ci maddəsinin II hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

Belə olan halda qanunvericiliyin tələblərinə görə hadisə törədilən zaman xəstəliyə və ya fiziki qüsurlara görə nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxs də nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Göründüyü kimi, «Yol hərəkəti haqqında» Qanunun yuxarıda qeyd olunan normalarında şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququndan müəyyən müddətə məhrum edilməsi və bu hüququn məhdudlaşdırılması halları dəqiq müəyyən edilmişdir. Beləliklə, qanunvericilikdə göstərilən hallarda nəqliyyat vasitələrini idarə etmək hüququndan müəyyən müddətə məhrum edilmiş və ya bu hüququ məhdudlaşdırılmış şəxs nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Bununla yanaşı, «Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinin II hissəsi, 34-cü maddəsinin II və IV hissələri, 35-ci maddəsinin IX hissəsi ilə sürücülük vəsiqəsinin əldə edilməsi, sürücülük vəsiqəsində müəyyən olunmuş kateqoriya ilə hansı nəqliyyat vasitəsini idarə etmək hüququnun yaranması, sürücülük vəsiqəsində göstərilmiş kateqoriyaların dəyişdirilməsi qaydaları tənzimlənir.

«Yol hərəkəti haqqında» Qanunun yuxarıda göstərilən normaları hər bir nəqliyyat vasitəsinin idarə edilməsinin ayrı-ayrı xüsusiyyətlərini müəyyən etmişdir. Bu xüsusiyyətlər isə müxtəlif növ nəqliyyat vasitələrinin idarə edilməsini xüsusi bilik, vərdiş və təcrübə ilə əlaqələndirmişdir. Bu baxımdan, müəyyən kateqoriyaya aid olan nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsinə malik şəxs başqa kateqoriyaya aid olan nəqliyyat vasitələrini idarə etdikdə, nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Beləliklə, Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası hadisə törədilən zaman həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsi ehtiva edir.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, «Yol hərəkəti haqqında» Qanunda keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinin bu Qanunun tələbləri ilə müəyyən olunan yeni sürücülük vəsiqəsi ilə dəyişdirilməsi və ya qüvvədən düşməsi nəzərdə tutulmamışdır. Bununla da, dövlət həmin dövrdə verilmiş sürücülük vəsiqələrini tanımış və onların dövriyyədən çıxarılması ilə bağlı heç bir imperativ norma müəyyən etməmişdir.

Lakin «Yol hərəkəti haqqında» Qanunun qəbul edilməsi ilə bu sahədə yeni qaydalar müəyyən edilmişdir. Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinin sahibi də bu qaydaların təsiri altına düşür və həmin qaydalara mütləq riayət və əməl etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 149-cu maddəsinin III hissəsinin tələblərinə görə yalnız dərc edilmiş qanunların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

Bununla yanaşı, Konstitusiyanın 72-ci maddəsinin II və III hissələrinə müvafiq olaraq hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

«Yol hərəkəti haqqında» Qanunun əsas təyinatı yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətinin təşkil edilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və s. ibarətdir.

«Yol hərəkəti haqqında» Qanunun 4-cü maddəsində yol hərəkəti sahəsində dövlətin vəzifələri müəyyən edilmişdir. Həmin maddəyə görə yol hərəkəti sahəsində dövlətin aşağıdakı vəzifələri vardır: yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsi, yol hərəkəti qaydalarının, habelə onların pozulmasına görə məsuliyyətin müəyyənləşdirilməsi ilə bağlı qanunlar və digər normativ hüquqi aktlar qəbul etmək, onların icrasını həyata keçirmək; sürücülərin hazırlanmasını və onların ixtisasının artırılmasını həyata keçirən təhsil müəssisəsi və kursların açılmasına razılıq vermək, onların fəaliyyətinə nəzarət etmək, nəzəri təcrübi imtahanlar qəbul etmək, imtahanlardan müvəffəqiyyətlə keçənlərə sürücülük vəsiqəsi vermək, onların uçotunu aparmaq.

Qeyd olunduğu kimi, qanunverici «Yol hərəkəti haqqında» Qanunun 34-cü maddəsinin V hissəsində sürücülük vəsiqəsinin etibarlıq müddətini aşağıdakı kimi müəyyən etmişdir: 1) 60 yaşına çatmamış şəxslər üçün – 10 il; 2) 60 və daha çox yaşı olan şəxslər üçün – onların 70 yaşı tamam olanadək qalan müddət; 3) 70 və daha çox yaşı olan şəxslər üçün – 2 il; 4) siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəlikləri olan şəxslər üçün – təqdim etdikləri tibbi arayışda göstərilən, lakin 2 ildən artıq olmayan müddət.

Eyni zamanda, «Yol hərəkəti haqqında» Qanunun 35-ci maddəsinin VIII hissəsinin 4-cü bəndində göstərilir ki, sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün bu Qanunun 34-cü maddəsinin V hissəsinin 2-4-cü bəndlərində nəzərdə tutulduğu hallarda tibbi arayış təqdim edilir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, qanunvericinin müəyyən etdiyi bu qaydalar məhz yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi, yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətinin təşkil edilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədlərinə xidmət edir.

Göründüyü kimi, SSRİ nümunəli müddətsiz sürücülük vəsiqələri «Yol hərəkəti haqqında» Qanunun tələblərinə müvafiq verilməsə də, onların etibarlıq müddəti ilə bağlı məsələlər bu Qanunun normaları ilə tənzimlənməlidir.

Belə ki, «Yol hərəkəti haqqında» Qanun SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinə malik olan şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnu məhdudlaşdırmasa da, onun müəyyən yaşa çatması və ya müəyyən xəstəliyə düçar olması

ilə əlaqədar həmin sürücülük vəsiqələsinin dəyişdirilməsini nəzərdə tutan yeni qaydalar müəyyən etmişdir.

Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinə malik olan şəxs «Yol hərəkəti haqqında» Qanunun 34-cü maddəsinin V hissəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Eyni zamanda, Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət siyasətinə uyğun olaraq, təxirə salınmadan keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqələrinin «Yol hərəkəti haqqında» Qanuna müvafiq olaraq yeniləri ilə əvəz olunması işini təşkil etməlidir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir.

Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinə malik olan şəxs «Yol hərəkəti haqqında» Qanunun 34-cü maddəsinin V hissəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilməlidir.

Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqələrinin «Yol hərəkəti haqqında» Qanuna uyğun olaraq yeniləri ilə əvəz olunması işinin təşkil edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-1-ci maddəsinin «nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs» müddəası hadisə törədilən zaman ümumiyyətlə sürücülük vəsiqəsi olmayan şəxsi, qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilmiş şəxsi, nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılmış şəxsi, həmin növ nəqliyyat vasitəsini idarə etmək hüququna malik olmayan şəxsi ehtiva edir.

**2.** Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqəsinə malik olan şəxs «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 34-cü maddəsinin V hissəsinin müvafiq tələblərinə əməl etmədikdə, həmin Qanunun 33-cü maddəsinin V hissəsinə əsasən hüququ məhdudlaşdırılmış şəxs kimi nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs hesab edilir.

**3.** Keçmiş SSRİ nümunəli müddətsiz sürücülük vəsiqələrinin «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq yeniləri ilə əvəz olunması işinin təşkil edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına tövsiyə edilsin.

**4.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**5.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**6.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

28 oktyabr 2014-cü il                                                   Bakı şəhəri

**«İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 43.4-43.8 və 48-ci maddələrinin şərh edilməsinə dair**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektin nümayəndəsi Şirvan Apellyasiya Məhkəməsinin hakimi Vüsal Cəbrayılovun,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekan müavini, Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlının,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyevin, Bakı Apellyasiya Məhkəməsinin hakimi Sənan Hacıyevin, Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun Hüquq şöbəsinin böyük məsləhətçisi Fərid Hacıəbdülhəlimzadənin, Azərbaycan Respublikası Mərkəzi Bankının Hüquq departamentinin Bank nəzarətinin hüquqi təminat şöbəsinin aparıcı hüquq məsləhətçisi Fərid Bayramovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Şirvan Apellyasiya Məhkəməsinin «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 43.4-43.8 və 48-ci maddələrinin şərh edilməsinə dair müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektin nümayəndəsinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şirvan Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «İpoteka haqqında» Qanun) 43.4-43.8 və 48-ci maddələrinin hərracın təkrar keçirilməsi barədə müddəalarının, tələbkarın ipoteka predmetini əldə etməməsi əsası və ona xitam verilməsi proseduru baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən göründüyü kimi, Z.Səmədov fərdi yaşayış evinin yüklü edilməsi ilə bağlı ipotekaya xitam verilməsinə dair iddia ərizəsi ilə Masallı rayon Məhkəməsinə müraciət etmişdir.

İddia onunla əsaslandırılmışdır ki, Masallı rayon Məhkəməsinin 13 may 2010-cu il tarixli qətnaməsi ilə N.Hüseynovun 33.320 ABŞ dolları 32 sent məbləğində kredit borcunun ipoteka predmeti olan ona məxsus fərdi yaşayış evinə yönəldilərək evin hərrac yolu ilə satılması qət edilmişdir.

«Külək» Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – «Külək» MMC) tərəfindən birinci hərrac 28 fevral 2011-ci il, təkrar hərrac 15 mart 2011-ci il tarixlərində keçirilmişdir. Bundan sonra 5 aprel 2011-ci il tarixində isə daha bir hərrac keçirilmiş və 12 aprel 2011-ci il tarixində tə-

ləbkara ipoteka predmetini 30 təqvim günü ərzində ilkin hərrac qiymətindən 25 faiz aşağı qiymətə almaq təklif edilmiş, əks halda ipotekaya xitam veriləcəyi bildirilmişdir.

Tələbkar 20 aprel 2011-ci il tarixli məktubla hərracın təşkilatçısına müraciət edərək hərracın müvəqqəti dayandırılmasını, 1 sentyabr 2011-ci il tarixli məktubla isə təklif üzrə hərəkətlərin bərpasını xahiş etmişdir. Bundan sonra 8 sentyabr 2011-ci il tarixində «Külək» MMC tərəfindən hərrac keçirilmiş və hərracın qalibi «KredAqro» Bank Olmayan Kredit Təşkilatı (bundan sonra – «KredAqro» BOKT) olmuşdur. Həmin tarixdə də sifarişçi Masallı rayon İcra Bölməsi ilə hərracın qalibi arasında hərracın yekunları üzrə əmlakın alqı-satqısı barədə müqavilə imzalanmışdır.

Masallı rayon Məhkəməsinin 15 yanvar 2013-cü il tarixli qətnaməsi ilə Z.Səmədovun iddiası təmin edilmişdir.

Şirvan Apellyasiya Məhkəməsinin 16 aprel 2013-cü il tarixli qətnaməsi ilə cavabdeh «KredAqro» BOKT-nin apellyasiya şikayəti təmin edilməmiş, iş üzrə Masallı rayon Məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 26 sentyabr 2013-cü il tarixli qərarı ilə Şirvan Apellyasiya Məhkəməsinin qətnaməsi ləğv edilərək iş yenidən baxılması üçün həmin məhkəməyə göndərilmişdir.

Müraciətdə qeyd olunur ki, hərrac təşkilatçısı tərəfindən üç dəfə hərrac keçirilmişdir. Qanunvericilikdə təkrar hərracın keçirilməsi nəzərdə tutulsa da, onun ikinci hərracla yekunlaşması, yaxud bundan sonra da hərrac keçirilməsinin mümkünlüyü müəyyən edilməmişdir. Bu isə məhkəmə təcrübəsində qeyri-müəyyənliyə səbəb olduğundan, həmin məsələni tənzimləyən «İpoteka haqqında» Qanunun 43.8-ci maddəsinin şərh edilməsinə zərurət vardır.

Müraciətdə həmçinin göstərilir ki, «İpoteka haqqında» Qanunun 43.8-ci maddəsinə əsasən ipoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə, ipotekaya xitam verilir. Qeyd olunan maddədən göründüyü kimi, ipoteka saxlayanın hərəkətsizliyi ipotekaya xitam verilməsinin əsas şərti kimi göstərilmişdir. Lakin ipoteka saxlayanın müəyyən olunan müddətdən sonra ipoteka predmetini əldə etmək istəyi olduğu halda, ipotekaya xitam verilməsinə səbəb olub-olmaması həmin Qanunda tənzimlənməmişdir.

Bundan başqa, «İpoteka haqqında» Qanunun 48-ci maddəsində ipotekaya xitam verilməsinin halları göstərilmişdir. Lakin həmin maddədə «təkrar hərrac baş tutmamış elan edildikdən sonra ipoteka saxlayan 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə» müddəası ipotekaya xitam verilməsinə səbəb olan hal kimi nəzərdə tutulmamışdır.

Beləliklə, müraciətedənin fikrincə, «İpoteka haqqında» Qanunun 43.4-43.8 və 48-ci maddələrinin tətbiqi məhkəmə təcrübəsində müəyyən çətinliklərə səbəb olduğundan onların şərh edilməsi zərurəti yaranmışdır.

Müraciətlə bağlı Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, ipotekanın yaranması əsaslarını, tərəflərin hüquq və vəzifələrini, borcun və digər mülki hüquqi öhdəliklərin ipoteka hesabına ödənilməsi qaydalarının qanunvericilik baxımından açıqlanmasını vacib hesab edir.

Mülkiyyət hüquq münasibətlərilə yanaşı, öhdəlik hüquq münasibətləri də əmlak hüquq münasibətlərinin bir növü kimi mülki dövriyyənin iştirakçıları arasında maddi nemətlərin sərbəst yerdəyişməsinə xidmət edir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – MM) 385.1-ci maddəsinə görə öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkətləri etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Konstitusiya Məhkəməsi Plenumunun F.Cavadov və V.Aslanovun şikayəti ilə əlaqədar 30 dekabr 2008-ci il tarixli Qərarında göstərildiyi kimi, öhdəlik münasibətləri tərəflərini intizamlandırmaq, onun yetərincə və vaxtında icra olunmasını təşviq etmək məqsədilə MM-də kreditorla müqayisədə borclu barəsində birbaşa və ya dolayı yük-

lülük yaradan və əlavə təminat vasitəsi kimi çıxış edən öhdəliklərin icrasının təmin edilməsi üsulları da müəyyənləşdirilmişdir. MM-in 460-cı maddəsinə əsasən girov (ipoteka) belə üsullardan biridir.

MM-in 269.1-ci maddəsinə görə girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur.

Bu baxımdan, ipoteka əlavə (aksessor) öhdəlik kimi onunla təmin edilmiş öhdəliklərin yerinə yetirilmədiyi və ya yerinə yetirilməsinin gecikdirildiyi hallarda əmlakdan real məhrum olma təhlükəsi yaratdığından, borclunu əsas öhdəliyin vaxtında icrasına sövq edir.

Mülki hüquq müqavilələrindən irəli gələn öhdəliklərin icrasının təmin edilməsi ilə bağlı ipotekanın yaranması əsasları, onun dövlət qeydiyyatı, təmin olunmuş borcun və digər mülki hüquqi öhdəliyin ipoteka hesabına ödənilməsi qaydaları, tərəflərin hüquq və vəzifələri «İpoteka haqqında» Qanunla tənzimlənir.

Mülki qanunvericiliyə əsasən borclu təminat vasitəsi ipoteka olan əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, ipoteka saxlayan daşınmaz əşyanın satılmasını tələb edə bilər. (MM-in 317.1-ci maddəsi).

«İpoteka haqqında» Qanunun ipoteka predmetinə tutmanın yönəldilməsi əsaslarını müəyyən edən 33-cü maddəsinə əsasən borclu əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, ipoteka saxlayanın tələbinin ödənilməsi üçün ipoteka predmetinə tutma yönəldilə bilər.

Tutma yönəldilən ipoteka predmetinin satış üsullarından biri olan hərracların keçirilmə qaydaları, hərracın baş tutmamış elan edilməsi, bu halda təkrar hərracın keçirilməsi qaydaları və nəticələri «İpoteka haqqında» Qanunun 42 və 43-cü maddələri ilə tənzimlənir.

Həmin Qanunun 43.1-ci maddəsinə görə hərraca iki nəfərdən az alıcı gəldikdə; hərracın iştirakçısı olmadıqda; hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə; hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə (bu şərtlə ki, ipoteka saxlayanın razılığı ilə həmin müddət uzadılmasın) hərracın təşkilatçısı hərracın baş tutmadığı barədə hərracın keçirilməsinə dair elanın verildiyi kütləvi informasiya vasitəsində məlumat dərc etdirir.

«İpoteka haqqında» Qanunun 43.3-43.5-ci maddələrinə əsasən hərracın baş tutmaması barədə elanın dərc edildiyi gündən sonra 10 təqvim günü müddətində ipoteka saxlayan ipoteka qoyanla müqavilə əsasında ipoteka predmetini ilkin satış qiymətilə ala bilər. İpoteka predmetinin ipoteka saxlayan tərəfindən alınması barədə bu Qanunun 43.3-cü maddəsində nəzərdə tutulmuş müqavilə baş tutmadıqda birinci hərracın keçirildiyi gündən bir 45 təqvim günündən gec olmayaraq, təkrar hərrac keçirilir. Təkrar hərrac bu Qanunun 42-ci maddəsində nəzərdə tutulmuş qaydada keçirilir. Hərrac təşkilatçısı ipoteka predmetini ilkin satış qiymətilə, bu Qanunun 43.1.2-ci maddəsində nəzərdə tutulmuş səbəbə görə ilkin satış qiymətindən 15 faiz aşağı qiymətlə hərraca çıxarır.

«İpoteka haqqında» Qanunun 43.7 və 43.8-ci maddələrinə müvafiq olaraq bu Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hərrac digər səbəblərə görə baş tutmamış elan edildikdə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı ilkin satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər. İpoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə, ipotekaya xitam verilir.

Konstitusiya Məhkəməsinin Plenumu «İpoteka haqqında» Qanunun yuxarıda göstərilən normaları baxımından hərracın təkrar keçirilməsi ilə bağlı aşağıdakıları qeyd edir.

«İpoteka haqqında» Qanunun 43-cü maddəsinin mənasından belə nəticəyə gəlmək olar ki, bu Qanunun 42-ci maddəsində göstərilmiş qaydada cəmi iki hərracın keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, birinci hərracın həmin Qanunun 43.1.2-ci maddəsində nəzərdə tutulmuş səbəbə görə, yəni hərracın iştirakçısının olmamasına görə baş tutmaması nəticəsində təkrar keçirilən hərracda ipo-

teka predmetinin ilkin satış qiymətinin əvvəlki hərracdakı qiymətindən 15 faiz aşağı qiymətlə satılması nəzərdə tutulmuşdur. Bundan fərqli olaraq, həmin Qanunun 43.1.1, 43.1.3 və 43.1.4-cü maddələrində nəzərdə tutulmuş digər səbəblərə görə (yəni hərraca iki nəfərdən az alıcı gəldikdə, hərracı udmuş iştirakçı hərracın nəticələri barədə protokol imzalamaqdan imtina etdikdə, hərracı udmuş iştirakçı bu Qanunla müəyyən olunmuş müddətdə alış qiymətini tamamilə ödəmədikdə) hərrac baş tutmamış elan edildikdə, ilkin satış qiyməti dəyişməmiş saxlanılır.

Birinci hərracdan fərqli olaraq, təkrar hərrac zamanı «İpoteka haqqında» Qanunun 43.1.1-ci maddəsində nəzərdə tutulmuş hal, yəni hərraca iki nəfərdən az alıcının gəlməsi hərracın baş tutmaması halı kimi nəzərdə tutulmamışdır. Belə ki, Qanunun 43.6-cı maddəsinə əsasən təkrar hərracda bir iştirakçı olduğu halda da hərrac baş tutmuş hesab olunur və həmin şəxs hərracın qalibi olur.

«İpoteka haqqında» Qanunun 43.1.2, 43.1.3 və 43.1.4-cü maddələrində nəzərdə tutulmuş hallara görə hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka saxlayana ipoteka predmetini təkrar hərracdakı ilkin satış qiymətindən 25 faiz az olmayan qiymətlə almaq imkanı verilir. («İpoteka haqqında» Qanunun 43.7 və 43.8-ci maddələri).

Müraciətdən və Konstitusiya Məhkəməsi Plenumunun iclasındakı çıxışlardan göründüyü kimi, bəzən hərrac təşkilatçısı ipoteka saxlayanın təklifini də hərracın keçirilməsi kimi qiymətləndirərək üçüncü hərracı keçirir. Bundan başqa, müəyyən müddət keçdikdən sonra da icra məmurunun və ya tələbkarın müraciəti əsasında hərracların keçirilməsinə təcrübədə təsadüf edilir.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, təkrar hərrac adı ilə üç və daha çox hərracın keçirilməsi «İpoteka haqqında» Qanunun tələblərindən irəli gəlmir və ipoteka qoyanın hüquqlarının pozulmasına səbəb olur. Belə ki, təkrar hərracın baş tutmaması ipoteka qoyan üçün ipotekaya xitam verilməsindən ibarət «İpoteka haqqında» Qanunun 43.8-ci maddəsində nəzərdə tutulmuş müəyyən hüquqi imkanların yaranması ilə nəticələnir.

Qeyd olunduğu kimi, «İpoteka haqqında» Qanunun 43.8-ci maddəsində nəzərdə tutulmuşdur ki, təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka saxlayan tərəfindən ipoteka predmetinin əldə edilməməsi ipotekaya xitam verilməsi ilə nəticələnir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, «İpoteka haqqında» Qanunun 43-cü maddəsində yalnız iki hərracın keçirilməsi nəzərdə tutulduğundan, hər hansı əsasla yeni hərracların keçirilməsi qanuna zidd hesab edilməlidir.

«İpoteka haqqında» Qanunun 43.8-ci maddəsində nəzərdə tutulmuş 30 günlük müddətin keçməsindən sonra da ipoteka saxlayanın ipoteka predmetini əldə etmək imkanının olub-olmamasına dair müraciətdə qaldırılmış məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, «İpoteka haqqında» Qanunda ipoteka saxlayana təkrar hərracın baş tutmamış elan edilməsindən sonra 30 gün müddətində ipoteka predmetini ilkin satış qiymətindən 25 faiz az olmayan qiymətlə almaq imkanı yalnız bir dəfə verilmişdir.

«İpoteka haqqında» Qanunun 43.8-ci maddəsi hüquq münasibətlərinin müəyyənliyini və sabitliyini yaratmaq, habelə ipoteka saxlayanı öz hüquqlarından vaxtında istifadə etməsi üçün intizamlandırmaq məqsədini daşıyır.

İpoteka saxlayan tərəfindən ipoteka predmetini almaq imkanından vaxtında istifadə edilməməsi, ipoteka qoyan üçün mühüm olan ipotekaya xitam verilməsi imkanından istifadə etmək hüququnu yaradır.

«İpoteka haqqında» Qanunun başqa şəkildə şərh edilməsi, yəni ipoteka saxlayana bu imkanın qanunla müəyyən edilmiş müddətdən sonra da yenidən verilməsi, ipoteka qoyanın qanunla qorunan hüquq və maraqlarının pozulmasına gətirib çıxarar.

Müraciətdə həmçinin göstərilir ki, «İpoteka haqqında» Qanunun 48-ci maddəsində ipotekaya xitam verilməsinin əsasları sırasında Qanunun 43.8-ci maddəsinin «ipoteka saxlayan təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməzsə»

müddəası ipotekaya xitam verilməsinə səbəb olan hal kimi nəzərdə tutulmamışdır.

Bundan başqa, «İpoteka haqqında» Qanunda ipotekaya xitam verilməsi göstərilsə də, xitam verilmənin prosessual qaydası, yəni ipotekaya hansı orqan (məhkəmə və ya digər orqan) tərəfindən hansı icraat qaydasında (iddia icraatı və ya məhkəmə qərarlarının icrası qaydasında) xitam verilməli olması qeyd olunmamışdır.

Məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, ipotekaya xitam verilməsi halları «İpoteka haqqında» Qanunun 48-ci maddəsində göstərilmişdir.

Bu hallar sırasına: ipoteka saxlayan və ipoteka qoyanın bu barədə razılığa gəlməsi; əsas öhdəliyə xitam verilməsi; tutmanın yönəldilməsi nəticəsində ipoteka predmetinin satılması; ipoteka predmetinin məhv olması; «İpoteka haqqında» Qanunla nəzərdə tutulmuş digər hallar aid edilmişdir. («İpoteka haqqında» Qanunun 48.1.1-48.1.5-ci maddələri).

Göründüyü kimi, ipoteka saxlayanın təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etməməsi halı «İpoteka haqqında» Qanunun 48-ci maddəsində birbaşa göstərilməsə də, həmin Qanunla nəzərdə tutulmuş ipotekaya xitam verilməsinin digər hallarından biri qismində çıxış edir. («İpoteka haqqında» Qanunun 48.1.5-ci maddəsi).

«İpoteka haqqında» Qanunun 43.8-ci maddəsində göstərilən əsasla ipotekaya xitam verilməsinin proseduru ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, ikinci hərrac keçirildikdən sonra 30 gün müddətində ipoteka saxlayan ipoteka predmetini əldə etmədikdə, ipoteka qoyanın iddiası ilə məhkəmə icraatı qaydasında ipotekaya xitam verilə bilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir:

«İpoteka haqqında» Qanunun 43-cü maddəsində yalnız iki hərracın keçirilməsi nəzərdə tutulduğundan, hər hansı əsasla yeni hərracların keçirilməsi həmin Qanuna zidd hesab edilməlidir;

«İpoteka haqqında» Qanunun 43.8-ci maddəsinin tələblərinə uyğun olaraq, ipoteka saxlayanın yalnız bir dəfə təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etmək imkanı vardır;

ikinci hərrac keçirildikdən sonra 30 təqvim günü ərzində ipoteka saxlayan ipoteka predmetini əldə etmədikdə, ipoteka qoyan mülki məhkəmə icraatı qaydasında ipotekaya xitam verilməsini tələb edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 43-cü maddəsində yalnız iki hərracın keçirilməsi nəzərdə tutulduğundan, hər hansı əsasla yeni hərracların keçirilməsi həmin Qanuna zidd hesab edilməlidir.

**2.** «İpoteka haqqında» Azərbaycan Respublikası Qanununun 43.8-ci maddəsinin tələblərinə uyğun olaraq, ipoteka saxlayanın yalnız bir dəfə təkrar hərrac baş tutmamış elan edildikdən sonra 30 təqvim günü ərzində ipoteka predmetini əldə etmək imkanı vardır.

**3.** İkinci hərrac keçirildikdən sonra 30 təqvim günü ərzində ipoteka saxlayan ipoteka predmetini əldə etmədikdə, ipoteka qoyan mülki məhkəmə icraatı qaydasında ipotekaya xitam verilməsini tələb edə bilər.

**4.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**5.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**6.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

9 dekabr 2014-cü il Bakı şəhəri

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 7 noyabr 2013-cü il tarixli qərarı ilə əlaqədar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21.3 və 78-ci maddələrinin şərh edilməsinə dair**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov və İsa Nəcəfovdan ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərovun, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Hafiz Nəsibovun,

ekspertlər Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun, Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firuzə Abbasovanın,

mütəxəssislər Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi Həsən Əhmədovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun Kərimov Emin Akif oğlunun cinayət işi üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 7 noyabr 2013-cü il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının və Cinayət Məcəlləsinin bəzi müddəalarına uyğunluğunun yoxlanılmasına dair sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertlərin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) sorğu ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Emin Kərimovun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 206.2 və 234.4.3-cü maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin CK) 7 noyabr 2013-cü il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya), maddi və prosessual qanunvericiliklərin müvafiq maddələrinin müddəalarına uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuda göstərilir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 18 fevral 2013-cü il tarixli qərarı ilə E.Kərimov cinayət törətdikdən sonra psixi xəstəliyə tutulduğundan, yəni Cinayət Məcəlləsinin 21.3-cü maddəsinin təsiri altına düşdüyündən, Cinayət Məcəlləsinin 78-ci maddəsinə əsasən cəzadan azad edilmiş, Cinayət Məcəlləsinin 93.1.2 və 95.0.3-cü maddələrinə uyğun olaraq barəsində tibbi xarakterli məcburi müalicə tədbiri tətbiq edilmiş, cinayət işi üzrə icraat dayandırılmış, maddi sübutların müsadirə edilərək məhv edilməsi qərara alınmışdır.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 10 iyul 2013-cü il tarixli qərarı ilə apellyasiya protesti qismən təmin edilərək, birinci instansiya məhkəməsinin qərarından ekspertiza xərclərinə dair müddəalar xaric edilmiş, qərar qalan hissədə dəyişdirilmədən saxlanılmışdır.

Ali Məhkəmənin CK-nın 7 noyabr 2013-cü il tarixli qərarı ilə apellyasiya instansiyası məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmış, kassasiya protesti təmin edilməmişdir.

Prokurorluq sorğuda təqsirləndirilən şəxsə cəza təyin edilmədiyi halda, onun cəzadan azad edilməsi və cinayət işi üzrə icraat dayandırıldığı halda, maddi sübutların məhv edilməsi haqqında məhkəmə instansiyalarının qərarlarının Konstitusiyanın 63-cü maddəsinin I və V, 127-ci maddəsinin II, VIII və IX, 129-cu maddəsinin III, 148-ci maddəsinin II hissəsinə, eləcə də Cinayət Məcəlləsinin 41.1 və 78-ci maddələrinin, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət Prosessual Məcəlləsi) 7.0.4, 10, 28, 53, 54, 91.5.14, 91.5.25, 132, 323.1.4, 333.1, 486.1, 487.1 və 511-ci maddələrinin müddəalarına uyğun olub-olmamasının yoxlanılmasını xahiş etmişdir.

Sorğu ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd etməyi zəruri hesab edir ki, Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 4-cü bəndinə və V hissəsinə müvafiq olaraq Ali Məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktlarının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılması yalnız konstitusiya ədalət mühakiməsinin subyektləri arasında müvafiq konstitusiya hüquq mübahisəsinin olması ilə şərtlənir.

Sorğuda məhkəmə aktının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılması məsələsi faktiki olaraq konstitusiya ədalət mühakiməsinin subyektləri arasında konstitusiya hüquq mübahisəsi ilə əlaqəli olmadığından, lakin məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb etdiyindən, Konstitusiya Məhkəməsinin Plenumu məsələ ilə bağlı bəzi qanunvericilik normalarının şərh edilməsini zəruri hesab edir.

Sorğunun mahiyyətinə gəldikdə isə Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət hüquqi xarakterli tədbirləri müəyyən edir (Cinayət Məcəlləsinin  2-ci maddəsi).

Belə tədbirlərdən biri də Cinayət Məcəlləsinin 78-ci maddəsində öz əksini tapmışdır.

Lakin Cinayət Məcəlləsinin 78-ci maddəsində nəzərdə tutulmuş cəzadan azad etmənin növlərini təhlil etməzdən əvvəl qeyd etmək lazımdır ki, burada söhbət anlaqlı vəziyyətdə cinayət törətmiş şəxsdən, yəni, cinayət məsuliyyətinin əsası olan cinayət tərkibinin mövcud olmasından gedir. Bu səbəbdən iki müxtəlif şəraiti fərqləndirmək lazımdır:

– şəxs cinayəti anlaqsız vəziyyətdə törətdikdə və subyektin olmaması səbəbindən əməlində cinayət tərkibi aşkarlanmadıqda (Cinayət Məcəlləsinin 21.1 və 21.2-ci maddələri);

– şəxs cinayəti anlaqlı vəziyyətdə törətdikdə, lakin sonradan psixi və ya digər xəstəliyə tutulduqda (Cinayət Məcəlləsinin 21.3 və 78-ci maddələri).

İkinci halla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, anlaqlı vəziyyətdə törətdiyi cinayətə görə cinayət məsuliyyətinə cəlb edilən şəxsin məhkum edilməli olması və onun barəsində qanunla nəzərdə tutulmuş hallarda cəza tədbirlərinin həyata keçirilməsi inkar edilməzdir.

Bununla belə, öz-özlüyündə cinayətin törədilməsi faktı və təqsirli şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi mütləq olaraq cəzanın tətbiq edilməsi və çəkilməsi ilə nəticələnmir. Bəzi hallarda təqsirləndirilən şəxsə münasibətdə hətta ən yüngül cəzanın tətbiq edilməsi faktiki və ya cinayət-hüquqi halların mövcud olması səbəbindən mümkün, yaxud məqsədə müvafiq olmur.

Cinayət-hüquqi mənasına görə bu hallar cəza çəkməyə bərabər tutularaq, onun sosial-hüquqi ekvivalenti qismində çıxış edir və bu səbəbdən də cəzanın tətbiqini və ya onun çəkilməsini aradan qaldırır.

Belə hallar sırasına anlaqlı vəziyyətdə cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxsə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi də aiddir.

Əvvəlki Cinayət Məcəlləsində cinayət törətdikdən sonra, lakin məhkəmə hökm çıxaranadək ruhi xəstəliyə tutulan və bunun nəticəsində öz hərəkətlərini dərk etmək və ya idarə etmək imkanından məh-

rum olan şəxsin cəzadan azad edilməsi nəzərdə tutulmuşdu (əvvəlki Cinayət Məcəlləsinin 11-ci maddəsi). Bu norma Məcəllənin «Cinayət haqqında» fəslində yerləşdirilmişdi. Məcəllənin «Cəzadan azad etmə» fəslində isə şəxsin xəstəliyə görə məhkəmənin hökmü ilə təyin olunmuş cəzadan azad edilməsinə dair norma mövcud deyildi. Cinayət Məcəlləsində yaranmış bu boşluğun aradan qaldırılmasını cinayət-prosessual və islah-əmək qanunvericilikləri öz üzərlərinə götürərək, hökm ilə təyin olunmuş cəzadan azad etmənin əsaslarını və qaydalarını müəyyən etmişdilər.

Lakin cəzadan azad etmə prosessual təsisat kimi qəbul edilə bilməz. İlk növbədə, «cəzadan azad etmə» anlayışı cinayət prosesinin özünə deyil, cinayətin hüquqi nəticələrinə işarə edir. Cəzadan azad etmənin mahiyyətində cəzanın təyin edilməsinin və ya çəkilməsinin məqsədsizliyi və ya mümkünsüzlüyü durur.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18 və 83.1-ci maddələrinin şərh edilməsinə dair» 6 sentyabr 2010-cu il tarixli Qərarında göstərildiyi kimi, Cinayət Prosessual Məcəlləsi cinayət hüquq normalarının tətbiq edilməsi üçün prosessual vasitələri müəyyən edir. Cinayət Prosessual Məcəlləsinin normaları yalnız Cinayət Məcəlləsinin normalarının reallaşdırılmasına istiqamətlənməlidir.

Göstərilənlərlə əlaqədar və qanunlar arasında yaranmış boşluğun aradan qaldırılması məqsədi ilə qanunverici əvvəlki cinayət, cinayət-prosessual və islah-əmək qanunvericiliklərində olan normaları bir cinayət hüquq institutunda – şəxsin cinayət törətdikdən sonra xəstəliyə tutulması institutunda birləşdirərək, bu instituta müstəqil hüquqi xarakter vermişdir. Qanunvericilik texnikasına və məntiqinə uyğun olaraq hazırda qüvvədə olan Cinayət Məcəlləsində bu institut iki müstəqil normada əks olunmuşdur: «Cinayət məsuliyyətinə cəlb edilməli olan şəxslər» adlandırılan dördüncü fəslin 21.3-cü maddəsində və «Cəzadan azad etmə» adlandırılan on ikinci fəslin 78-ci maddəsində.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib bilir ki, Cinayət Məcəlləsinin 21.3 və 78-ci maddələri tətbiq olunarkən aşağıdakı halların nəzərə alınması böyük əhəmiyyət kəsb edir.

Konstitusiya Məhkəməsi Plenumunun «Psixiatriya yardımı haqqında» Azərbaycan Respublikası Qanununun 28.2, 28.3, 29.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 98.1, 99-cu maddələrinin şərh edilməsinə dair» 15 aprel 2011-ci il tarixli Qərarında hazırkı sorğuda göstərilən məsələlərə dair bəzi açıqlamalar verilmişdir. Belə ki, həmin Qərarda Cinayət Məcəlləsinin 21, 93-99-cu maddələrinin mahiyyəti açıqlanaraq, qeyd edilmişdir ki, anlaqsızlıqla əlaqədar cinayət məsuliyyətinin hüquqi nəticələrinin üç forması müəyyən edilmişdir. Birincisi, şəxsin anlaqsız vəziyyətdə cinayət törətməsidir. İkincisi, şəxsin anlaqlı vəziyyətdə cinayət törətməsi, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmasıdır. Üçüncüsü, şəxsin törətdiyi cinayətə görə cəza təyin edildikdən sonra psixi xəstəliyə tutulmasıdır.

Həmin Qərarın müddəalarını inkişaf etdirərək, Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin və Cinayət Prosessual Məcəlləsinin məsələyə aid olan müvafiq maddələrinin əlaqəli şəkildə təhlil edilməsini vacib hesab edir.

Cinayət Məcəlləsinin 21.3-cü maddəsinə əsasən, anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Göründüyü kimi, Cinayət Məcəlləsinin 21.3-cü maddəsində söhbət şəxsin cinayəti törətdikdən sonra onun barəsində hökm çıxarılanadək psixi xəstəliyə tutulmasından gedir.

Bu, cinayət işinin qaldırılması mərhələsində, ibtidai istintaq mərhələsində (cinayəti törətdikdən sonra psixi xəstəliyə düçar olmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxsə qarşı məhkəməyədək icraatın aparılması mütləqdir), məhkəmə baxışının təyin olunması və ya məhkəmə baxışı mərhələsində də baş verə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayət törətmiş şəxsdə psixi pozuntu onun barəsində məhkəmənin hökmü çıxarılanadək baş vermişdirsə, o cəzalandırıla bilməz, bu, anlamsız olardı. Şəxsi öz əməlini dərk etmək və ya öz hərəkətlərini idarə etmək imkanından məhrum edən psixi xəstəlik eyni zamanda dövlətin ona hüquq və azadlıqlardan məhrum etmə və ya onların məhdudlaşdırılmasından ibarət olan təsirinin məcburi xarakterini də dərk etməyə imkan vermir. Bu cür şəxslərə mü-

nasibətdə məhkəmə yalnız Cinayət Məcəlləsinin 95-ci maddəsində nəzərdə tutulmuş tibbi xarakterli məcburi tətbirlər tətbiq edə bilər. Belə şəxsin cinayət məsuliyyətinə cəlb olunması və ona cəzanın təyin olunması məsələsi ən azından o sağalanadək təxirə salınmalıdır.

Belə nəticəyə gələrkən Konstitusiya Məhkəməsinin Plenumu qanunvericiliyin aşağıdakı tələblərini nəzərə alır.

Cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi qaydaları Cinayət Prosessual Məcəlləsinin LVI fəslinin 479-487-ci maddələrində nəzərdə tutulmuşdur.

Buna dair Konstitusiya Məhkəməsi Plenumunun adıçəkilən 15 aprel 2011-ci il tarixli Qərarında qeyd edilmişdir: «Məcburi müalicənin əsasları Cinayət Məcəlləsinin 21, 93-99-cu maddələri ilə, prosessual qaydası isə Cinayət Prosessual Məcəlləsinin 468-487-ci maddələri ilə müəyyən olunmuşdur. Belə ki, Cinayət Prosessual Məcəlləsinin 468 və 479-cu maddələrinə görə anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər və cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat Məcəllənin 468-478-ci və 479-487-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır».

Cinayət Prosessual Məcəlləsinin 480.4.1-ci maddəsinə uyğun olaraq, cinayət işi üzrə ibtidai istintaq zamanı şəxsin cinayət törətdikdən sonra psixi xəstəliyə tutulması müəyyən edildikdə cinayət işinin icraatı dayandırılmaqla Cinayət Prosessual Məcəlləsinin LVI fəslində nəzərdə tutulan icraat üzrə tibbi xarakterli məcburi tədbirlərin tədbiq edilməsi üçün iş məhkəməyə göndərilir.

Şəxsin Cinayət Məcəlləsinin 21.3-cü maddəsinin təsiri altına düşən psixi xəstəliyə düçar olmasına dair materiallar üzrə məhkəmə, Cinayət Prosessual Məcəlləsinin 485-ci maddəsinə uyğun olaraq əməlin törədilib-törədilmədiyini, əməldə cinayət tərkibinin olub-olmadığını, həmin əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilmədiyini, şəxsin psixi xəstəliyə tutulub-tutulmadığını, xəstəliyin xarakterini və xəstəlik vəziyyətinin baş verdiyi vaxtı, şəxsin barəsində tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsinə ehtiyacın olub-olmadığını və olduğu halda məhz hansı tədbirin tətbiq edilməsinə ehtiyac olduğunu yoxlamalıdır. Araşdırılmış sübutlarla şəxsin ona ittiham olunmuş cinayət əməlini törətməsi, cinayət törətdikdən sonra psixi xəstəliyə tutulması və tibbi xarakterli məcburi tədbirin tətbiqinə ehtiyacı olması təsdiq olunduqda, məhkəmə onun barəsində belə tədbirin tətbiq edilməsinə dair qərar çıxarır.

Şəxs psixi xəstəliyə məhkəmə baxışı mərhələsində tutulduğu halda məhkəmə, həmçinin iş üzrə icraatın dayandırılması haqqında məsələni həll etməlidir (Cinayət Prosessual Məcəlləsinin 485.5-ci maddəsi).

Məhkəmə, barəsində tibbi xarakterli məcburi tədbirin tətbiq edildiyi şəxsi sağalmış hesab etdikdə, tibbi rəy əsasında tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi haqqında qərar çıxarır və cinayət işini ibtidai araşdırmanın aparılması və ya məhkəmə baxışının keçirilməsi üçün göndərilməsi haqqında məsələni həll edir (Cinayət Prosessual Məcəlləsinin 487-ci maddəsi).

Göründüyü kimi, nə Cinayət Məcəlləsində, nə də Cinayət Prosessual Məcəlləsində cinayət törətdikdən sonra hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş şəxsin cəzadan azad edilməsi nəzərdə tutulmamışdır.

Bu Məcəllələrin yuxarıda göstərilən normalarının əlaqəli şəkildə təhlili isə belə nəticəyə gəlməyə əsas verir ki, məhkəmə Cinayət Məcəlləsinin 21.3-cü maddəsində nəzərdə tutulmuş anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş şəxs barəsində Cinayət Prosessual Məcəlləsinin 485-ci maddəsinin tələblərinə riayət olunmaqla tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsini həll edir.

Məhkəmə tərəfindən bu işlər üzrə icraatın dayandırılması məsələsi Cinayət Prosessual Məcəlləsinin 485.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq həll edilir.

Şəxsin cinayət törətdikdən sonra xəstəliyə tutulması institutunun digər halları Cinayət Məcəlləsinin 78-ci maddəsində nəzərdə tutulmuşdur.

Həmin Məcəllənin 78.1-ci maddəsinin tələblərinə görə cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin (hərəkət və hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad olunur. Belə şəxs barəsində məhkəmə tərəfindən bu Məcəllə ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Həmin Məcəllənin 78.2-ci maddəsinə əsasən cinayət törətdikdən sonra cəzanın çəkilməsinə mane olan sair ağır xəstəliyə düçar olmuş şəxs məhkəmənin qərarı ilə cəza çəkməkdən azad edilə bilər.

Cinayət Məcəlləsinin 78.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, intizam xarakterli hərbi hissədə saxlama növündə cəza çəkən hərbi qulluqçular, onların hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliyə düçar olduqda, cəzanın qalan hissəsini çəkməkdən azad edilirlər. Belə hallarda məhkəmə həmin şəxslərə (onkoloji xəstəliyin terminal mərhələsində olan şəxslər istisna olmaqla) cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər.

Göründüyü kimi, Cinayət Məcəlləsinin 78-ci maddəsi şəxsin cəzadan azad edilməsinin üç müstəqil əsasını nəzərdə tutur:

şəxsi öz əməllərini dərk etmək və ya hərəkətlərini idarə etmək imkanından məhrum edən psixi xəstəlik;

cəzanın çəkilməsinə mane olan sair ağır xəstəlik;

hərbi qulluqçunun hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olmuş xəstəlik.

Qeyd olunan normalarda göstərilən birinci və üçüncü əsaslar imperativ xarakter daşıyırlar və məhkəmənin vəzifəsi kimi çıxış edirlər. İkinci əsas isə fakültətiv xarakter daşıyır və bu halda cəzadan azad etmə məhkəmənin mülahizələrindən asılı olur.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 21.3-cü maddəsindən fərqli olaraq, həmin Məcəllənin 78.1-ci maddəsi cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslərin məhkəmə hökmü ilə təyin olunmuş cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad olunmasını nəzərdə tutur.

Onu da dəqiqləşdirmək lazımdır ki, Cinayət Məcəlləsinin 78.1-ci maddəsinin mənasına görə psixi xəstəlik hökm elan edildikdən sonra icra edilənədək baş verdiyi halda, şəxs təyin olunmuş cəzadan, cəzanı çəkdiyi zaman isə cəzanın çəkilməmiş hissəsindən azad olunur.

Belə nəticə qanunvericiliyin aşağıdakı tələblərindən irəli gəlir:

Cinayət Məcəlləsinin 41.1-ci maddəsinə əsasən cəza-məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir.

Cinayət Məcəlləsinin 41.1-ci və Cinayət Prosessual Məcəlləsinin 349.1-ci maddələri cəzanın aşağıdakı əlamətlərini müəyyən edir:

cəza cinayəti törətməkdə təqsirli bilinən şəxs barəsində tətbiq edilir;

cəza dövlətin adından məhkəmənin hökmü ilə təyin edilir.

Cinayət Məcəlləsinin on ikinci fəslində cəzadan azad etmənin növləri nəzərdə tutulmuşdur və nəzəri baxımdan həmin növlər üçün ümumi olan aşağıdakı cəhətləri göstərmək olar:

cəzadan azad etmə institutu cinayət törətməkdə təqsirli bilinən şəxsi məhkəmənin hökmü ilə təyin edilən cəzadan azad edir;

cəzadan azad etmə cinayət mühakimə icraatının müəyyən mərhələsi-ittihamedici hökmün çıxarılması ilə bağlıdır. Cəzadan azad etmə hökm qanuni qüvvəyə mindiyi andan cəza çəkilib qurtarana qədər olan dövrü əhatə edir;

əfv etmə və amnistiya aktları ilə cəzadan azad etmə istisna olmaqla, cəzadan azad etmə məhkəmənin müstəsna səlahiyyətidir;

cəzadan azad etmənin nəticəsində şəxs barəsində olan ittiham hökmü dəyişikliyə məruz qalmır.

Təsadüfi deyil ki, yuxarıda sadalanmış ümumi cəhətlərə cavab verən Cinayət Məcəlləsinin 78-ci maddəsi məhkəmənin hökmü ilə təyin edilən cəzadan azad etmənin digər növləri kimi Məcəllənin məhz «Cəzadan azad etmə» fəslində yerləşdirilmişdir.

Şəxsin cinayət törətdikdən sonra məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmasına dair icraat Cinayət Prosessual Məcəlləsinin LVI fəslinin 479-487-ci maddələri ilə tənzimləndiyi halda, Cinayət Məcəlləsinin 78-ci maddəsində nəzərdə tutulan xəstəliyə görə cəzanı çəkməkdən azad etmənin qaydaları isə Cinayət Prosessual Məcəlləsinin «Hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat» adlanan LVIII fəslinin 511-ci maddəsi ilə müəyyən edilmişdir.

Cinayət Prosessual Məcəlləsinin «Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə» adlanan 511.1-ci maddəsinə görə məhkumun cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə tutulduğu halda cəzaçəkmə yeri üzrə birinci instansiya məhkəməsi cinayət qanununun müddəalarına müvafiq olaraq həkim komissiyasının rəyi əsasında həmin şəxsi cəza çəkməkdən azad edə bilər.

Psixi xəstəliyə tutulmuş məhkum, cəzanı çəkməkdən azad edildiyi halda, məhkəmə onun barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq etmək, yaxud onu səhiyyə orqanlarının və ya qohumlarının himayəsinə vermək hüququna malikdir (Cinayət Prosessual Məcəlləsinin 511.3-cü maddəsi).

Göründüyü kimi, Cinayət Prosessual Məcəlləsinin 511-ci maddəsində məhkumun, yəni məhkəmə-

nin qanuni qüvvəyə minmiş hökmü ilə cinayət cəzası təyin olunmuş şəxsin cəzadan azad edilməsi, həmin şəxs psixi xəstəliyə tutulduğu halda onun barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 78-ci maddəsi, bu maddədə göstərilən xəstəliklər məhkəmənin ittiham hökmü elan edildikdən sonra icra edilənədək və ya cəzanın çəkilməsi zamanı baş verdiyi halda, şəxsin müvafiq olaraq cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad edilməsini, yaxud azad edilməsinin mümkünlüyünü nəzərdə tutur.

Məhkəmə qərarına əsasən maddi sübutların məhv edilməsi məsələsinə gəldikdə isə Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Cinayət Prosessual Məcəlləsinin XIV fəslində sübutların anlayışı və növləri verilmiş, onların saxlanılması və mühafizəsi qaydaları, cinayət təqibi üzrə icraat aparıldığı müddətdə onların mühafizəsinin təmin edilməsi, sübutlar barədə qəbul edilən qərarlar və s. məsələlər kifayət qədər aydın tənzimlənmişdir.

Cinayət Prosessual Məcəlləsinin 132-ci maddəsinə əsasən maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar məhkəmə hökm, cinayət prosesini həyata keçirən orqan isə cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərar çıxararkən məhkum edilmiş şəxslərə məxsus cinayətin alətləri, həmçinin dövriyyəsi qadağan edilmiş əşyalar müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların qiyməti olmadıqda isə məhv edilməlidir.

Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair məhkəmənin qərarı əsasında maddi sübutların məhv edilməsi qanunvericiliyin tələblərinə cavab verməməklə yanaşı, təqsirləndirilən şəxsi gələcəkdə maddi sübutların tədqiq olunması, təkrar ekspertizaların keçirilməsi, cinayət prosessual qanunvericiliklə müəyyən edilmiş sair üsullarla onların mübahisələndirilməsi imkanlarından məhrum etməklə, həmin şəxsin ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına gətirib çıxarmış olar.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıda göstərilən nəticələrə gəlir:

• Məhkəmə Cinayət Məcəlləsinin 21.3-cü maddəsində nəzərdə tutulmuş anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş şəxs barəsində Cinayət-Prosessual Məcəlləsinin 485-ci maddəsinin tələblərinə riayət olunmaqla tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsini həll edir.

Məhkəmə tərəfindən belə işlər üzrə icraatın dayandırılması məsələsi Cinayət Prosessual Məcəlləsinin 485.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq həll edilir.

• Cinayət Məcəlləsinin 78-ci maddəsi, bu maddədə göstərilən xəstəliklər məhkəmənin ittiham hökmü elan edildikdən sonra icra edilənədək və ya cəzanın çəkilməsi zamanı baş verdiyi halda, şəxsin müvafiq olaraq cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad edilməsini, yaxud azad edilməsinin mümkünlüyünü nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## QƏRARA ALDI:

**1.** Məhkəmə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21.3-cü maddəsində nəzərdə tutulmuş anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş şəxs barəsində Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 485-ci maddəsinin tələblərinə riayət olunmaqla tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsini həll edir.

Məhkəmə tərəfindən belə işlər üzrə icraatın dayandırılması məsələsi Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 485.5-ci maddəsində göstərilən qaydaya uyğun olaraq həll edilir.

**2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 78-ci maddəsi, bu maddədə göstərilən xəstəliklər məhkəmənin ittiham hökmü elan edildikdən sonra icra edilənədək və ya cəzanın çəkilməsi zamanı baş verdiyi halda, şəxsin müvafiq olaraq cəzadan və ya cəzanın qalan hissəsini çəkməkdən azad edilməsini, yaxud azad edilməsinin mümkünlüyünü nəzərdə tutur.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**